Komtenin tarix fəlsəfəsinin mərkəzində "üç mərhələ qanunu" dayanır. Bu qanuna əsasən, insan zəkası və toplum ardıcıl olaraq teoloji, metafizik və pozitiv mərhələlərdən keçir. Bu nəzəriyyə ilə Komte, tarixin intizamlı və öncədən müəyyənləşdirilə bilən inkişaf mərhələləri vasitəsilə formalaşdığını iddia etmişdir. Tarixi proseslərin belə mərhələli quruluşu toplumun şüur səviyyəsindəki dəyişikliklərlə bilavasitə əlaqələndirilmişdir: fərdlərin və toplumların düşüncə tərzi dəyişdikcə, ictimai institutlar və təşkilati strukturlar da transformasiyaya uğrayır.

Komtenin yanaşması tarixdə teleoloji bir istiqamət nəzərdə tutur: insanlıq, zəruri olaraq pozitiv biliyə, yəni elmi idrak mərhələsinə doğru irəliləyir. Bu irəliləyiş ideyası tarixi yalnız keçmişin təsviri kimi deyil, həm də gələcək üçün yön göstərən bir proses kimi dəyərləndirməyə imkan verir. Komteyə görə, tarixi bilmək, toplumun gələcək inkişaf istiqamətlərini elmi əsaslarla proqnozlaşdırma imkanı yaradır.

Bundan əlavə, Komte tarixə orqanik bir inkişaf modeli tətbiq edir. O, toplumu bir orqanizmə bənzədir və müxtəlif sosial institutların funksional harmoniyasını qeyd edir. Tarixdə dəyişikliklər kəskin inqilabi sıçrayışlar şəklində deyil, daha çox tədrici, uyğunlaşmaya əsaslanan bir təkamül prosesi kimi təqdim edilir.

Komtenin tarix fəlsəfəsi sonrakı dövrlərdə sosial elmlərin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Xüsusilə, tarixi qanunların və ictimai inkişaf mərhələlərinin müəyyən olunması cəhdləri onun fikirlərinə istinad etmişdir. Bununla belə Komtenin determinist yanaşması və tarixi proseslərin

zəruriliyinə etdiyi vurğu sonradan tənqidlərə də məruz qalmışdır; çünki tarixi hadisələrin çoxölçülü və qeyri-müəyyən təbiəti bəzi hallarda bu tip mərhələli modellərlə tam izah edilə bilməmişdir.

Nəticə etibarilə, Komtenin tarix fəlsəfəsi toplumun inkişafını rasional, mərhələli və qanunauyğun bir proses kimi anlamağa yönəlmiş ilk sistemli cəhdlərdən biri olmuşdur. Onun bu yanaşması tarix və sosiologiya arasında körpü rolunu oynamış, ictimai hadisələrin elmi öyrənilməsi idealını bərqərar etmişdir. Komtenin tarix fəlsəfəsi insanlığın intellektual və ictimai inkişafını elmi qanunauyğunluqlarla izah edən rasionalist bir model təqdim etmişdir. Onun nəzəriyyəsi həm tarixə pozitivist bir baxış gətirmiş, həm də sonrakı dövrlərdə tarixi dəyişməz qanunlarla izah etməyə çalışan determinist yanaşmaların intellektual əsasını formalaşdırmışdır.

*Karl Marks: tarixdə sinfi mübarizə və iqtisadi determinantlar*. XIX əsrin ortalarında Karl Marks (1818–1883), tarixə tamamilə yeni, materialist və tənqidi bir baxış gətirərək, tarix fəlsəfəsində dönüş nöqtəsi yaratdı. Onun tarixə yanaşması, idealizmdən maddiliyə keçid, yəni insanlıq tarixinin əqli və ruhani inkişaf kimi deyil, maddi istehsal münasibətləri və sinfi qarşıdurmalar vasitəsilə izah olunması demək idi. Bu yanaşma tarixin subyektini – fəal fərdi – ictimai siniflərlə əvəz edərək, tarix fəlsəfəsində həm ontoloji, həm də metodoloji yeni bir mərhələni başlatdı.

Marksın tarix fəlsəfəsinin mərkəzində tarixi materializm anlayışı dayanır. Bu nəzəriyyəyə görə, bir toplumun istehsal qüvvələri (əmək alətləri, texnologiya, əmək gücü və s.) ilə istehsal münasibətləri (mülkiyyət formaları, əmək bölgüsü, sinfi struktur və s.) arasında əlaqə həmin toplumun bütün üstqurumunu – hüquq, din, mədəniyyət, ideologiya – formalaşdırır. Başqa sözlə desək, maddi baza ideoloji fövqəlqurumu təyin edir. Marks yazırdı: "İnsanlar öz tarixlərini özləri yaradırlar, lakin bunu sərbəst şəraitdə və öz seçdikləri hallarda deyil, birbaşa verilmiş və ötən dövrdən qalmış maddi şərtlər daxilində edirlər" [15, s. 15].

Bu fikir Marksın determinist, lakin dialektik və dinamik tarix anlayışını göstərir. Tarix nə Tanrının planı, nə də yalnız fərdi iradələrin toplamıdır; o, istehsal və mülkiyyət münasibətləri arasında qarşıdurmalardan doğan obyektiv bir prosesdir.

Marksın tarix fəlsəfəsində əsas hərəkətverici qüvvə sinfi mübarizədir. O, “Kommunist Partiyasının Manifesti”ndə bu fikri qısa və kəskin şəkildə belə ifadə edir: "İndiyə qədərki bütün toplumların tarixi, sinfi mübarizələrin tarixidir" [16, s. 34].

Bu mübarizə forması əsasən iqtisadi zəmində baş verir: mülkiyyət sahibləri (burjuaziya) ilə əmək qüvvəsi sahibləri (proletariat) arasında. Feodalizm dövründə bu qarşıdurma zadəganlar və kəndlilər arasında baş verirdisə, kapitalizm dövründə burjuaziya ilə proletariat arasındakı ziddiyyətə çevrilmişdir. Siniflər arasındakı bu struktur qarşıdurma tarixi dəyişməyə və inqilabi transformasiyalara səbəb olur.

Marks Hegelin dialektikasından təsirlənərək, tarixi mərhələli və ziddiyyətli bir inkişaf prosesi kimi modelləşdirmişdir. Onun nəzəri modelinə əsasən, toplumlar əsas beş iqtisadi-sosial formadan keçmişdir: ibtidai icma, köləlik, feodalizm, kapitalizm və gələcəkdə mümkün olacaq sosializm/kommunizm. Hər bir mərhələ öz daxilində ziddiyyətlər və istismar formaları daşıyır və bu ziddiyyətlər mübarizə və inqilab vasitəsilə yeni bir sistemə yol açır.

Bu yanaşma həm determinist, həm də proqressiv xarakter daşıyır: tarix təsadüfi deyil, obyektiv şərtlərlə müəyyənləşir və toplumun azadlıq və bərabərliyə doğru irəliləyişini ifadə edir.

Marksın tarix fəlsəfəsinin ayrılmaz hissəsi ideologiya tənqididir. Onun fikrincə, hər dövrün hakim sinfi yalnız iqtisadi resurslara deyil, həm də düşüncə formalarına və təsəvvür gücünə nəzarət edir. Bu səbəblə, tarixyazma da daxil olmaqla, bilik istehsalı obyektiv deyil, sinfi maraqlara uyğun yönləndirilmişdir. "Hər dövrün hakim ideyaları həmin dövrdəki hakim sinfin ideyalarıdır" [3, s. 64].

Bu, marksist tarix fəlsəfəsində epistemoloji çevriliş deməkdir: tarix sadəcə keçmişin qeydi deyil, ideoloji hegemoniyanın bir aləti də ola bilər. Buna görə də tarix yalnız yazılmamalı, tənqid olunmalı və yenidən qurulmalıdır.

Karl Marksın tarixə gətirdiyi materialist və sinfi yanaşma tarixi sadəcə keçmiş hadisələrin xronikası kimi deyil, maddi şərtlər və sosial ziddiyyətlərin nəticəsi olan dinamik bir proses kimi anlamağımıza imkan verir. Onun nəzəriyyəsi, tarix fəlsəfəsində məkanın, iqtisadiyyatın, sinfin və ideologiyanın əsaslı yer tutmasına səbəb olmuş, XX əsr boyunca kritik tarixçilik, postkolonial nəzəriyyə və sosial tarix yazımı üçün zəmin yaratmışdır.

*Toynbi və Spengler: mədəniyyətlərin dövriliyi.* XX əsr tarix fəlsəfəsində, xüsusilə tərəqqi ideyasına və Avropa mərkəzli tarix modelinə qarşı tənqidi yanaşmaların artması ilə, dövrilik anlayışına

əsaslanan tarix modelləri aktuallaşdı. Bu istiqamətdə Osvald Spenqler və Arnold Toynbi kimi tarix filosofları mədəniyyətlərin inkişafını bioloji və sosiomədəni dövrlər əsasında şərh edərək, universal tarix modellərinə alternativ konsepsiyalar irəli sürdülər.

Alman tarix filosofu Osvald Spenqler (1880–1936), "Qərbin süqutu" (Der Untergang des Abendlandes, 1918–1922) adlı monumental əsərində tarixə bioloji metafora ilə yanaşmış və sivilizasiyaların doğulma, inkişaf, qocalma və süqut mərhələlərindən keçdiyi fikrini irəli sürmüşdür. Onun fikrincə, hər bir mədəniyyət unikal, daxili enerjiyə malik və öz həyat ritmi ilə yaşayan bir orqanizmdir.

Spenqler tarixdə qeyri-müəyyən və xətti tərəqqi anlayışını rədd edərək, onun yerinə mədəniyyətlərin silsiləvi və labüd süqutu modelini təqdim edir. O yazır: "Heç bir mədəniyyət əbədi deyil. Hər biri özünəməxsus ruhla doğulur, inkişaf edir və sonra zəifləyib yox olur" [21, s. 21].

Spenqler üçün Qərb sivilizasiyası artıq öz “sivilizasiya” mərhələsinə çatmış və bu, onun yaradıcı gücünün tükənməyə başladığını göstərir. Ona görə sivilizasiya mərhələsi mədəniyyətin sonu deməkdir - bu mərhələdə artıq formalizm, texnokratizm və ruhdan məhrumolma hökm sürür. Spenglerin yanaşması fatalist (qaçınılmaz sonluq) və pessimist xarakter daşıyır və modern Qərb mədəniyyətinə dair sərt tənqidi ehtiva edir.

İngilis tarix filosofu Arnold Toynbi (1889–1975), "Tarixin araşdırılması" (A Study of History-12 cildlik, 1934–1961) adlı əsərində Spenqlerin təsiri altında olsa da, daha az fatalist və daha dinamik bir tarix modeli inkişaf etdirmişdir. Toynbi tarixdə 20-dən çox müstəqil mədəniyyət müəyyən edir və onların yüksəliş və süqut səbəblərini araşdırır.

Toynbinin əsas konsepsiyası "challenge and response" – yəni "çağırış və cavab" və yaxud "meydan oxuma və təpki" modelidir. Bu modelə əsasən, mədəniyyətlər xarici və ya daxili təhdidlərə (sosial, iqlim, texnoloji və s.) qarşı yaradıcı və adaptiv cavablar verə bildikləri müddətcə inkişaf edirlər. Əgər bu cavablar verilməzsə, mədəniyyətlər durğunlaşır və dağılmağa başlayır.

"Bir mədəniyyətin taleyini təyin edən, onun qarşılaşdığı çətinliklər deyil, bu çətinliklərə necə cavab verməsidir" [23, s. 73].

Toynbinin modeli həm subyektiv təşəbbüsü, həm də struktur amilləri nəzərə alır. O, mədəniyyətlərin süqutunu yaradıcı azlığın (*creative minority*) funksiyasını itirməsi ilə əlaqələndirir. Bu azlıq artıq yenilik və liderlik qabiliyyətini itirdikdə, toplumun kütləsi də sosial təqlidçilik (*mimesis*) və passivlik vəziyyətinə düşür. Bu isə mədəniyyəti tədricən birləşdirici mənəvi gücünü itirmiş sivilizasiyaya çevirir.

Spenqler və Toynbi modern tarix fəlsəfəsində tərəqqi ideyasını tənqid edən, lakin tarixi yenə də strukturlaşdırmağa çalışan iki fərqli yanaşmanı təmsil edirlər. Onlar tarixi mədəniyyətlərin mənəvi enerjisi, yaradıcı gücü və reaksiya qabiliyyəti ilə izah etməyə çalışaraq, universal tarix modellərinə alternativ dövrilik əsaslı modellər təklif etmişlər. Bu yanaşmalar, xüsusilə postmodern dövrdə mərkəzsizləşdirilmiş və plüralist tarix yorumlarının inkişafına ilham vermişdir.

*Nitsşe: tarixə qarşı şübhəçi yanaşma.* XIX əsrin sonlarına doğru Fridrix Nitsşe (1844–1900) tarixə yanaşmada radikal bir dönüş nöqtəsi yaratdı. O, həm aydınlanma dövrünün tərəqqiyə əsaslanan xətti tarix modelini, həm də hüquq və əxlaq mərkəzli idealist tarix fəlsəfəsini sərt şəkildə tənqid etdi. Nitsşe tarixə yalnız bir bilik sahəsi kimi deyil, insan varoluşuna təsir edən mənəvi və psixoloji güc kimi yanaşaraq, onu tənqidi, şübhəçi və fəlsəfi cəhətdən dekonstruktiv bir mövqedən sorğuladı.

Nitsşe, 1874-cü ildə qələmə aldığı "Tarixin həyat üçün faydası və ziyanı haqqında" (Vom Nutzen und Nachteil der Historie für das Leben) adlı əsərində tarixə həyat və yaradıcılıq baxımından yanaşmağın vacibliyini vurğulayır. Onun fikrincə, bilik olaraq, tarix insanın yaradıcı gücünü boğan, onu keçmişin yükü altında əzən bir vasitəyə çevrilə bilər. Bu mənada o, tarixə münasibətdə şəxsiyyətformalaşdırıcı və ya dağıdıcı potensial axtarır və yazırdı: "Həyat üçün yaşanmalı olan şey keçmiş deyil, gələcəkdir; tarix yalnız o halda mənalıdır ki, həyatın inkişafına xidmət edir" [18, s. 5]. Nitsşe burada tarixə instrumental və selektiv yanaşmanı müdafiə edir. Tarix dondurulmuş keçmişin obyektiv təsviri deyil, iradə və yaradıcı gücün yönəldiyi bir material olmalıdır. Onun üçün tarix yalnız “yaşamağa xidmət etdiyi müddətcə” dəyər daşıyır.

Nitsşe, tarixə üç əsas yanaşmanı ayırır:

*1. Monumental tarix – böyük şəxsiyyətlərin və nailiyyətlərin tərənnümü; yaradıcı gücü artırır, amma həm də mifə çevrilə bilər.*

*2. Antikvar tarix – ənənələrin qorunması və keçmişə hörmət; lakin çoxaldıqda passivliyə və nostaljiyə səbəb* olar.

*3. Tənqidi tarix – keçmişin aktiv şəkildə sorğulanması və ondan azad olma prosesi; riskli olsa da, yenidən doğuluş üçün vacibdir.*

Nitsşe yazırdı: "Keçmişin yükündən azad olmayanlar gələcəyi yarada bilməzlər" [19, s. 24].

Bu təsnifat Nitsşenin tarixə ontoloji deyil, funksional yanaşdığını göstərir; o, tarixi var olan bir obyektiv reallıq kimi deyil, yaşamaq və yaradıcı olmaq üçün istifadə edilə biləcək bir vasitə kimi qəbul edir.

Nitsşenin tarix tənqidinin arxasında nihilist bir təşviş durur: keçmişə həddən artıq bağlanma və obyektiv tarixçilik, dəyərlərin ölümünə və passivliyə yol açır. Onun məşhur ifadəsi - "Tanrı öldü", yalnız dini deyil, metafizik və tarix fəlsəfəsinin dağılması anlamına da gəlir. Bu mənada Nitsşe üçün tarix, yeni dəyərlər yaratmaq yolunda əvvəlkilərin dağıdılmasını tələb edən daxili bir gərginlik sahəsidir: "İnsan öz tarixindən ancaq o zaman güc alır ki, onu aşmağa cəhd edir" [18, s. 37].

Bu fikir Nitsşenin "güc iradəsi" konsepsiyası ilə də bağlıdır; tarix insanı müəyyən edən deyil, insan tarixi öz iradəsi ilə formalaşdırmalıdır. Bu yanaşma daha sonra Fuko, Derrida və poststrukturalistlər üçün ilham qaynağına çevrilmişdir.

Nitsşenin tarix fəlsəfəsi metodoloji şübhəçilik, dəyərlərin dekonstruksiyası və yaradıcı subyektivliyin müdafiəsi ilə fərqlənir. O, tarixi mütləq həqiqət kimi deyil, həyata və yaradıcı potensiala təsiri baxımından dəyərləndirilməli olan bir fenomen kimi təqdim edir. Nitsşe üçün qədim Yunan dövrünün qəhrəmanlıq və güc ideallarını yaşadan "tragediya" anlayışı, həyatın bütün acılarına və xaosuna baxmayaraq, yaşamağa və yaratmağa təşviq edən bir tarixi şüur idi. O, Sokrat və sonrakı rasionalist ənənənin bu yaradıcı enerjini zəiflətdiyini düşünürdü. Məsələn, Sokratdan sonra Avropa mədəniyyəti tarixi "həqiqəti tapmaq" məqsədilə ağır, şübhəçi və həyat enerjisindən uzaq bir istiqamətə sürükləndi. Nitsşe deyirdi ki, tarixə bu cür rasional və tənqidi yanaşmaq insanı öz yaradıcı gücündən uzaqlaşdırır. Bu səbəbdən o, keçmişi, sadəcə, olduğu kimi öyrənmək yerinə, insanın indiki və gələcək həyatı üçün ilham verəcək, güc və yaradıcı iradəni canlandıracaq şəkildə istifadə olunmasını müdafiə edirdi.

Beləliklə, Nitsşe tarixə dair ənənəvi fəlsəfi yanaşmalarla (idealist, materialist, teleoloji) radikal şəkildə üzləşir və tarix fəlsəfəsində postmodern dönüşün intellektual əsasını qoyur.

**Postmodern yanaşmalar və müasir tarixçilik**

*J.Lötard və Mişel Fuko.* XX əsrin sonlarına yaxın tarix fəlsəfəsində köklü dəyişikliklər meydana gəldi. Ənənəvi tarixçilikdə keçmiş hadisələr obyektiv bir gerçəklik kimi təqdim edilir, tarixçi isə bu hadisələri kənardan müşahidə edən və neytral şəkildə qeydə alan bir fiqur kimi təsəvvür olunurdu. Lakin postmodernist yanaşmalar bu baxış bucağını ciddi şəkildə sorğuladı. Postmodern filosoflar tarix elmini, sadəcə, keçmişdə baş verən hadisələrin xronoloji düzümü kimi deyil, müxtəlif güc (iqtidar) münasibətləri və diskurslar çərçivəsində qurulan bir məna sahəsi kimi dəyərləndirirdilər. Bu yeni yanaşmanın ən mühüm nümayəndələri arasında J.Lötard və Mişel Fuko xüsusi yer tutur. Onların fikirləri tarix fəlsəfəsində universal həqiqət iddialarına qarşı radikal bir tənqid cərəyanı yaratmış və tarixçiliyin metodoloji əsasları barədə yenidən düşünməyə təkan vermişdir.

J.Lötard özünün məşhur "Postmodern durum" (La Condition Postmoderne, 1979) əsərində müasir dövrün əsas xarakteristikasını böyük hekayələrin (grand narratives) iflasa uğraması kimi təqdim etmişdir. Lötard postmodern vəziyyəti anlamaq üçün əvvəllər insanlara toplumun məqsədi, biliyin təbiəti və tarixdə irəliləyiş haqqında ümumbəşəri açıqlamalar verən böyük hekayələrin çökməsini əsas göstərici kimi qəbul edir. Onun fikrincə, elm, siyasət və mədəniyyət sahələrində topluma məna qazandıran və onu istiqamətləndirən ümumbəşəri izahlar artıq inandırıcılığını itirmişdir. Əvvəllər toplumlar öz gələcəyini planlaşdırmaq və legitimliyini təmin etmək üçün belə hekayələrə söykənirdisə, postmodern dövrdə bu cür hekayələrə olan inam dərin bir şəkildə sarsılmışdır. Lötard bu fikrini belə ifadə edir: "Bilik, legitimləşdirici böyük hekayələrin dağılması ilə parçalanmış hala gəlmişdir" [14, s. 24]. Bu cümlə ilə o, bilik istehsalının artıq vahid, mərkəzləşdirilmiş sistemlərə deyil, çoxsaylı və müxtəlif dil oyunlarına əsaslandığını vurğulayır.

Marksizmin sinfi mübarizə hekayəsi, Aydınlanmanın irəliləyiş ideyası və liberalizmin azadlıq və tərəqqi anlayışı kimi böyük narrativlər, Lötarda görə, fərqli fərdi təcrübələri və lokal gerçəklikləri

susduraraq öz hegemonluğunu təmin etmişdir. Bu böyük izah sistemləri fərdi həyat hekayələrini və müxtəlif toplumların özünəməxsus inkişaf yollarını görməzdən gəlmiş, bunun əvəzində, bəşəriyyətin tarixini vahid xətt üzrə irəliləyən bir proses kimi təqdim etmişdir. Lötard isə bu cür yanaşmaların həm siyasi, həm də intellektual baxımdan tənqid edilməsinin vacibliyini müdafiə edir. Ona görə postmodern dövr fərdi səsin, yerli bilik formalarının və alternativ izahların mövcudluğunu tanıyan çoxsəsliliyin dövrüdür.

Lötard postmodern vəziyyətin əsas xüsusiyyəti kimi, fərqli hekayələrin, lokal diskursların və çoxsəsliliyin meydana çıxmasını qeyd edir. Tarix artıq tək bir xətt üzrə inkişaf edən, vahid və obyektiv gerçəklik kimi təqdim edilə bilməzdi. Əksinə, keçmiş haqqında danışmaq, müəyyən bir dil oyununun içində olmaq deməkdir. Lötard burada "dil oyunları" anlayışını irəli sürərək, hər bir tarixi ifadənin spesifik sosial və mədəni kontekstdə formalaşdığını izah edir. Bu yanaşmaya görə, tarixçi artıq "obyektiv gerçəyi" aşkara çıxaran neytral bir müşahidəçi deyil, müəyyən güc münasibətləri və dil strukturları içində fəaliyyət göstərən bir subyekt olaraq qiymətləndirilir. Tarixçinin seçdiyi mövzu, istifadə etdiyi qaynaqlar, hadisələrə verdiyi məna və onları necə bir ardıcıllıqla təqdim etdiyi onun yaşadığı toplumun ideoloji çərçivəsindən, mövcud güc münasibətlərindən və istifadə etdiyi dilin imkanlarından təsirlənir. Hansı hadisənin vacib sayılacağı, hansı səslərin görünməz qalacağı, hansı sözlərin seçilib hansılarının kənarda qalacağı - bütün bunlar neytral seçimlər deyildir. Tarixçi, fərqində olsa da, olmasa da, müəyyən hegemonik diskursların içində hərəkət edir. Keçmiş hadisələrə məna vermək üçün istifadə olunan dil, həmin dövrün düşüncə tərzini və güc münasibətlərini əks etdirir.

Məsələn, Avropa tarix salnamələrində "kəşf" adı verilən Kolumbun1492-ci il Amerikaya səfəri, uzun müddət sivilizasiyanın yayılması və irəliləyişin simvolu kimi təqdim olunmuşdur. Lakin postmodern yanaşmalar bu hadisəyə alternativ baxışlar təklif edərək onu sömürgəçiliyin, yerli xalqların məhv edilməsinin və mədəni assimilyasiyanın başlanğıcı kimi qiymətləndirirlər. Bu isə göstərir ki, keçmiş hadisələrin necə adlandırıldığı və şərh edildiyi tarixçinin dil oyunu içində tutduğu mövqe, sosial kontekst və ideoloji baxışla sıx bağlıdır.

Başqa bir örnək isə Osmanlı imperiyasının süqutudur. Ənənəvi milli tarix yazımında bu süqut tez-tez "geriləmə dövrü", "tənəzzül" və "xilas üçün mübarizə" kimi vahid və dramatik bir xətt üzrə təsvir olunur. Halbuki postmodern yanaşmalar bu hekayənin özünün bir seçim nəticəsində qurulduğunu vurğulayır. Osmanlının son dönəmi yalnız zəifləmə və məğlubiyyət kimi deyil, mədəni müxtəliflik, hüquqi islahatlar, yerli modernləşmə cəhdləri və fərqli sosial təcrübələrin ortaya çıxması kimi də oxuna bilər. Burada hansı faktların vurğulanacağı və necə mənalandırılacağı tarixçinin mövqeyindən, istifadə etdiyi dil və kontekstdən asılı olur.

Buna görə də tarixçilik artıq, sadəcə, "gerçəkləri tapmaq" fəaliyyəti kimi deyil, gerçəklikləri müəyyən strukturlar daxilində qurmaq və şərh etmək prosesi kimi başa düşülür. Tarixçi öz dövrünün siyasi, sosial və mədəni çərçivələri içində müəyyən bir mövqedən danışır. O, təkcə keçmişi araşdırmır, həm də keçmişi öz dövrünün dil “oyunları” və güc münasibətləri vasitəsilə yenidən formalaşdırır. Başqa sözlə, tarixyazma özü bir diskurs formasıdır və hər bir diskurs kimi, o da müəyyən maraqları, seçimləri və güc münasibətlərini özündə daşıyır. Bu yanaşma tarix elminin obyektivliyini və tərəfsizliyini sorğulamaqla yanaşı, tarixçini özünü daha yaxşı dərk edən, daha tənqidi və daha məsuliyyətli bir mövqeyə çağırır: tarixçi öz danışdığı dillə, seçdiyi perspektivlə və istinad etdiyi bilik rejimləri ilə daim hesablaşmalıdır.

Sovetlər Birliyi dövründə yazılan rəsmi tarix kitablarında Oktyabr inqilabı və Sovet hakimiyyətinin qurulması "tarixin zəruri və qaçılmaz mərhələsi" kimi təqdim edilirdi. Burada hadisələr proletariatın tarixi qələbəsi, sosial ədalətin bərqərar olması və sinifsiz topluma doğru təkamül prosesi kimi şərh edilirdi. Alternativ fikirlər, inqilabın dağıdıcı tərəfləri və fərqli sosial qrupların təcrübələri isə ya görməzlikdən gəlinir, ya da "əks-inqilabçılıq" kimi damğalanaraq kənarlaşdırılırdı.

Lötardın nəzəriyyəsi ilə baxdıqda, Sovet tarixçiliyi, sadəcə, keçmişi izah etmirdi; o, spesifik bir ideoloji çərçivədə keçmişi yenidən qurur, hadisələri kommunist ideologiyasına uyğun şəkildə şərh edirdi. Tarixçi burada obyektiv müşahidəçi deyil, hakim ideologiyanın dil oyunları və güc münasibətləri içində fəaliyyət göstərən bir subyekt idi.

Mişel Fuko isə tarixə fərqli bir prizmadan yanaşır. Fuko üçün əsas məsələ böyük hekayələrin dağılması yox, bilik və güc arasındakı qarşılıqlı təsirdir. O göstərir ki, "hər bilik forması müəyyən bir güc münasibətinin nəticəsidir" [5, s. 32]. Fuko hesab edirdi ki, toplumlarda "doğru" və "yanlış" hesab

edilən bilik formaları heç vaxt neytral deyildir; onlar daim müəyyən hakimiyyət strukturlarının təsiri altında formalaşır.

Bu yanaşmanın konkret bir nümunəsi kimi, Fuko "İntizam və cəza" əsərində təqdim etdiyi Panoptikon modelini göstərir. Panoptikon, ingilis filosofu Ceremi Bentam tərəfindən irəli sürülmüş dairəvi həbsxana layihəsidir və burada məhbuslar mərkəzdə yerləşən bir müşahidə qülləsindən potensial olaraq daima izlənilə bilirlər. Əsas məsələ ondadır ki, məhbuslar bilavasitə müşahidə olunmasalar belə, izlənildikləri təəssüratı altında öz davranışlarını daim nəzarətə alırlar. Fuko bu modeli yalnız həbsxanalarla məhdudlaşdırmır; o, bu nəzarət mexanizmini məktəblərdən xəstəxanalara, fabriklərdən hərbi düşərgələrə qədər bütün sosial institutlara şamil edir. Beləliklə, o göstərir ki, güc təkcə siyasi strukturlarda və hüquqi sistemlərdə açıq şəkildə təzahür etmir, həm də gündəlik həyatın ən incə səviyyələrinə qədər yayılır və fərdlərin bədənləri və davranışları üzərində səssiz, həm də daimi nəzarət formalaşdırır.

Fuko bu yanaşmasını təkcə cəza və intizam sistemləri ilə məhdudlaşdırmır. Onun "Cinsəlliyin tarixi" (Histoire de la Sexualité) əsərində də bilik və güc münasibətləri eyni mexanizmlə işləyir. Fuko burada ənənəvi təsəvvürləri tərsinə çevirir: o, iddia edir ki, cinsəllik sahəsi tarixdə, sadəcə, susdurulmamışdır; əksinə, cinsəllik haqqında bilik istehsalı yolu ilə toplumun tənzimlənməsi və idarə olunması hədəflənmişdir. Məsələn, XIX əsrdə cinsəllik təkcə tabu mövzusu olmamış, həkimlər, pedaqoqlar və psixoloqlar tərəfindən tənzimlənən, təsnif edilən və normativ çərçivəyə salınan bir fəaliyyət sahəsinə çevrilmişdir. Cinsəllik haqqında aparılan tədqiqatlar və "doğru" cinsi davranışların təyin edilməsi bu sahənin nəzarət və idarəetmə vasitəsinə çevrilməsinə yol açmışdır. Burada da bilik (cinsəllik haqqında danışmaq, onu təsnif etmək) və güc (bu təsnifatlar vasitəsilə insanları normativ qaydalara uyğunlaşdırmaq) bir-birindən ayrılmazdır.

Bənzər yanaşmanı Fuko "Ruhi xəstəliklərin tarixi" (Histoire de la folie) əsərində də irəli sürür. O göstərir ki, ruhi xəstəlik anlayışı tarix boyu dəyişmiş və hər zaman toplumun sosial nizamını qorumaq üçün müəyyən güc mexanizmləri ilə sıx əlaqədə olmuşdur. Orta əsrlərdə və erkən modern dövrdə "dəli" insanlar toplumun kənarına atılır, həbs edilir və ya fiziki olaraq təcrid edilirdi. Ancaq XVIII əsrdən başlayaraq ruhi xəstəlik sahəsi tibbi bilik çərçivəsində formalaşdırıldı və dəlilik tibbin və elmin idarə etdiyi bir obyektə çevrildi. Fuko burada da göstərir ki, "dəli" olanı anlamaq və müalicə etmək adı altında toplum normadan kənara çıxan fərdlər üzərində yeni güc formaları qurmuşdur. Beləliklə, tibbi biliklər, sadəcə, xeyirxah yardım vasitəsi olmayıb, həm də sosial nəzarət və normallaşdırma aləti kimi fəaliyyət göstərmişdir.

Bu nümunələr bir daha göstərir ki, Fuko üçün tarixdə bilik formalarının inkişafı, sadəcə, intellektual bir irəliləyiş deyil, hər zaman müəyyən güc strukturlarının qurulması və qorunması ilə sıx bağlıdır. Keçmişdə formalaşan bilgi rejimləri gündəlik həyatın ən incə sahələrində belə insanların davranışlarını tənzimləyən görünməz mexanizmlər yaratmışdır.

Lötard və Fuko arasında müəyyən ortaq cəhətlər olsa da, onların yanaşmaları arasındakı fərqlər də diqqətəlayiqdir. Hər iki zəka sahibi ənənəvi, universal tarix anlayışına qarşı çıxır və tarixdə çoxsəsliliyin, müxtəlif şərhlərin mövcudluğunu qəbul edir. Hər ikisi tarixi obyektiv gerçəklik kimi deyil, müxtəlif maraqlar və güc münasibətləri çərçivəsində qurulan bir mətn kimi nəzərdən keçirir. Lakin onların vurğuladığı əsas nöqtələr fərqlidir. Lötard əsas diqqəti böyük narrativlərin dağılmasına və lokal hekayələrin artmasına yönəldir, tarixin dil oyunları içində qurulduğunu göstərir. Fuko isə daha çox bilik və güc münasibətlərinin tarixdə necə işlədiyini təhlil edir və tarixi bilik formalarının sosial hakimiyyətin bir vasitəsi kimi necə fəaliyyət göstərdiyini açmağa çalışır.

Metodoloji baxımdan da onların yanaşmaları fərqlidir. Lötard dil fəlsəfəsinə əsaslanaraq, tarixdə məna istehsalının müxtəlif formalarına fokuslanır. Fuko isə "arxeologiya" və "genealogiya" metodlarından istifadə edərək, müxtəlif bilgi sistemlərinin yaranma şərtlərini və transformasiyasını araşdırır. Bununla belə, hər iki filosof tarixçinin fəaliyyətini passiv bir gerçəkliyi qeydəalma kimi deyil, aktiv bir mənaqurucu proses kimi anlayır.

Nəticə etibarilə, Lötard və Fuko postmodern tarixçilik anlayışının əsas təməllərini formalaşdırmışlar. Onların fikirləri tarix elmini obyektiv bir həqiqəti təmsil edən sahə kimi görmək əvəzinə, müxtəlif perspektivlər arasında daim yenidən qurulan və dəyişən bir diskurs sahəsi kimi anlamaya yol açmışdır. Bu yanaşma müasir tarixçilikdə çoxsəsliliyin, marjinal səslərin və fərqli

təcrübələrin daha çox diqqətə alınmasına səbəb olmuşdur. Tarix artıq yekcins bir hekayə deyil, bir çox fərqli hekayənin toqquşduğu və daim yenidən yazıldığı bir sahə kimi başa düşülür.

*Fukuyama: "Tarixin sonu" tezisi və mübahisələr.* XX əsrin sonlarında tarix fəlsəfəsində diqqətəlayiq bir müzakirə də amerikalı siyasi filosof Frensis Fukuyamanın irəli sürdüyü "tarixin sonu" tezisi ətrafında formalaşmışdır. Fukuyama 1989-cu ildə yayımlanan "Tarixin sonu?" adlı məqaləsində və daha sonra 1992-ci ildə çap olunan "Tarixin sonu və son insan" (The End of History and the Last Man) kitabında bu ideyanı daha geniş şəkildə inkişaf etdirmişdir. Onun əsas iddiası belədir: liberal demokratiya və bazar iqtisadiyyatı sistemi insanlıq tarixinin ən yüksək və yekun siyasi təşkilatlanma formasıdır və bundan sonra yeni, əsaslı ideoloji alternativlər meydana çıxmayacaqdır.

Fukuyama Hegelin və Aleksandr Kojevin ideyalarından ilham alaraq iddia edirdi ki, tarix, sadəcə, hadisələrin ardıcıllığı deyil, həm də ideyaların inkişafıdır. Onun fikrincə, liberal demokratiya insan arzularını - azadlıq ehtiyacını və iqtisadi rifah istəyini - ən tam şəkildə təmin edən sistem olduğu üçün, bu sistemin qlobal dominantlığa çatması ilə "ideoloji mübarizələrin" də sonu gəlmişdir. Fukuyama yazırdı: "İnsanlıq tarixi, Hegelin dediyi kimi, azadlıq ideyasının reallaşması prosesi idi və bu ideyanın həyata keçməsi liberal demokratiya ilə tamamlanmışdır" [7, s. 13].

Sovetlər Birliyinin dağılması və soyuq müharibənin başa çatması Fukuyamanın fikirlərinə güclü bir empirik dəstək kimi qəbul edilə bilərdi. Onun fikrinə görə, artıq tarixdə böyük ideoloji toqquşmalar (məsələn, liberalizm və kommunizm arasında) başa çatmış, liberal demokratiya qlobal miqyasda əsas siyasi və iqtisadi modelə çevrilmişdir. Beləliklə, "tarixin sonu" ifadəsi konkret hadisələrin sonu deyil, ideoloji təkamülün tamamlanması mənasında istifadə olunurdu.

Lakin Fukuyamanın bu tezisi elmi dairələrdə və ictimai müzakirələrdə ciddi tənqidlərə və mübahisələrə səbəb oldu. Tənqidçilər iddia edirdilər ki, liberal demokratiyanın qələbəsi hələ tamamilə gerçəkləşməmişdir və dünyanın müxtəlif bölgələrində avtoritar rejimlərin, dini fundamentalizmin və millətçi hərəkatların yüksəlişi bu tezisin sadəlövh olduğunu göstərir. Xüsusilə Samuel P.Hantinqton "sivilizasiyaların toqquşması" nəzəriyyəsi ilə Fukuyamaya qarşı çıxaraq bildirdi ki, gələcəkdə mədəniyyətlərarası fərqlər və dəyərlər üzərində əsaslı qarşıdurmalar davam edəcəkdir.

Digər bir mübahisə isə Fukuyamanın "tarixin sonu" anlayışının özünün normativ və qərbyönlü olması ilə bağlı idi. Bu yanaşmaya görə, Fukuyama liberal demokratiyanı bütün toplumların təbii və qaçılmaz inkişaf mərhələsi kimi təqdim edir və fərqli tarixi və mədəni təcrübələri nəzərə almırdı. Belə bir baxışın isə Qərb universalizmini və siyasi hegemonluğu əsaslandırmaq riski daşıdığı irəli sürülürdü.

Fukuyama özü də daha sonrakı yazılarında ilkin tezisinin bəzi məqamlarını dəqiqləşdirməyə və yumşaltmağa çalışdı. O, qəbul etdi ki, liberal demokratiyanın qalib gəlməsi labüd olsa belə, bu prosesi təhlükə altına alan daxili və xarici təhdidlər mövcuddur. İqtisadi bərabərsizliyin artması, populizmin yüksəlişi və avtoritar liderlik modellərinin cazibədarlığının artması kimi amillər, liberal demokratiyanın gələcəyini sual altına ala bilər.

Ümumiyyətlə, Fukuyamanın "tarixin sonu" tezisi XX əsrin sonu və XXI əsrin əvvəllərində siyasi fəlsəfə və beynəlxalq münasibətlər sahəsində böyük bir intellektual mübahisə yaratmışdır. Onun ideyaları liberal demokratiyanın universal dəyər olub-olmadığı, alternativ ideoloji modellərin mövcudluğu və gələcəkdə dünya siyasətinin hansı istiqamətdə gedəcəyi suallarını yenidən düşünmək üçün stimul vermişdir.

*Mikro-tarix, marginal tarix və diskurs analizləri.* XX əsrin sonlarında tarixçilikdə yaranan yeni istiqamətlər, ənənəvi makro-tarixi modellərin və böyük hekayələrin tənqidindən sonra meydana çıxdı. Tarixin universal və böyük izahlar üzərindən təqdim edilməsinə qarşı reaksiya olaraq tarixçilər daha lokal, fərdi və marjinal təcrübələrə yönəldilər. Bu yeni yanaşmalar tarixə baxışı köklü şəkildə dəyişdirdi və bilik istehsalında yeni metodoloji çərçivələr ortaya qoydu. Mikro-tarix, marginal tarix və diskurs analizləri bu dəyişmənin əsas istiqamətləri olaraq formalaşdı.

Mikro-tarix anlayışı tarixi araşdırmaların miqyasını kiçildərək daha dar sosial, mədəni və fərdi hadisələrə fokuslanmaq prinsipinə əsaslanır. 1970-ci illərdə İtaliyada Karlo Ginzburq kimi tədqiqatçıların fəaliyyəti ilə geniş yayılmış bu yanaşma bir kənd, bir icma və ya hətta bir fərd üzərindən bütöv bir dövrün sosial strukturlarını və mədəni münasibətlərini anlamağa çalışırdı. Məsələn, Ginzburqun məşhur "Pendir və qurdlar" (Il formaggio e i vermi, 1976) əsərində sadə bir kəndlinin dünyagörüşü tədqiq edilir və bunun üzərindən erkən modern Avropanın qarşılıqlı mədəni təsirləri analiz edilir. Mikro-tarix tarixçinin diqqətini geniş tarixi proseslərdən fərdi agentliyin (ingiliscəsi, "individual

agency" - bir insanın öz qərarlarını müstəqil şəkildə verə bilmə qabiliyyəti və bu qərarlarla dünyada dəyişiklik yarada bilmə gücüdür) və lokal təcrübənin incə nüanslarına yönəldərək, tarixşçilikdə yeni bir dərinlik və dinamizm yaratmışdır.

Marginal tarix isə tarixçiliyin diqqətini mərkəzi aktorlar və hadisələrdən çıxarıb, tarixin kənarında qalan, çox vaxt nəzərə alınmayan qruplara və fərdlərə yönəltməyi məqsəd qoyur. Bu yanaşma qadınların, azlıqların, subaltern qrupların (toplumun siyasi, sosial və mədəni baxımdan kənarda qalan, dominant güc strukturlarında səsi eşidilməyən və təmsil olunmayan təbəqələrdir) və digər marginalizə olunmuş (kənara atılmış) icmaların tarixdə necə təmsil olunduğunu, hansı səbəblərlə görünməz qaldığını araşdırır. Feminist tarixçilik, postkolonial tarix və subaltern araşdırmaları bu sahənin əsas istiqamətlərini təşkil edir. Marginal tarix, alternativ tarixlərin, susdurulmuş səslərin və unutdurulmuş təcrübələrin görünən hala gəlməsinə imkan verərək, tarixyazmada daha ədalətli və inklüziv (istisna etməyən, hər kəsi və hər qrupu ehtiva edən) bir yanaşmanı təşviq edir.

Diskurs analizləri isə tarixin özünün bir mətn və dil hadisəsi olduğunu qəbul edərək, tarixi sənədləri, nitqləri və mətnləri güc münasibətlərinin və bilik istehsalının məhsulu kimi araşdırır. Mişel Fuko və onu izləyən düşüncə sahibləri bu sahənin nəzəri əsaslarını qurmuşlar. Diskurs analizlərinə görə, keçmişə dair biliklər yalnız hadisələrin təsviri deyil, müəyyən dövrün sosial, siyasi və ideoloji çərçivələri daxilində formalaşan məna sistemləridir. Tarixçi qaynaqları tədqiq edərkən, sadəcə, məlumat toplamır; o, həm də bu qaynaqların necə bir güc münasibəti içində istehsal edildiyini və hansı sosial-siyasi məqsədlərə xidmət etdiyini anlamağa çalışır. Bu yanaşma tarixyazmanın obyektiv bir fəaliyyət deyil, dil və güc strukturlarının iç-içə keçdiyi bir diskurs sahəsi olduğunu vurğulayır.

Bu üç yanaşma - mikro-tarix, marginal tarix və diskurs analizləri - postmodern tarixçilikdə hadisələrə, bilik istehsalına və güc strukturlarına daha tənqidi və çoxsəsliliyi qəbul edən bir baxış gətirmişdir. Ənənəvi tarixçilikdə görünməyən fərdlərin, icmaların və dil “oyunlarının” mərkəzə çəkilməsi, tarixçiliyin həm əhatə dairəsini genişləndirmiş, həm də metodoloji müxtəlifliyini artırmışdır.

**Nəticə**

Tarix fəlsəfəsi zaman içində müxtəlif mərhələlərdən keçərək formalaşmış və insanın keçmişə, zamana və toplumun inkişafına dair anlayışına dərin təsir göstərmişdir. İlkin dövrlərdə tarix əksərən dini və metafizik sistemlər çərçivəsində, ilahi iradənin bir təzahürü kimi qəbul edilirdi. Orta əsrlərdə tarix anlayışı Tanrının planına uyğun bir xronologiya kimi şərh edilir, insan taleyi bu böyük nizamın bir hissəsi olaraq görülürdü. Ancaq yeni dövrün başlanğıcı, xüsusilə Aydınlanma dövrü ilə birlikdə, insan ağlının və rasional düşüncənin önə çıxması tarix fəlsəfəsinə yeni bir istiqamət verdi. Artıq tarix, sadəcə, ilahi nizamın əksi kimi deyil, insan iradəsinin və ağlının dünyanı dəyişdirmə gücünün bir sübutu kimi dəyərləndirilməyə başlandı.

Bu mərhələdə Hegel, Marks və Komte kimi filosoflar tarixə ardıcıl, məntiqi və zəruri mərhələlərdən ibarət bir irəliləyiş prosesi kimi yanaşdılar. Hegelin dialektikası, Marksın sinfi mübarizə nəzəriyyəsi və Komtenin pozitivist tarixçiliyi hamısı bir cür tarixi zərurət və tərəqqi ideyasını müdafiə edirdi. Beləliklə, XIX əsrdə tarix bəşəriyyətin getdikcə daha ali mərhələlərə doğru irəlilədiyi bir proses kimi konseptuallaşdırıldı. Bu mərhələdə yazılan tarix əsərləri daha çox ümumbəşəri qanunların kəşfinə yönəlir, insan təcrübəsinin müxtəlifliyi böyük izah sistemləri içində təsnif edilirdi.

Çağdaş tarix fəlsəfəsi öz aktuallığını qorumaqla yanaşı, həm də yeni suallar doğurur. Mikro-tarix, marginal tarix və diskurs analizləri kimi metodoloji yanaşmalar tarixçiliyə daha çox səslilik, fərqlilik və tənqidi perspektiv qazandırmışdır. Mikro-tarix fərdi və lokal təcrübələri ön plana çıxararaq, tarixin yalnız böyük şəxsiyyətlər və dövlətlər ətrafında formalaşmadığını göstərir. Marginal tarix uzun müddət görməzlikdən gəlinmiş və passiv qrupların tarixini görünən hala gətirir. Diskurs analizləri isə tarixi sənədlərin və mətnlərin arxasındakı güc mexanizmlərini açmağa çalışır, bilik və iqtidar, yəni güc arasında ayrılmaz bir əlaqə olduğunu göstərir. Bu yanaşmalar tarixçinin rolunu passiv məlumat toplayıcısından fəal bir təhlilçiyə çevirir, onu dil və ideologiya içində fəaliyyət göstərən bir subyekt kimi qiymətləndirir.

Gələcək istiqamətlər baxımından isə tarix fəlsəfəsi qarşısında yeni çağırışlar dayanır. Qloballaşma, texnoloji inkişaf, informasiya axınının sürətlənməsi və müxtəlif mədəniyyətlərarası qarşılıqlı təsirlər tarixə baxış tərzini dəyişməkdədir. Postkolonial perspektivlər, ekoloji tarix, postinsaniyyətçilik və rəqəmsal tarix kimi yeni sahələr tarix fəlsəfəsinin daha da fənlərarası və dinamik

bir sahəyə çevrilməsinə səbəb olur. Eyni zamanda, artan sosial bərabərsizlik, populizmin yüksəlişi və tarixi manipulyasiya edən ideoloji narrativlərin güclənməsi tarix fəlsəfəsini daha çox tənqidi düşünməyə və demokratik dəyərləri qoruyan bir bilik istehsalı modelinə ehtiyac duymağa vadar edir.

Beləliklə, tarix fəlsəfəsi yalnız keçmişi anlamaq üçün deyil, həm də indiki dövrdə kim olduğumuzu, toplumların necə qurulduğunu və gələcəkdə hansı istiqamətlərə yönələ biləcəyimizi düşünmək üçün əvəzolunmaz bir intellektual pəncərə olaraq qalır. Tarix, sadəcə, baş verən hadisələrin xronoloji sıralaması deyil, fərqli səslərin, təcrübələrin və anlamların toqquşduğu və daim yenidən qurulduğu bir sahədir. Bu səbəbdən tarix fəlsəfəsi gələcəkdə də insanlığın öz kimliyini və yolunu sorğulaması üçün əsaslı bir platforma olaraq əhəmiyyətini qoruyacaqdır.

Bu tədqiqatın nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, tarix fəlsəfəsi yalnız keçmişin anlaşılıb təsvir edilməsi üçün deyil, həm də indiki toplumların dəyərlərini, güc münasibətlərini və bilik formalarını təhlil etmək üçün əhəmiyyətli bir intellektual çərçivə təmin edir. Tarix fəlsəfəsi bizə göstərir ki, keçmişə dair biliklər heç vaxt tamamilə obyektiv və tərəfsiz olmur və hər zaman müəyyən perspektivlərin, dəyərlərin və güc strukturunun məhsuludur.

Bu kontekstdə gələcək tarixçilik fəaliyyətləri üçün bir neçə təklif irəli sürmək mümkündür:

✓ *Tarixçilik fəaliyyətlərində yalnız dominant siyasi və mədəni narrativlərə deyil, marginal və susdurulmuş səslərə də yer verilməlidir.*

✓ *Tarix elmi fənlərarası yanaşmaları daha aktiv şəkildə qəbul etməli, sosiologiya, antropologiya, psixologiya və ədəbiyyat kimi sahələrlə qarşılıqlı əlaqəni gücləndirməlidir.*

✓ *Bilik istehsalının və tarixi diskursların güc münasibətləri içində formalaşdığını daim nəzərə alaraq, tarixçi öz mövqeyini və istifadə etdiyi dilin ideoloji çalarlarını tənqidi şəkildə dəyərləndirməlidir.*

✓ *Texnoloji inkişaf və rəqəmsallaşmanın bilik istehsalına təsiri tədqiq edilməli, rəqəmsal tarix metodları inkişaf etdirilməlidir.*

✓ *Tarix fəlsəfəsi təkcə akademik müstəvidə deyil, toplumun ümumi tarix şüurunun formalaşmasında da daha aktiv rol oynamalıdır.*

Nəticə olaraq, tarix fəlsəfəsi keçmişi anlamaq, bu günü dəyərləndirmək və gələcəyi daha şüurlu şəkildə qurmaq üçün əvəzolunmaz bir intellektual sahə olaraq aktuallığını qorumaqda və genişlənməkdə davam edir.

## İstifadə olunmuş ədəbiyyat


1. Aristoteles. (2014). *Politika* (Çev. Mete Tunçay). Remzi Kitabevi.
2. Augustinus, A. (2015). *Tanrı Devleti (De Civitate Dei)* (Çev. Y. Şahin). Sufi Kitap.
3. Condorcet, M. (1955). *Sketch for a historical picture of the progress of the human mind* (J. Barraclough, Trans.). New York: Noonday Press. (Əsər orijinal olaraq 1795-ci ildə yazılıb).
4. Foucault, M. (1961). *Histoire de la folie à l'âge classique*. Paris: Plon.
5. Foucault, M. (1975). *Surveiller et punir: Naissance de la prison*. Paris: Gallimard.
6. Foucault, M. (1978). *The history of sexuality: An introduction* (Vol. 1). New York: Pantheon Books.
7. Fukuyama, F. (1992). *The end of history and the last man*. New York: Free Press.
8. Ginzburg, C. (1976). *Il formaggio e i vermi: Il cosmo di un mugnaio del '500*. Torino: Einaudi.
9. Hegel, G. W. F. (2001). *The philosophy of history* (J. Sibree, Trans.). Dover Publications. (Əsər orijinal olaraq 1837-ci ildə yayımlanıb).
10. Herodot. (2008). *Histories* (Trans. Robin Waterfield). Oxford University Press.
11. İbn Haldun. (2010). *Mukaddime* (Çev. Süleyman Uludağ). Dergah Yayınları.
12. Kant, I. (1784/2006). *Beantwortung der Frage: Was ist Aufklärung?* In *Berlinische Monatsschrift*. Reprinted in W. Beierwaltes (Ed.), *Aufklärung: Texte und Dokumente* (s. 12–17). Reclam.
13. Kant, I. (1991). *Idea for a universal history with a cosmopolitan purpose*. In H. S. Reiss (Ed.), *Kant: Political writings* (pp. 41–53). Cambridge University Press. (Əsər orijinal olaraq 1784-cü ildə yazılıb).
14. Lyotard, J.-F. (1979). *La condition postmoderne: Rapport sur le savoir*. Paris: Minuit.

15. Marx, K. (1972). *The eighteenth brumaire of Louis Bonaparte* (E. Hobsbawm, Ed.). New York: International Publishers. (Əsər orijinal olaraq 1852-ci ildə yazılıb).

16. Marx, K., & Engels, F. (1970). *The German ideology*. International Publishers. (Əsər orijinal olaraq 1846-cı ildə yazılıb).

17. Marx, K., & Engels, F. (1998). *The communist manifesto*. Oxford University Press. (Əsər orijinal olaraq 1848-ci ildə yayımlanıb).

18. Nietzsche, F. (1989). *On the genealogy of morals* (W. Kaufmann & R. J. Hollingdale, Trans.). Vintage. (Əsər orijinal olaraq 1887-ci ildə yazılıb).

19. Nietzsche, F. (1997). *On the advantage and disadvantage of history for life* (P. Preuss, Trans.). Hackett Publishing. (Əsər orijinal olaraq 1874-cü ildə yazılıb).

20. Platon. (2010). *Devlet* (Çev. Sabahattin Eyüboğlu & M. Ali Cimcoz). Türkiye İş Bankası Kültür Yayınları.

21. Spengler, O. (1926). *The decline of the West* (C. F. Atkinson, Trans., Vol. I). Alfred A. Knopf. (Orijinal Almanca: *Der Untergang des Abendlandes*, 1918).

22. Spivak, G. C. (1988). Can the subaltern speak? In C. Nelson & L. Grossberg (Eds.), *Marxism and the interpretation of culture* (pp. 271–313). Urbana: University of Illinois Press. (Subaltern anlayışı üçün.)

23. Toynbee, A. J. (1934–1961). *A study of history* (12 vols.). Oxford University Press.

24. Tukidid. (2009). *The Peloponnesian War* (Trans. Martin Hammond). Oxford University Press.

25. Vico, G. B. (2002). *The new science* (D. Marsh, Trans.). Penguin Classics. (Orijinal adı: *Scienza Nuova*, 1744).

26. Voltaire. (2009). *Essai sur les mœurs et l'esprit des nations* [Essay on the customs and the spirit of the nations]. Gallimard. (Əsər orijinal olaraq 1756-cı ildə yayımlanıb).

**Rəyçi: f.e.d., prof. Füzuli Qurbanov**

**UOT 101.1**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1046**

# MƏDƏNİYYƏTDƏ TARİXİ TƏCRÜBƏ: BİLİK VƏ DİALOQ PROBLEMİ İNSAN KONSEPSİYASI KONTEKSTİNDƏ

**Şölət Zeynalov**
aparıcı elmi işçi, f.ü.f.d, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
sholet.zeynalov@gmail.com
orcıd: 0000–0003–2509–1159

**Xülasə.** Məqalədə bilik və dialoq, dialoq mədəniyyəti, insan konsepsiyası və kommunikasiya problemi müasir mədəniyyətin problemləri kontekstində nəzəri cəhətdən tədqiqata cəlb olunmuşdur.

Məqalədə qeyd olunur ki, müasir dünyada dövlətlər, sivilizasiyalar və müxtəlif cəmiyyətlər arasında – lokal və ya qlobal mədəniyyətlərin daxili problemlərinin tendensiyası göstərir ki, bilik cəmiyyətində dialoq prosesləri davam etsə də, ziddiyyətli məqamlar da kifayət qədərdir və onlar yüksələn xətt üzrə inkişafdadır. Bu isə problemin ən müxtəlif aspektdə araşdırılması və dönə-dönə yenidən interpretasiyasını zərurətə çevirir. Müəllifə görə, tarix baxımından mədəniyyətlərin, cəmiyyət və sivilizasiyaların tənəzzül və tərəqqisi tarixi təcrübədə kifayət qədər olsa da, yeni epoxanın məntiqi sübut edir ki, bilik cəmiyyəti və elmi-texniki tərəqqi həm də universal sivilizasiyaya keçidi də şərtləndirə bilər.

**Məqsəd:** diqqəti mədəniyyət, dialoq, bilik və insan konsepsiyası kontekstində dialoq mədəniyyəti və müasir qlobal kommunikasiya probleminə çəkmək.

**Metodlar:** Dialektik, müqayisəli təhlil, hermenevtik, fenomenoloji, kritik (tənqidi), sistemli-struktur metodları.

**Açar sözlər***:* Mədəniyyət, tarixi təcrübə, bilik, dialoq, əxlaqi keyfiyyətlər.

## HISTORICAL EXPERIENCE IN CULTURE: THE PROBLEM OF KNOWLEDGE AND DIALOGUE IN THE CONTEXT OF THE CONCEPT OF THE HUMAN BEING

**Sholet Zeynalov**

**Abstract.** The article provides theoretical analysis of the problems of knowledge and dialogue, culture of dialogue, human concept and communication in the context of the problems of modern culture.

It is noted that in the modern world, the tendency of internal and external conflicts between states, civilizations and various societies, local or global cultures, shows that although dialogue processes continue in the knowledge society, there are also quite a few contradictions and they are increasing on an upward trend. This makes it necessary to study the problem from moltiple perspectives and continually reinterpret it. According to the author, although the cycles of decline and development of cultures, societies and civilizations throughout history are quite common in historical experience, the logic of the new epoch proves that the knowledge society and scientific and technological progress may lead to a universal civilization.

**Keywords:** Culture, historical experience, knowledge, dialogue, moral qualities.

## ИСТОРИЧЕСКИЙ ОПЫТ В КУЛЬТУРЕ: ПРОБЛЕМА ЗНАНИЯ И ДИАЛОГА В КОНТЕКСТЕ КОНЦЕПЦИИ ЧЕЛОВЕКА

**Шолет Зейналов**

**Резюме.** В статье теоретически рассматриваются проблемы знания и диалога, культуры диалога, а также понимания человека и коммуникации в контексте вызовов современной культуры.

Отмечается, что в современном мире сохраняется тенденция к обострению внутренних противоречий между государствами, цивилизациями и различными обществами – как на локальном, так и на глобальном уровне. Анализ показывает, что, несмотря на продолжающееся развитие диалоговых процессов в обществе знания, сохраняется значительное количество противоречивых явлений, которые развиваются по восходящей линии. Это делает необходимым всестороннее изучение проблемы с самых различных точек зрения, а также ее неоднократную переинтерпретацию. По мнению автора, несмотря на распространённость идей упадка и прогресса культур, обществ и цивилизаций в историческом контексте, логика новой эпохи свидетельствует о том, что общество знания и научно-технический прогресс могут способствовать переходу к универсальным цивилизационным моделям.

**Ключевые слова:** культура, исторический опыт, знание, диалог, моральные качества

**Giriş.** Ədəbiyyatda mədəniyyət, mədəniyyətdə tarixi təcrübə, mədəniyyətlərin dialoqu, bilik, insan konsepsiyası və s. bu kimi problemlər tarixi dinamikada əsas nəzəri problemlərdən biri hesab olunur. Lakin problemlə tanışlıq göstərir ki, ona nəzəri fikirdə münasibət birmənalı deyildir. Bəzən mütəfəkkirlər və filosoflar mədəniyyətlərin hər birinə xas olan cəhətləri şişirdərək onları bir-birinə qarşı qoyur, bəzən universal sivilizasiyadan, bəzən də mədəniyyətlərin lokallığı və unikal-lığından çıxış edərək onları təsnifləşdirməyə nail olurlar. Maraqlı tərəf ondadır ki, bu baxışlar sistemində müəyyən şişirtmələr və ifrat bölgülər olsa da, sonda onların demək olar ki, əksəriyyətində universal mövcudluğa bir inam və nikbinlik də əks olunur. Bu anlamda hər bir konsepsiya və nəzəri yanaşmalar hörmətə layiq hesab olunur. Lakin məsələ həm də onunla əlaqədardır ki, müasir mədəniyyətdə, münasibətlər sistemində, qlobal tendensiyada ciddi böhranların olması faktı da mövcuddur. Bəzən biz bəşəri dialoqlar, kommunikasiya və biliyin yaratdığı rifah əvəzinə, münaqişə, müharibə, ifrat utilitarizm və s. də görə bilirik. Bu fakt isə onu təsdiq edir ki, nikbinlik üçün əsaslar olsa da, müasir kommunikasiyanın görünməyən tərəfində gizli bir dialoq və bilik problemi də gizlənir. Məqalədə qeyd olunan problemlər nəzəri olaraq araşdırılır.

Xalqların inkişaf tarixində mədəniyyət amilindən etnik münasibətləri, millətlərin maddi və mənəvi tərəqqisini səciyyələndirmək üçün geniş şəkildə istifadə olunur: məsələn, buraya qəbilə-tayfa mədəniyyəti, icma mədəniyyəti, Qərb mədəniyyəti, Şərq mədəniyyəti, milli mədəniyyət, texnogen-sivilizasiya mədəniyyəti, industrial mədəniyyət və s. kimi bölgülər aid edilməkdədir.

Elmi ədəbiyyatda mədəniyyət probleminə münasibət birmənalı deyildir. Bəzən mütəxəssislər sivilizasiyaların (mədəniyyətlərin) hər birinə xas olan cəhətləri şişirdərək onları bir-birinə qarşı qoyur, bəzən universal sivilizasiyadan, bəzən də mədəniyyətlərin lokallığı və unikallığından çıxış edərək onları təsnifləşdirməyə nail olurlar. Ədəbiyyatla tanışlıq göstərir ki, bu ənənə xüsusilə XIX əsrin ortalarından etibarən geniş vüsət almağa başlamışdır. Məsələn, həmin dövrün tarix, mədəniyyət və sivilizasiya nəzəriyyəçilərindən hesab olunan ingilis mütəfəkkiri Q.T.Bokl özünün mədəniyyət və sivilizasiya bölgüsündə iki əsas sivilizasiya tipini (Avropa və qeyri-Avropa) müqayisə edərək belə bir qənaət irəli sürdü ki, bu sivilizasiyalardan birincisi zəkanın tərəqqisi altında, ikincisi isə təbiət qanunları üzrə inkişaf etmişdir və bu inkişafda Qərb daha irəli getmişdir. Bu baxımdan bütün tarix fəlsəfəsi Avropa və qeyri-Avropa sivilizasiyaları arasındakı böyük fərq üzərində qurulmuşdur. Onun fikrincə, tarixə vahid bir tam kimi yanaşdıqda Avropada təbiətin insana tabe etdirilməsini, Avropadan kənarda isə insanın təbiətə tabe olması faktını görürük [8, s. 56].

Hazırda problemin həm nəzəri, həm də empirik sferası daha böyük sahələri əhatə etdiyindən texniki tərəqqinin imkanları planetar səviyyədə bütün kontentlərə nüfuz etməsi və digər səbəblərdən mübahisəsiz onu qeyd etmək olar ki, dünya miqyasında qlobal bir universal mədəniyyətin formalaşması istiqamətində tendensiya davam edir. Yəni məsələ onunla bağlıdır ki, mədəniyyətdə və sivilizasiyalararası münasibətlərdə müəyyən bölgülər olsa da, həyatın müəyyən sahələrində insan fəaliyyətinin ictimai şüurunu və davranışını ifadə etmək üçün mədəniyyət anlayışı müxtəlif sahələrin spesifikliyini təsbit etmək üçün fərq qoyulmadan işlədilir: məsələn, əmək mədəniyyəti, idman mədəniyyəti, məişət mədəniyyəti, təhsil mədəniyyəti, davranış mədəniyyəti, siyasi mədəniyyət, dialoq mədəniyyəti, ünsiyyət mədəniyyəti, nitq mədəniyyəti, bədii mədəniyyət, estetik mədəniyyət və s. kimi mədəniyyət növlərini buraya aid etmək olar.

В Азербайджане вопросам экологии также придаётся стратегическое значение. Отношение Общенационального лидера Гейдара Алиева к вопросам охраны природы и рационального природопользования выразилось в реализации масштабных природоохранных проектов, включая создание национальных парков, заповедников и проведение мелиоративных мероприятий. По его инициативе в стране были созданы лесные пояса на участке площадью в 51 тысячу гектаров, осуществлены меры по восстановлению экологического баланса и улучшению структуры почв. Были предприняты важные шаги, в области сохранения и рационального использования водных ресурсов: водохранилищ, искусственных водоемов, гидроэлектростанций, созданию современных водных сооружений, и все это плодотворно сказалось на обеспечении посевных участков хозяйственной водой. В результате этой политики, начатой десятки лет назад, была создана база для превращения сельского хозяйства Азербайджана в ведущую отрасль не нефтяного сектора. Сегодня сельское хозяйство Азербайджана развивается, опираясь на земельные и водные ресурсы.

Общенациональный лидер Гейдар Алиев всегда придавал большое значение сохранению природных ресурсов и развитию диалога в данном направлении [9]. Основной причиной превращения многих регионов Азербайджана в цветущие уголки и увеличения числа зеленых участков является именно то, что и в годы советской власти, и в период независимости Великий лидер всегда уделял большое внимание мероприятиям по озеленению. По словам президента НАНА, академика Исы Габиббейли, постановления, законы, распоряжения, принятые в период руководства Гейдара Алиева в сфере экологии, были нацелены на оздоровление природы республики, эта работа велась последовательно, постоянно и системно, вследствие чего были достигнуты положительные результаты.

В 1969-1982 гг. по инициативе выдающегося государственного деятеля Гейдара Алиева были приняты 8 законов и 32 постановления, которые охватывали такие вопросы, как защита экологии, охрана окружающей среды, рациональное использование природных ресурсов; на эти же годы приходится создание многочисленных государственных природных заповедников и заказников. Инициатива создания в Азербайджане после обретения независимости первых охраняемых территорий, имеющих статус Национального парка, также связана с его именем. В 1969 году по распоряжению Гейдара Алиева был создан Ширванский заповедник, ставший впоследствии по его же инициативе национальным парком, в 1974 году – Баситчайский, в 1978 году – Аггёльский, а в 1981 году – Исмаиллинский заповедники.

Первое правительственное постановление об издании «Красной книги» для сохранения богатого генофонда флоры и фауны Азербайджана было принято именно в период руководства Общенационального лидера. В настоящее время вышло в свет третье издание «Красной книги», подготовленное специалистами НАНА, соответствующих институтов, функционирующих под ведомством Министерства науки и образования, а также сотрудниками Министерства экологии и природных ресурсов. В книге нашли свое отражение многие редкие, находящиеся на грани исчезновения виды фауны и флоры.

В основе стабильного и устойчивого развития республики, а также обретения Азербайджаном достойного места в системе международной безопасности стоит проводимая Гейдаром Алиевым дальновидная политика, которая успешно продолжается Президентом Ильхамом Алиевым [10]. Руководствуясь его рекомендациями, продолжаются начатые ранее

работы по сохранению и восстановлению богатой природы и природных ресурсов Азербайджана, в данном направлении претворяются в жизнь новые проекты.

Необходимость формирования новых ценностных ориентаций человеческой деятельности обусловлена остротой современной экологической ситуации, нарастанием социальных противоречий в духовной и социальной сферах жизни общества. Процесс формирования экологических ценностных ориентаций является результатом взаимосвязей в системе «природа – общество».

Таким образом, преодоление современных экологических проблем возможно путем кардинального изменения мировоззренческих ориентаций, формирования новых ценностных установок взаимодействия общества и природы и перехода к экологически безопасному направлению развития науки, техники и технологий в целях сохранения естественной природы и человечества. Ценностный аспект экологического образования в данном случае выражает ориентацию на многостороннюю значимость естественной природы, ее эстетическую и практическую ценности.

**Список использованной литературы**

1. Фромм Э. О любви к жизни // Психоанализ и этика. М.: АСТ, 1998. – 568 с.
2. Монреальским протоколом по веществам, разрушающим озоновый слой [Электронный ресурс]. – Режим доступа: https://www.un.org/ru/documents/decl_conv/conventions/ozone.shtml – Дата доступа: 12.05.2025.
3. Медоуз. Д.Х. Пределы роста. / Д. Х. Медоуз. Пер. с англ.; Предисл. Г. А. Ягодина. – М.: Изд-во МГУ, 1991. – 208 с.
4. Человек и природа: нерушимая взаимосвязь, постоянное взаимодействие // Robotlibrary [Электронный ресурс]. – Режим доступа: http://robotlibrary.com/book/484-biologiya-yarygin-vn/120-Page120.html. - Дата доступа: 11.05.2025
5. Печчеи А. Человеческие качества. / А. Печчеи. Перевод с англ. О. В. Захаровой с издания The Human Quality «Pergamon Press» Oxford, 1977. – М.: «Прогресс», 1980. – 302 с.
6. Степин В. С. Цивилизация и культура. / В. С. Степин. СПб.: СПбГУП, 2011. – 408 с.
7. Quality of the environment in Japan 1999. Tokyo: Inst. Glob. Environ. Strateg., 1999. – 29 p.
8. Экология – приоритет государственной политики. – Электронный ресурс]. – Режим доступа: https://pravo.by/novosti/obshchestvenno-politicheskie-i-v-oblasti-prava/2023/april/73907/ – Национальный правовой Интернет-портал Республики Беларусь. Дата доступа: 28.04.2025.
9. Диалог культур и вызовы современной эпохи: материалы Бакинского форума, посвященного памяти Гейдара Алиева / под общ. редакцией Н. М. Мамедова, А. Н. Чумакова; отв. Ред. А. А. Гезалов, И. Р. Мамед-заде. – М.: Канон+ РООИ «Реабилитация», 2019. – 528 с.
10. «Экологическая политика Ильхама Алиева. Устойчивое развитие и зеленый мир (2003-2023)», 2024 – 524 с.

**Rəyçi: f.e.d., prof. Azər Mustafayev**

**UOT 101.1**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1051**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ CƏNUBİ AZƏRBAYCAN POEZİYASINDA YENİ İCTİMAİ-SİYASİ VƏ FƏLSƏFİ FİKRİN FORMALAŞMASI

**Nicat Məmmədov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
nicatmk@mail.ru
https://orcid.org 0009–0007–0452–4759

**Xülasə:** Təqdim olunmuş məqalədə Cənubi Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində XX əsrin 1939-1945-ci illərinin xüsusi mərhələ təşkil etməsi problemi gündəmə gətirilir. İranda və İranın tərkib hissəsi olan Güney Azərbaycanda ictimai-fəlsəfi, milli şüurun oyanışı və azadlıq hərəkatının geniş şəkildə təşəkkül tapmasına imkan, zəmin və tarixi şəraitin yaranması məsələləri tədqiq olunur. Rza şah diktaturasına qarşı genişlənən inqilabi-siyasi mübarizədə mütərəqqi fikirli Azərbaycan ziyalıları, şair və jurnalistlərinin dünyagörüşü müqayisə olunur.

**Məqsəd:** İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycan poeziyasında yeni ictimai-siyasi və fəlsəfi fikrin inkişafını araşdırmaq.

**Metodologiya:** Müqayisəli - sistemli yanaşma, tarixilik metodu.

**Elmi yenilik:** İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycan poeziyasında yeni ictimai-siyasi və fəlsəfi fikrin inkişafının tədqiqi.

**Acar sözlər:** fəlsəfi, ictimai-siyasi, Cənubi Azərbaycan, düşüncə, milli-mənəvi, özünüdərk, demokratik.

## FORMATION OF NEW SOCIO-POLITICAL AND PHILOSOPHICAL THOUGHT IN THE POETRY OF SOUTH AZERBAIJAN DURING THE SECOND WORLD WAR

**Nijat Mammadov**

**Abstract:** This article brings to the agenda the problem of 1939-1945 as a special stage in the history of philosophical and socio-political thought of South Azerbaijan. The awakening of socio-philosophical and national consciousness in Iran and Southern Azerbaijan, which is part of Iran, and the creation of opportunities, foundations and historical conditions for the broad formation of a liberation movement have been studied. The worldview of progressively intellectual Azerbaijani thinkers, poets and journalists in the unfolding revolutionary-political struggle against the dictatorship of Reza Shah has been compared.

**Purpose:** To study the development of new socio-political and philosophical ideas in the poetry of South Azerbaijan during the Second World War.

**Methodology:** Comparatively systematic approach, historical method.

**Scientific novelty:** A study of the development of new socio-political and philosophical thought in the poetry of South Azerbaijan during the Second World War.

**Keywords:** Philosophical, socio-political, South Azerbaijan, thought, national-spiritual, self-awareness, democratic.

## ФОРМИРОВАНИЕ НОВОЙ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ И ФИЛОСОФСКОЙ МЫСЛИ В ПОЭЗИИ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Ниджат Мамедов**

**Резюме.** В данной статье рассматривается проблема 1939-1945 годов как особый этап в истории философской и общественно-политической мысли Южного Азербайджана. Анализируется процесс пробуждения в Иране и Южном Азербайджане (входившем в состав

Ирана) социально-философского и национального сознания, формирование условий и возможностей для широкого развития освободительного движения. Сопоставляется мировоззрение прогрессивно мыслящих азербайджанских интеллектуалов, поэтов и журналистов в контексте разворачивающейся революционно-политической борьбы против диктатуры Реза-шаха.

**Цель исследования:** изучить развитие новых общественно-политических и философских идей в поэзии Южного Азербайджана в годы Второй мировой войны.

**Методология:** применяется сравнительно-системный подход и исторический метод анализа.

**Научная новизна:** работа раскрывает особенности становления новой общественно-политической и философской мысли в поэзии Южного Азербайджана в годы Второй мировой войны.

**Ключевые слова:** философский, общественно-политический, Южный Азербайджан, мысль, национально-духовное самосознание, демократический

**Əsas hissə / *Main Part***

İkinci Dünya müharibəsi (1939-1945) dünya ölkələrinin bir çoxunda olduğu kimi, İranda və İranın tərkib hissəsi olan Güney Azərbaycanda da ictimai-siyasi, fəlsəfi, milli şüurun oyanışına və azadlıq hərəkatının geniş şəkildə təşəkkül tapmasına imkan, zəmin və tarixi şərait yaratdı. Mütərəqqi fikirli azadlıqsevər Azərbaycan ziyalıları, o cümlədən şair, yazıçı və jurnalistlər şəraitin yaratdığı imkanlardan istifadə edərək gizli və açıq şəkildə Rza şah diktaturasına qarşı genişlənən inqilabi-siyasi mübarizəyə qoşuldular. Bu dövrdə yaranan əsərlərin böyük əksəriyyəti inqilabi ruhlu, şahlıq istibdadına qarşı birbaşa və kəskin etirazı ilə diqqəti cəlb etməyə, özündən əvvəlki ədəbi-bədii nümunələrdən öz ictimai-fəlsəfi yönümünə görə əhəmiyyətli dərəcədə fərqlənməyə başladı.

Tarixşünaslıqda haqqında bəhs etdiyimiz illər "Milli azadlıq hərəkatının yüksəlişi (1941-1946)" dövrü kimi xarakterizə olunur" [1, s. 136].

Daha çox milli özünüdərk və özünütəsdiq məfkurəsinə söykənməklə yaranan 1941-1946-cı illərin poeziyası dövrün, zamanın hadisələrinə ayıq gözlə baxmağa, olayları vaxtında əks etdirib ictimaiyyətə təqdim etməyə səy göstərməyə başladı. Akademik Mirzə İbrahimovun qeyd etdiyi kimi, "bədii ədəbiyyat bütün bu hadisələrə biganə qalmadı, bu və ya digər dərəcədə onların güzgüsü oldu" [2, s. 133].

Haqqında söhbət gedən illərin Cənubi Azərbaycan şeiri öz ictimai xarakterinə görə daha çox anti-imperialist yönümlü idi. Ölkədaxili monarxist rejimin, şahlıq üsul-idarəsinin, milli ayrıseçkiliyin tənqidi, zülmə və zalıma qarşı üsyan, xalqı mübarizəyə çağırış poeziyanın başlıca mövzularından idi.

Əsrin 40-cı illərində Cənubi Azərbaycanda diktaturanın təqib və hücumlarına baxmayaraq, milli ruhlu şairlər rejimə qarşı açıq şəkildə etirazını bildirir, o zamana qədər hədəfi daha çox qeyri-müəyyən olan əsərlərin dövrünün olmadığını başa düşərək zamanın tələbi ilə ayaqlaşan, xalqın istək və arzularını əks etdirən yeni, ictimai və fəlsəfi ruhlu əsərlərin yazılmasına üstünlük verirdilər. Cənubi Azərbaycan ədəbiyyatının tanınmış tədqiqatçılarından olan Sabir Nəbioğlunun (Əmirov) yazdığı kimi, "Rza şah diktaturasının süqutundan sonra təkcə Azərbaycanda deyil, bütün İran miqyasında yaranan ədəbiyyat özünün komponentlərinə görə yeni idi. O həm mövzu etibarilə, həm gerçək aləmə münasibət nöqteyi-nəzərindən, həm də obyektiv aləmin təqdimində istifadə edilən bədii vasitələr cəhətdən özündən əvvəlki ədəbiyyatdan fərqlənirdi" [3, s. 20].

Akademik Nizami Cəfərovun qeyd etdiyi kimi, "İkinci Dünya müharibəsi illərində Cənubda ədəbi dilin canlanması üçün şərait meydana gəlir" [4, s. 16]. Ana dili uğrunda mübarizə daha çox özünü dövrün poeziyasında, xüsusilə "Azərbaycan", "Vətən yolunda" qəzetləri və "Şairlər məclisi" məcmuəsində dərc olunan ədəbi-bədii materiallarda göstərir. Bu illərin poetik nümunələrinin bir çoxu ilk nömrəsi Əli Şəbüstərinin müdirliyi və İsmayıl Şəmsin redaktorluğu ilə 1941-ci ilin noyabr ayının 1-də çıxan "Azərbaycan" qəzetinin səhifələrində dərc olunurdu. Məqalə və digər yazıları ilə "Azərbaycan xalqına edilən zülmü ifşa edən, Azərbaycan dili və mədəniyyətinin inkişafı uğrunda mübarizə aparan" [5, s. 18] qəzetin səhifələrində Ə.Fitrət, M.Biriya, Süleyman Əmini, Sədi Yüzbəndi, Ələkbər Həddad, Məhəmmədhüseyn Təvəkküli kimi şairlərin ictimai-siyasi xarakterli şeirləri tez-tez çap olunurdu.

Maraqlı burasıdır ki, qəzet satirik şeirlərin çapına daha çox həvəs göstərirdi. Qəzetin ilk nömrəsində “Bacadanbaxan” imzası ilə dərc olunan bir şeirdə oxuyuruq:

Məşrutə oldu İran, biz olduq vəkili-millət,
Biz rahətə yetişdik, millət qazandı zillət,
Qanunu biz düzəltdik “bər nəf’e ma və dövlət”,
Bax gör ki, hər zamanda saman yenə bizimdir,
Dur çal qavalı, oyna, dövran yenə bizimdir [6].

Qəzetdə çap olunan müəlliflər şahlıq rejiminin tənqidi ilə kifayətlənmir, xalq həyatının bütün sahələrini özündə əks etdirən ictimai-fəlsəfi məzmunlu bədii nümunələr yaratmağa cəhd edirdilər. Bu şeirlərin əksəriyyətində Azərbaycan xalqının milli mənliyi tərənnüm olunur, xalqı qəflət yuxusundan ayıltmağa çağırışlar edilirdi. Hilal Nasirinin “Namuslu millətimə” şeiri bu cəhətdən xarakterikdir.

1941-ci ilin sentyabrında İrandan qaçmağa məcbur olan Rza şahdan sonra xaricdəki imperialist dairələrin köməyi ilə taxta otuzdurulan Məhəmməd Rza Pəhləvi atasının yolu ilə gedərək Azərbaycana qarşı şovinist siyasət yeritməyə başladı, ölkədə müxtəlif dillərdə məktəblər fəaliyyət göstərdiyi, qəzetlər çıxdığı halda, Azərbaycan türkcəsində nə təhsilə, nə də mətbuat yayımına icazə vermədi. Belə bir mürəkkəb şəraitdə 1941-ci ilin avqustunda Cənubi Azərbaycana getmiş Sovet Ordusu sırasındakı mühərrir, şair və ədiblərin iştirakı ilə “Vətən yolunda” adlı qəzetin nəşri məsələsi gündəmə çıxarılır.

Azərbaycan dilində nəşr olunacaq ordu qəzetinin təşkil edilməsi və nəşri məsələsi Sovet ordusu sıralarında rəhbər işçi kimi Təbrizə getmiş Mirzə İbrahimova həvalə olunmuşdu. 1941-ci ilin sentyabr ayının 21-də fəaliyyətə başlayan qrup plana uyğun olaraq “Vətən yolunda” adlanacaq qəzetin nəşrinə hazırlıq işləri görmüş və cəmi 21 gün sonra, yəni 1941-ci il oktyabr ayının 11-də Təbrizdə qəzetin ilk nömrəsi çap edilmişdir. İki gündən bir dörd min nüsxə ilə çap olunan qəzetin redaktoru Mirzə İbrahimov, məsul katibi isə İsrafil Nəzərov idi. Nəşr fəaliyyətini iki dövrədə (11 oktyabr 1941-ci il – 13 aprel 1943-cü il və 10 aprel 1944-cü il – 1 may 1946-cı il) davam etdirən və 406 sayı çap olunan bu qəzetin Cənubi Azərbaycanın ictimai-fəlsəfi və mədəniyyət sahəsində ən mühüm xidmətlərindən biri Sovet ordusu sıralarında Şimali Azərbaycandan Təbrizə, Güney Azərbaycana getmiş şair və yazıçıların əsərləri ilə yanaşı, cənublu yazarların da əsərlərinə səxavətlə yer ayırması, onları təbliğ etməsi idi.

Qeyd etməliyik ki, tədqiqatların birində göstərildiyi kimi, “Vətən yolunda” qəzetinin nəşri Cənubi Azərbaycan şairlərinin yaradıcılığı yollarında geniş imkanlar yaratmışdı. Qəzet nəşrə başladığı ilk aylardan bədii yaradıcılıqla məşğul olan qələm sahiblərini ətrafına toplaya bilmişdi” [7, s. 37].

Qəzetdə Şimali Azərbaycandan gedib müvəqqəti olaraq Təbrizdə yaşayan və fəaliyyət göstərən M.İbrahimov, S.Rəhimov, S.Rüstəm, Ə.Məmmədxanlı, M.Rahim, O.Sarıvəlli, Q.Məmmədli, C.Xəndan, İ.Nəzərli və başqa müəlliflərlə yanaşı, Məhəmməd Biriya, Mir Mehdi Etimad (Natiqi), Əli Fitrət, Mir Mehdi Çavuşi, Əli Tudə, Balaş Azəroğlu, Mədinə Gülgün, Mirrəhim Vilayi, Məhəmmədluyi Abbasi, Hilal Nasiri və s. bu kimi yerli qələm sahibləri də fəal şəkildə iştirak edirdilər. Mübaliğəsiz demək olar ki, “Vətən yolunda” qəzeti Cənubi Azərbaycanda fəlsəfi, ictimai-siyasi, anadilli mətbuatın və ədəbiyyatın inkişafında, xüsusilə də milli şüurun formalaşmasında əvəzsiz rol oynamışdır. 1946-cı ilin may ayının birinə qədər nəşr olunan bu qəzet bir ədəbi tribunaya çevrilmişdi. Etiraf edilməlidir ki, nəşr fəaliyyətini davam etdirdiyi illərdə “Vətən yolunda” qəzeti Cənubi azərbaycanlıların ictimai tələb, dünyagörüş və arzularını əks etdirən başlıca vasitələrdən biri idi.

“Vətən yolunda” qəzetinin müzakirə obyektinə çevirdiyi məsələlər çoxçeşidli olduğu kimi, orada dərc olunan ictimai-fəlsəfi xarakterli ədəbi-bədii yazılar da forma və məzmunca çox rəngarəng idi. Qəzetdə əruz və heca vəznində yazılmış, janr etibarilə fərqlənən çoxlu sayda lirik və epik əsərlərə rast gəlmək olur. Böyük ictimai-fəlsəfi əhəmiyyətə malik bu bədii əsərlərdə faşizmin ifşası, monarxiya rejimlərinin tənqidi, azadlığa, istiqlala çağırış, milli varlığın təsdiqi və dil məsələləri başlıca mövzulardan idi.

Əli Tudə “Vətən yolunda” qəzetində çap etdirdiyi “Aşıq Hüseynə” şeirində Azərbaycan xalqının Rza şah hakimiyyəti illərində çəkdiyi zülmləri, yurdun “bayquşlar ötən” viranəyə dönməsini, Milli Hökumətin qurulmasından sonra abad olması, hətta aşıqlar dəstəsinin meydana gəlməsi və tarixi yaddaşın təzədən bərpa olunmasını aşağıdakı kimi vəsf edirdi.

S.C.Pişəvərinin rəhbərliyi ilə qurulan Milli Hökumətə Azərbaycan xalqının nicatı kimi baxmaq, onu alqışlamaq Cənubi Azərbaycan şairlərinin “Vətən yolunda” qəzetində dərc olunan şeirlərinin

aparıcı mövzuları sırasında yer alırdı. Şair Xosrov Darayi 1945-ci ilin 12 dekabrında Milli Hökumətin qurulması ilə Azərbaycana yeni bir baharın gəlişini “Qışda bahar” əsərində belə tərənnüm edirdi:

Getdi zamanı zülmü-sitəm istəyənlərin,
Millət özü üçün özü ələ aldı ixtiyar!
Şad ol, sağ ol, yaşa ey bizim şanlı firqəmiz!
Yaxşı şəhamət elə, zühur etdin iqtidar! [9].

Bu ictimai-fəlsəfi əsərlərdə Şimali Azərbaycana, demək olar ki, ümid gözü ilə baxılır, buradakı quruculuq işləri, xalqın öz dilində məktəb və mətbuat orqanlarına, mədəniyyət ocaqlarına malik olması yüksək pafosla tərənnüm olunurdu.

Belə əsərlərdən biri də Balaş Azəroğlunun “Bakı səfəri” poemasıdır. Poemanın ən önəmli xüsusiyyətlərindən biri də odur ki, şair yalnız Bakı səfərindən aldığı təəssüratı yox, yol boyu gördüyü Cənubi Azərbaycan kəndlərinin də acınacaqlı, ürəkağrıdan vəziyyətini, darısqal küçələrini təsvir edir, Arazın hər iki sahilindəki parçalanmış Azərbaycanın taleyini ictimailəşdirir. Ayrılıq dərdinin çəkilməz zülm olduğunu bildirirdi.

“Vətən yolunda” qəzetində çap olunan şeirlərdə Sovet Azərbaycanından Təbrizə gedib orada çalışan şair və yazıçılara həsr olunmuş şeirlər də diqqət cəlb edir. Əbülqasim Kamil Süleyman Rüstəmə ithaf etdiyi “Ürək dostuma” şeirində yazırdı:

Sönməz qəlbimdəki sönməz bu odlar,
Nəfəsim düşmənin qəlbini odlar.
Sənin tək dostum var, qoy bilsin yadlar,
Əyilmək bilməyən qardaş əyilməz [14].

1941-1942-ci illərdə “Vətən yolunda” qəzetində yazıları tez-tez çap olunan M.Etimadın ictmai xarakterli şeirlərində vətənpərvərlik, ölkənin acınacaqlı vəziyyətini açıb göstərmək, tənqid və ifşaçılıq, xalqı elmə, biliyə, gözüaçıqlığa çağırış əsas yer tutur. Vətən xainlərini, satqınları, mənfəət güdən möhtəkirləri kəskin surətdə tənqid və ifşa edən şair xalqını birliyə, istiqlal uğrunda mübarizəyə çağırırdı. “Şərafəti tap!”, “Yaşamaz”, “Dilənçi”, “Analar həyatı”, “Düzlük aləmdə səadət evinin qayəsidir”, “Rüşvət canımdır” və s. bu kimi şeirlər o dövrün ictimai-fəlsəfi xarakterli demokratik poeziyasının gözəl nümunələrindəndir. “Yaşamaz” şeirindən bir parçaya diqqət edək:

Ölkəsindən xəbəri olmayan insan yaşamaz,
Ruhsuz aləmdə müsəlləmdi ki, bir can yaşamaz.
Hər kim öz ölkəsinin fikrini başdan çıxara,
Məhv olar, xoş günə qalmaz, daha imkan yaşamaz.
Ədlü insaf ilə ol, boşlama ədlin yolunu,
Zülm edən kəs ola, gər Samü Nərman yaşamaz [12, s. 67].

M.Etimad əksər şeirlərində xalqını vətənpərvərliyə, birliyə, qardaşlığa, fədakarlığa çağırır. Xalqına üz tutan şair ona “xan, xanlığı boşla”, vətənin fikrini çək, onu “gülüstana döndər”, – deyə müraciət edir. M.Etimad inanırdı ki, zülm yerdə qalmayacaq. Şairin dünyagörüşünə görə, zalımlar peşmançılığa, zülm evi isə viranlığa məhkumdur. Azadlığı bütün qəlbi, varlığı ilə tərənnüm edən şair həyatın bütün gözəlliyini məhz azadlıqda görürdü. Onun fikrincə, sərv ağacının bütün gözəlliyi, hüsnü, füsunkarlığı onun azadlığı ilə bağlıdır. “Cümlənin dərdi təşxis verilməzsə, onun dərmanı da tapılmaz” deyən M.Etimadın 1941-1942-ci illərdə “Vətən yolunda” qəzetində çap olunan şeirləri ictimai-fəlsəfi məzmunu, siyasi kəsəri ilə seçilən əsərlərdir. O, bu şeirlərində hamını Vətən yolunda çalışmağa, fədakarlığa, hümmət, qeyrət və rəşadətə çağıraraq “Səttarxan yurdu” şeirində yazırdı:

Ey dağları bütün aslan məvası,
Qeyrətlərin coşqun olan dəryası,
Şanlı, şərafətli ellər dünyası,
Axan dağ-daşından həyat çeşməsi!
Qoynunda bəslədin sən Səttarxanı,
İran dağlarından kəsdin dümanı.
Oldun zəfərlərdə tarix aslanı,
Rəşid oğullara ilham nəğməsi [12,s. 61].

Mirmehdi Etimadın “Vətən yolunda” qəzetində çap olunan şeirləri olduqca səmimi, təsirli olub, fəlsəfi ideya və sənətkarlıq baxımından da dəyərlidir. Bu isə şairin daxili səmimiyyəti, ürək saflığı ilə

əlaqədar idi. Bütün varlığı ilə xalqına, yurduna bağlı olan M.Etimad məmləkətin vətəndaşlarını Vətəni ürəkdən sevməyə, onu uca və müqəddəs tutmağa çağıraraq “Azərbaycana yetişməz” fəlsəfi şeirində yazırdı:

Eşq olmasa, aşiq qəmi-hicranə yetişməz,
Vəsl istəməyən sevgili canana yetişməz.
... Allah özü şahiddi, vətən ölmüşüyəm mən,
Heç and ilən Allah Quranə yetişməz.
... Gər dürrü-gövhər, Etimad, aləmləri tutsa,
O dürr yəqin Azərbaycana yetişməz [12,s. 60].

Bu illərdə yaranmış ictimai-fəlsəfi yönümlü poeziyanı yalnız “Azərbaycan” və “Vətən yolunda” qəzetlərində dərc olunan nümunələrlə məhdudlaşdırmaq olmaz. Həmin illərdə yazılmış və sonralar müxtəlif mətbuat orqanlarında, məcmuə və kitablarda çap olunmuş şeirlər deməyə əsas verir ki, milli kimliyin əsas atributları olan “vətən və azadlıq, Azərbaycan xalqının təyini-müqəddərat hüququ, ana dili üzərindən yasaq və təhqirin götürülməsi tələbi, ... Azərbaycan milli hökumətinin ictimai, iqtisadi və mədəni islahat tədbirlərinin icrasına kömək və s. bu dövrün ədəbiyyatının başlıca mövzusu idi” [1, 152-153].

40-cı illər ədəbiyyatının istedadlı nümayəndələrindən biri, həyatını 1946-cı ildə xalqın, vətənin yolunda qurban verməklə şəhidlik zirvəsinə ucalan filosof şair Əli Fitrət sanki bütün qələm dostlarının dilindən “Vətən eşqində” şeirində yazırdı:

Nə mən Vamiq kimi, Əzradan ötrü eylərəm əfqan,
Nə Sənanəm, olam tərsa, çıxam mən tutduğum yoldan.
Nə Məcnunəm, gəzəm vəhşilər ilə çöldə sərgərdan,
Cahanda nəqsi-aşiqdir, bilə sirrini biganə [13, s. 23].

Şair sədaqətli, fədakar bir aşiq kimi sirrini aşkar etmək istəməsə də, şeirinin sonda böyük iftixar hissi ilə “yarının” ancaq doğma diyarı olduğunu dilə gətirir. Oxucu başa düşür ki, şair nə Əzrasını axtaran Vamiq, nə Leylasını gəzən Məcnundur. O, vətən pərvanəsi, vətən aşiqi, vətən fədaisidir.

Əli Fitrətin “Azərbaycanım, yaşa”, “İttihad”, “Məslisi-milliyyə”, “Mədh azadeqane-Təbriz” kimi şeirləri bu illərin ictimai-siyasi lirikasının gözəl nümunələri olmaqla yanaşı, həm də milli kimlik uğrunda mübarizə motivlərinin zənginliyi baxımından da çox diqqətəlayiqdir.

Hər bəndinin sonunda “Yaşa, yaşa, Azərbaycanım, yaşa!” misrası nəqarət kimi səslənən beşbəndlik “Azərbaycanım, yaşa!” şeirini Vətən haqqında nəğmə də adlandırmaq olar. Şeirdə Vətən torpağının müşki-ənbərdən, daşlarının ləli-gövhərdən, sularının abi-Kövsərdən yaxşı olduğunu bildirərək, qürur hissi keçirən şair sonrakı bəndlərdə Azərbaycanı Babəklər, Koroğlular yurdu, hər guşəsində min aslan yatan, Səttarxan kimi qəhrəman yetişdirən müqəddəs bir məkan kimi vəsf edir və Vətən övladlarını onun şərəfini qorumağa çağıraraq yazır:

Vətən qədri bilən insan var olsun,
Oğlu, qızı onun bəxtiyar olsun!
Vətəni sevməyən daim xar olsun,
Daim şərəfli aşiyanım, yaşa,
Yaşa, yaşa, Azərbaycanım, yaşa! [13, s. 27].

“İttihad” şeirində milli birliyi tərənnüm edən, “Məslisi-milliyyə” adlı ictimai-fəlsəfi əsərində Milli Məclisin fəaliyyətə başlamasını alqışlayan şair, Sovet ordusunun Təbrizə daxil olmasından sonra bu gözəl şəhərin şahlıq istibdadından qurtularaq azad nəfəs almasını, yeni dövlətin qurulmasını, ana dilinin əsas ünsiyyət vasitəsinə çevrilməsini sevinc və coşqu ilə vəsf edib, vətəndaşları bu dövləti və ana dilini qorumağa səsləyir.

İbrahim Zakir bu illərdə yazdığı “Vətən, ey Vətən”, “Təbriz”, “Azər”, “Şanlı xalqımız”, “Fədailərə və qızılbaşlara”, “Mənim öz dilim var” və s. bu kimi şeirlərində milli kimliyini şövqlə tərənnüm edərək, milli identikliyin komponentləri olan Vətən, azadlıq, ana dili, bunları necə qorumaq barədə ictimai-fəlsəfi düşüncələrini oxucuları ilə bölüşür.

Təbrizdə S.C.Pişəvərinin rəhbərliyi ilə qurulan Milli Hökuməti alqışlayıb ona “Azər” adlı şeir həsr edən, dövlətin qurulması gününü “Azər bayramı” adlandıran:

Doğdu şanlı günü Azəristanın,
Onun hər guşəsi gülüstan oldu.

Azadlıq yolunda ölən insanın
Hünəri dillərdə bir dastan oldu [14, s. 33], -

deyən şair “Vətən, ey Vətən” şeirində “qəlbimin qərarı, anamın şanlı yadigarı, şənim, iftixarım, sınıq könlümün baharı” hesab etdiyi vətəndən ayrı gəzməyi cəhənnəm əzabı, eyş-işrət gününün belə matəm olduğunu bildirərək yazır:

Yata bilməm sənin fərağında,
Saralıb rəngim iştiyağında.
Razıyam can verəm qucağında,
Ya batam qana qarlı dağında,
Olasan cismimin məzarı, Vətən,
Çəkməyəm bunca intizarı, Vətən [14, s. 32].

“Fədailərə və qızılbaşlara” adlı ictimai xarakterli şeirində babaları Babək, Səttarxan kimi igidlərdən ibrət götürərək Milli Hökumətin qurulmasında misilsiz xidmətləri olan fədailəri və qızılbaşları qurulan bu dövlətin əbədi yaşaması üçün mübariz və ayıq-sayıq olmağa səsləyən şair, “Mənim öz dilim var” şeirində Azərbaycan xalqına və onun dilinə xor baxanlara çox sərt və açıq şəkildə belə deyir:

Mənim Vətənim var, şanlı elim var,
Nə türkəm*, nə farsam – ana dilim var.
Gözümtək sevirəm doğma Təbrizi,
Sinəsi üstündə bəsləyir bizi.
Təbrizi vermərəm yüz min Tehrana,
Qurbanam vətənim Azərbaycana! [14, s. 43].

***Qeyd:*** Şair burada “türk” deyəndə Osmanlı türklərini nəzərdə tutur – N.M.

İbrahim Zakirin yuxarıda adlarını çəkdiyimiz ictimai-fəlsəfi şeirlərinin, demək olar ki, hamısında vətən, yurd, millət, milli dövlət və s. bu kimi məsələlərin təsvir və tərənnümü çox güclüdür və bu əsərlərin əsas ideya istiqamətini milli kimlik və onun uğrunda mübarizə motivləri təşkil edir.

Cəfər Kaşif “Hürriyyət pərisinə” şeirində “ədalət bülbülüm, zəhmət baharım” – deyə, özünün idealının “hürriyyət” olduğunu bildirirsə [14, s. 46-47], “Əl çəkin!” adlı ictimai xarakterli şeirində Azərbaycanın müstəqil dövlət olmasını qəbul etmək istəməyən İranın mərkəzi hakimiyyətinə üz tutaraq yazırdı:

Fikrimiz azadəlikdir, malikik xoş niyyətə,
Yadların qəyyumluğu lazım deyil biz millətə.
Həqqidən ilham alıb qoyduq qədəm hürriyyətə,
Olmuşuq hər fərdimiz bir mərdi-meydan, əl çəkin!
İstərik daim quraq ədl ilə divan, əl çəkin! [14, s. 47].

Müşahidələrimiz deməyə əsas verir ki, həmin illərdə yaranmış ictimai-fəlsəfi xarakterli poetik nümunələrdə Azərbaycan, milli hökumət, doğma yurd, vətəndən ayrılıq, milli dil, azadlıq eşqi, imperialist müharibələrə və fars şovinizminə qarşı mübarizə mövzuları üstünlük təşkil edir.

İranın, Cənubi Azərbaycanın ictimai-siyasi vəziyyəti barədə dünyagörüşünü oxucuları ilə bölüşən Məhəmməd Biriya dünya hadisələrinə də biganə qalmırdı. Bəşəriyyətin bəlasını, faciəsini ictimai, milli ayrıseçkilikdə, zülm və əsarətdə görən şair bütün bəşəriyyəti bu yolda mübarizəyə səsləyərdi.

Göründüyü kimi, vətənpərvər və beynəlmiləlçi şair xalqının əzablı, məşəqqətli həyatına acıdığı kimi, bütün bəşəriyyətin halına da acıyır, onu dözümlü, mərd olmaqla bərabər, həm də gözü açıqlığa, haqqın keşiyində dayanmağa, mübariz olmağa çağırır.

Məlum olduğu kimi, 40-cı illərin əvvəllərində İranda daxili irtica və imperializm əleyhinə mübarizə qəti və ardıcıl şəkil almışdı. Xalq ölkənin, millətin mənafeyini qorumayan, gah bu, gah da başqa dövlətlərə sığınan dövlət başçılarının satqınlığını görür, onların ölkəyə, xalqa xəyanətini aydın duyurdu. Bu illərdə məmləkətdə bir anarxiya hökm sürməkdə idi. Azad fikirli, mütərəqqi dünyagörüşlü ziyalılar bütün ölkədə hökm sürən özbaşınalığa, xalqın ağır vəziyyətinə göz yuma bilmir, milləti vəhdətə, mütəşəkkil mübarizəyə çağırırdılar. M.Biriya özünün bir çox şeirlərini, o cümlədən “Milləti ayıldanlara bax!”, “Hoqqabazlara xitab”, “Ay kişi, bayram gəlir”, “Tazə, şirin ləbləbi”, “Yoldan azırsan”, “Oğlan bir utan”, “Şah qaçır a...”, “Çoxarvadlının şikayəti”, “Bir tiryəkinin dilindən”, “Qaçaqaç” və s. əsərlərini bu mövzuya həsr etmişdir.

M.Biriyanın "Şah qaçır a..." adlı fəlsəfi şeiri bu dövrün ən kəskin siyasi şeirlərindən biri kimi, xüsusi dəyərə malikdir. 1941-ci ildə Rza xanın İrandan qaçması ərəfəsində yazılmış bu əsərində şair göstərir ki, 25 il İranı çapıb-talayan, iranlıları var-yoxdan çıxaran, əvəzində zəhmətkeşlərə zindan, ölüm, səfalət bəxş edən Rza xan ingilis imperialistlərinin köməyi ilə hakimiyyətə gəldiyi kimi, ingilis ağalarının köməyi ilə də İrandan qaçır.

M.Biriyanın bu dövrdə yazdığı "Şapalaq", "Yumruq", "Çomaq" şeirləri böyük ictimai-siyasi kəsərə malik olan, günün tələblərinə cavab verən şeirlər kimi maraqlı və qiymətli sənət nümunələridir.

Mir Tağı Milani "Azərbaycan" adlı ictimai-fəlsəfi xarakterli şeirində canını vətənə qurban verəcəyini, vətəndə yaşamağın behiştdə olmaqdan üstün olduğunu bildirərək yazırdı:

Budur əhdim mənim, xaliq bilir, ey namuvər-mihən,
Sənə xidmət edəm sidq ilə ta canımda can olsa.
Tutub zülmət səni hər səmtdən, lakin məlul olma,
Çıxar axır buluddan gün, əgər birdən nihan olsa.
...Səni bir dəm unutmaz bu həzin könlüm, gözəl yurdum,
Mənimçün xəlqi-aləm cümləsi gər xəsmi-can olsa [14, s. 151-152].

Hüseyn Səhhafın "Vətən qurbanıyıq", "Milli hökumətə", "Milli hökumətin qurulması" şeirlərində də Cənubi Azərbaycan xalqının birliyi və Milli Hökumətə inamı, qərinələrlə zillət çəkən ellərin öz arzusuna çataraq Azəristanda Milli Hökumət bərqərar edib onunla iftixar etməsi kimi ictimai-fəlsəfi ideyalar tərənnüm olunur.

Mir Mehdi Çavuşi həmin illərdə yazdığı "Yurduma", "Azərbaycan" şeirlərində vətənin qəhrəmanlıq tarixinə nəzər salıb, onun şərəfli tarixi ilə öyünürdüsə, "Dilimi" şeirində milli kimliyin əsas komponentlərindən biri hesab edilən milli dil məsələsi barədə düşüncələrini poetikləşdirirdi.

Vətən azadlığı, dil məsələsinin tərənnüm və təbliğinə nümunə olaraq Qulu xan Borçalının "Qələm azad, dil azad, bütün ölkə azad", Aşıq Hüseyn Cavanın şah cəlladlarına ünvanladığı "Təbrizi", Məhəmmədbağır Niknamın "Doğma dilim", Balaş Azəroğlunun "Vətən məhəbbəti", Haşım Tərlanın "Vətən", Müzəffər Dirəfşinin "Vətən eşqi" və s. bu kimi ictimai-fəlsəfi şeirləri misal göstərmək olar.

Digər filosof şair Q.Borçalı şeirində Təbrizdə Milli Məclisin açılışını şövq ilə tərənnüm edib:

Qələm azad, dil azad, bütün ölkə azad,
Milləti-Azəriyə yaxşı sərəncam oldu.
Tutacaq bu günü bayram gələn Azər nəsli,
Yer tutub səfheyi-tarixdə madam oldu.
Borçalı şeir yazır, məsti-meyü badə deyil,
Vətənin eşqi ona meylə dolu cam oldu (14, 155),–

deyə sevincini izhar edirdisə, Aşıq Hüseyn Cavan Milli Hökuməti süquta uğradıb, Təbrizi qana batırmaq istəyən azğın Pəhləvi rejiminə qarşı çıxaraq üsyankarcasına belə deyirdi:

Ey insan cəlladı, qudurmuş yağı,
Nahaqdan batırma qana Təbrizi!
İntiqam günləri gələr yetişər,
Bəsdi, gətirmə sən cana Təbrizi!
Qorxutmaz Təbrizi nə ölüm, nə dar,
Ondadır əzəmət, mətanət, vüqar.
O bilir dünyada haqq, ədalət var,
Qoymarıq odlara, yana Təbrizi! [14, s. 161-162].

"Yaşa, gözəl diyar, ey əziz vətən" [14, s. 191] deyərək Azərbaycanı tərənnüm edən Haşım Tərlan, "Kimsənin olmasa qəlbində vətən eşqi, yəqin Ömrü bihudə sürüb, atəşi-xüsranə yanar" (15, 201-202) deyən Müzəffər Dirəfşi, adlarını yuxarıda qeyd etdiyimiz və barələrində tədqiqatımızda mövzu ilə bağlı danışdığımız şairlər, təbii ki, 1940-1947-ci illərdə yaranan Cənubi Azərbaycan ictimai-fəlsəfi fikrində və ədəbiyyatının inkişafında, milli kimlik məsələsinin poeziyada təcəssümündə əvəzsiz rola malikdirlər.

Fikirlərimizi ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, haqqında danışdığımız illərin Cənubi Azərbaycan poeziyası öz ictimai-fəlsəfi çaları ilə zamanın, dövrün tələblərinə cavab verən poeziya olmuşdur. Əsasən Azərbaycan dilində yazılmış bu əsərlərdə milli kimliyin inikası və milli kimlik uğrunda mübarizə onun əsas ideya istiqamətlərini təşkil etmişdir.

**Nəticə / *Conclusion***

Böyük Vətən müharibəsi illərində Cənubi Azərbaycanda ziyalıların xüsusilə Rza şah diktaturasına qarşı çevrilmiş inqilabi-siyasi mübarizəsi özündən əvvəlki ədəbi-bədii nümunələrdən öz ictimai-siyasi və fəlsəfi yönümünə görə əhəmiyyətli dərəcədə fərqlənməyə başladı.

Daha çox milli özünüdərk və özünütəsdiq məfkurəsinə söykənməklə yaranan 1941-1946-cı illərin bədii ədəbiyyatı dövrün, zamanın hadisələrinə ayıq gözlə baxmağa, olayları vaxtında əks etdirib ictimaiyyətə təqdim etməyə səy göstərməyə başladı.

**İstifadə olunmuş ədəbiyyat / *References***


1. Müciri, C. İkinci Dünya müharibəsi və milli azadlıq hərəkatı dövründə ədəbiyyat (1941-1953).– Bakı: Elm. – 1900. – s.136-194.
2. İbrahimov, M. Ümid və kədər poeziyası. // “Azərbaycan” jurnalı, № 4,–1988, – s.132-238.
3. Əmirov, S. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990-cı illər) // Bakı:.2000,257 s.
4. Cəfərov, N. Cənubi Azərbaycanda ədəbi dil: normalar, üslublar //Bakı: Elm, –1990. –128 s.
5. Çeşmazər, M. Azərbaycan Demokratik partiyasının yaranması və fəaliyyəti //Bakı: Elm,1986. s. 18.
6. “Azərbaycan” qəzeti // – 1, 14, 19 noyabr, 1 dekabr 1941(1320), № 1,12,17,30.– s.2, 3, 2.
7. Ağayeva, G. Təbriz ədəbi mühiti (1941-1946) //Bakı: Nurlar NPM, – 2000. – 168 s.
8. Tudə, Ə. Aşıq Hüseynə // “Vətən yolunda” qəzeti – 1941, 26 noyabr № 38. – s. 2.
9. İbrahimov, M. Milli azadlıq mübarizəsi və demokratik hərəkatın qızıl səhifələri // Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. III c. – Bakı: Elm, – 1988. – 552 s.
10. Azəroğlu, B. Bakı səfəri // “Vətən yolunda” qəzeti –1945, 5 iyun № 109 – s.2-3.
11. “Azəri” məcmuəsi // Tehran: –2015, № 22, – s. 44.
12. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. III c. // – Bakı: Elm, – 1988. – 552 s.
13. Şairlər məclisi. // Təbriz: – 1945, № 3-4. – 424 s.
14. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası // II c. – Bakı: Elm, –1983. – 580 s.
15. Biriya, M. Əsərləri // Bakı: Elm,” – 2010. – 356 s.


**Rəyçi: f.f.d., dos. Zeynəddin Şabanov**

**УДК 101.1**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1054**

# МЕГАПОЛИС В ЭПОХУ ГЛОБАЛЬНЫХ ТРАНСФОРМАЦИЙ: СОЦИОКУЛЬТУРНАЯ ОПТИКА ИССЛЕДОВАНИЯ

**Агамали Мамедов**
доктор социологических наук, профессор,
Московский государственный университет, **Россия**
e-mail: akmnauka@yandex.ru
orcid 0000-0002-2607-7546
**Ариз Гезалов**
кандидат философских наук,
институт социологии Федерального научно-исследовательского социологического центра Российской академии наук (ИС ФНИСЦ РАН), **Россия**
arizkam@mail.ru
ORCID: 0000-0002-5712-8465

**Резюме.** Будучи крупным объединением людей, город является особым социокультурным пространством, в котором продуцируются и актуализируются новые стратегии человеческого поведения, включая их ориентир на новые обычаи, традиции, ценности и законы. Город является проявлением «цивилизации» в смысле его этимологического значения. Мегаполис, как наиболее большой «привлекательный» город, является ярким примером, в котором актуализируются современные социально-культурные проблемы в эпоху глобальных перемен.

**Ключевые слова:** социология, город, трансформация, общества, дуальность, мегаполис, культурная диффузия, миграционный поток, текст, ценности.

## QLOBAL TRANSFORMASİYALAR DÖVRÜNDƏ MEQAPOLİS: TƏDQİQATIN SOSİO-MƏDƏNİ OPTİKASI

**Ağamalı Məmmədov**
**Ariz Gözəlov**

**Xülasə.** Şəhər insanların böyük toplaşma məkanı kimi, yeni insan davranış strategiyalarının formalaşdığı və aktuallaşdığı xüsusi bir sosial-mədəni məkandır. Bu strategiyalar yeni adət-ənənələrə, dəyərlərə və qanunlara yönəlməni də özündə ehtiva edir. Şəhər etimoloji mənada “sivilizasiyanın” təzahürüdür. Ən böyük “cəlbedici” şəhər kimi, meqapolis qlobal dəyişikliklər dövründə müasir sosial-mədəni problemlərin aktuallaşdığı əsas nümunələrdən biridir.

**Açar sözlər:** sosiologiya, şəhər, transformasiya, cəmiyyət, dualizm, meqapolis, mədəni diffuziya, miqrasiya axını, mətn, dəyərlər.

## MEGALOPOLIS IN THE ERA OF GLOBAL TRANSFORMATIONS: SOCIO-CULTURAL OPTICS OF RESEARCH

**Agamali Mamedov**
**Ariz Gezalov**

**Abstract.** As a large gathering of people, the city is a special socio-cultural space where new strategies of human behavior are produced and formed, including evolving customs, traditions, values, and norms. The city can be seen a manifestation of civilization in its broader conceptual sense. As the largest «attractive» city, the metropolis is a prime example where modern socio-cultural issues are manifested in an era of global change.

**Keywords**: sociology, city, transformation, society, duality, metropolis, cultural diffusion, migration, values.

Мегаполис является центром во всех аспектах, специальной пространственной системой, занимающей ключевое место как в национальной экономике, так в мировой системе [1,2]. В связи с этим, мегаполис является крупнейшим «хабом» коммуникации как за счёт концентрации широкой аудитории, так и инфраструктурных возможностей. Понятие «megacity» было упомянуто в 70-х гг. в докладах ООН после чего стало популярным по всему миру в количественных мерах, которые были утверждены ООН (город с населением более 10 млн. человек [3]). Также мегаполис можно определить, как большого размера географическую зону, которая характеризуется соединением нескольких городов в одно пространство, имеющее один или несколько центров притяжения [4], в отличии от простого города является более сложной системой социальных институтов, он становится сосредоточением различных социальных групп с особыми социальными и культурными особенностями, коммуникация между которыми приводит к диффузии культур.

В целом проблема городского пространства исследовалась всегда социологией. Так, К.Маркс и Ф.Энгельс понимали под городом концентрацию орудий производства, населения, капитала, потребностей. В этом смысле города противопоставлялись деревням, в смысле желания у людей «преумножить средства производства и средства защиты» [5]. В работах указанных классиков на первый план выходит экономическая составляющая, а также изучение города преимущественно под призмой развития производительных сил и классовых конфликтов [6].

Немецкий социолог Г.Зиммель актуализировал разность не только между городом и деревней, но и между масштабом городов – большие и малые города [7]. По мнению мыслителя, большой город является пространством с большей свободой. Однако, такого рода «свобода», с одной стороны, является результатом многогранности большого города и большого количества разных людей, с другой стороны, вытекающей из первого довода, безразличности и взаимной замкнутости. Проблема одиночества, фланерства, духовной отдаленности – неизменные атрибуты большого города. Используя терминологию, возникает «бесчувственно-равнодушный человек», который в своей урбанистической креации формирует новое культурное приспособление – бесчувственное равнодушие к окружающим вещам, обесценивая их. Поэтому в большом городе «человек создает себе средство самозащиты», которое возникает от ощущения перегруженности разнообразными стимулами (внутренними и внешними впечатлениями) [7, с.2]. Более того, большой город развивает внутри себя принципиально иные формы социализации, сущность которой состоит в ориентире на социум в целом, имея цель развить свою индивидуальность. Такого рода разобщенность общества в больших городах служит распространению большей свободы. В понимании М.Вебера город рассматривается, как населенный пункт, в котором отсутствуют тесные связи между соседями в следствии плотной застройки и жизни [8]. В его теоретических посылах в процессе формирования городов аккумулировались различные социальные, исторические, культурные микропроцессы, которые и сформировали город, как социокультурный комплекс.

Считая, что город является результатом преобразования мира человеком, американский социолог Р.Парк констатирует необходимость постоянной адаптации к городу [9]. Большие города, в его представлении, являются локальными центрами мировой экономики, культуры и цивилизации, смешиваясь между собой претерпевают риск исчезновения. Как и Зиммель, Парк рассматривает большой город, как большую лабораторию изучения социальных процессов, где характеризуются наиболее сильные социальные изменения социальной среды, в ходе которых происходит переход к механизированному миру [10]. Можно сказать, что новая форма бытия (отличная от прежнего, деревенского) создает физическую и институциональную структуру, регламентирующую правила жизни в большом городе. В этом смысле, сравнивания с Зиммелем, большой город не столько привносит большую свободу человеку, сколько является средством для постоянного приспособления к окружающей среде, действуя по определенным «городским» правилам.

Так, идея особого образа жизни, формируемого большим городом, развивается в творчестве Л.Вирта [11], где город является концентратом социально-гетерогенных индивидов, поведение которых является урбанизмом. Будучи социокультурным пространством, большой

город расширяет пространственные границы, становясь экономическим, политическим, культурным центром, вовлекающим в себя различные сообщества со всего мира [11, с. 93-94]. Иными словами, город понимается не только как пространство для проживания, но и как центр общественной жизни.

Говоря о жизни частной, Вирт подчеркивает с одной стороны ее анонимность, поверхностность, мимолетность, а с другой – свободу и полезность (социальные связи исходя из полезности индивида) [11, с.106]. Данные аспекты и создают основу особого образа жизни в городе, которое понимается Виртом с трех сторон. Во-первых, образ жизни, как физическая структура, которая включает в себя технологию, экологический порядок. Во-вторых, как система социальной организации, имеющая характерную для нее систему социальных институтов и набор социальных практик. В-третьих, образ жизни в городе понимается, как набор установок и идей, созданных на основе коллективного поведения и социального контроля [11, с.112].

Схожим мнением, в смысле рационализации взаимодействий внутри города, является определение города Ф.Тённисом, который актуализирует «ассоциативный» тип сообщества, образованный большим городом. Так, социальное взаимодействие и, связанный с ним, социальный обмен становится рационализированным, безличным и отстраненным [12].

Символическую сторону социального взаимодействия в городе актуализирует П.Бурдьё, рассматривающий город, как систематизированное пересечение связей. Так, социально-культурное пространство в городе понимается через понимание слияния различных стилей жизни в единое символическое пространство жизненных стилей и статусных групп [12].

Помимо особого символического пространства, формируемое на основе дифференциации статусных и культурных групп, город характеризуется развитым разделением труда, что сопутствует высокой дифференциации социальной структуры. В понимании П.Бергера и Т.Лукмана город является пространством, сконструированным действиями групп людей [13].

В общем виде различные трактовки города представлены в таблице 1 (см. табл.1)

| Автор | Понятие |
|---|---|
| К.Маркс и Ф.Энгельс | Город, как концентрация орудий производства, населения, капитала, потребностей. Изучение города преимущественно под призмой развития производительных сил и классовых конфликтов. |
| Г.Зиммель | В большом городе «человек создает себе средство самозащиты», которое возникает от ощущения перегруженности разнообразными стимулами (внутренними и внешними впечатлениями). Мысль о достижении свободы в следствии разобщенности. |
| М.Вебер | Город рассматривается, как населенный пункт, в котором отсутствуют тесные связи между соседями в следствии плотной застройки и жизни. |
| Р.Парк | Большие города являются локальными центрами мировой экономики, культуры и цивилизации, смешиваясь между собой, которые претерпевают риск исчезновения. |
| Л.Вирт | Город является концентратом социально-гетерогенных индивидов, поведение которых является урбанизмом. Город – как центр общественной жизни. |
| П.Бурдье | Город как систематизированное пересечение связей. В городе формируется особое символическое пространство. |
| П.Бергер и Т.Лукман | Город является пространством, сконструированным действиями групп людей. |

*Таблица 1. Разнообразие трактовок города и большого города [14]*

Таким образом, большой город представляет собой особое социально-культурное пространство, сконструированное на основе рационального обмена между разными социальными группами, фланерами, характеризуемое символическим пространством, формирующее новые социальные практики, в особенности обезличенность и отстраненность.

Как пишут Р.Коэн и П.Кеннеди, большие города можно разделить на четыре группы [15]. Во-первых, древние города (Багдад, Каир, Афины, Рим и другие). К такому типу относятся города, которые связаны с «великими цивилизациями» в истории. Указанные города существовали до образования национальных государств, выполняя все функции. Будучи административным, военным, экономическим центром, древние города рассматривались в основном, как единое государство.

Во-вторых, колониальные города, например, Мумбаи, Лагос, Сан-Паулу, Йоханнесбург. Данные города образовывались в ходе колониальной экспансии более сильных государств. Проще говоря, центр города является наиболее богатым местом, включая деловые кварталы, тогда как периферия города заполнена трущобами и нищетой. Более того, такие города, в условиях колонизации некоей местной культуры, формировались в процессе слияния разных (чаще всего противоположных) культур, создавая уникальное социально-культурное пространство.

В-третьих, индустриальные города, которые являются центрами промышленной и торговой деятельности. Преимущественно, данный тип городов формировался в эпоху модерна при создании системы национального государства. Стоит отметить, что диффузия культур в данном случае осуществлялась за счет притяжения данными городами большого числа мигрантов. Примерами индустриальных городов являются Торонто, Чикаго, Сидней и др.

В-четвертых, глобальные города, например, Лондон, Нью-Йорк, Берлин, Париж и др. Как пишет Дж. Фридман, основными атрибутами глобальных городов – это интеграция городов в глобальную экономику, процесс который влияет на производственную форму города, а также на природу рынка; некоторые глобальные города являются местом хранилища мирового капитала (например, Цюрих); высокая интенсивность миграционных процессов (как внутренних, так и из других стран); существует высокая пространственная и классовая поляризация, а также глобальными городами осуществляются различные функции контроля [16]. Так, глобальные города являются площадками, концентрирующие и накапливающие капитал, реализующие определенные контрольные функции в мире и играющие большую роль в осуществлении мирового порядка, например, в распределении мировых производственных сил. Более того, глобальные города являются: центрами притока капитала и инвестиций (чаще всего долгосрочных) и международных и внутренних мигрантов; связующими транспортными хабами; концентратом информации и культуры, а также производственных сил.

Agentliyinin büdcəsi 27 milyard ABŞ dolları olub. USAID-lə bərabər, indi Soros Fondu xətti ilə edilən maliyyə yardımlarının da qarşısı alınıb. Bu qurumlar tərəfindən ölkəmizə qarşı aparılan təbliğat və ayrı-seçkilik siyasəti, onların ermənipərəst mövqeyi xüsusi qeyd olunmalıdır. Samanta Pauerin rəhbərlik etdiyi USAID təşkilatı həm Qarabağ müharibəsi, həm də ondan sonra Azərbaycana qarşı fəaliyyəti və erməniləri himayə etməsi ilə yadda qalıb. 1988-ci ildə Ermənistandan zorla çıxarılmış 300 minə yaxın azərbaycanlının hüquqları barədə bir kəlmə söz deməyən USAID direktoru 2020-ci ildən sonra Qarabağı könüllü tərk etmiş ermənilərin halına acıyaraq onlara külli miqdarda maliyyə yardımı edilməsini dəstəkləyib. Pauer Qarabağdan gedən ermənilərin sayını şişirdərək onların 100 mindən çox olduğunu bildirməklə bərabər, ABŞ-nin 2020-ci ildən indiyədək həmin şəxslər üçün 28 milyon dollar humanitar yardım ayırdığını deyib. Xatırladaq ki, Qarabağı tərk etmiş ermənilərin sayı 30 minə yaxın idi. Azərbaycan hökuməti onları cəmiyyətimizə inteqrasiya etməyə, hüquqlarının tam təmin olunacağına çağırış etsə də rəsmi İrəvan və erməni lobbisinin təbliğatı nəticəsində onlar Qarabağdan köçdülər. Ölkəmizin KİV-ləri bu çağırışları hətta erməni dilində hər gün dəfələrlə səsləndirir, saxta erməni təbliğatına uymamağı tövsiyə edirdi. Onu da deyək ki, ermənilər Azərbaycanın göndərdiyi humanitar yükləri qəbul etmir, azərbaycanlılarla birgə yaşaya bilməyəcəkləri görüntüsünü yaradırdılar. Bununla belə, Qarabağda qalıb yaşayanlar ermənilər də oldu və Azərbaycan onlarla öz vətəndaşları kimi davrandı.

Kibertəhlükələrə qarşı mübarizə və yeni texnologiyaların zərərli təsirlərindən qorunmaq məqsədilə müvafiq tədbirlərin görülməsi ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası”nı təsdiq edib. Ölkə başçısının müvafiq sərəncamına əsasən, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət strukturlarında süni intellektin tətbiq olunduğu sahələrdə informasiya təhlükəsi risklərini təhlil etməli, eləcə də lazımi tədbirlər görməlidir. Bununla əlaqədar görülən işlərin monitorinqi və fəaliyyətin qiymətləndirilməsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən aparılmalıdır.

Süni intellektlə bağlı məsələlərə 2025-ci il martın 13-ü və 14-də XII Qlobal Bakı Forumu çərçivəsində keçirilən “Yeni dünya üçün yeni texnologiyalar” mövzusunda keçirilən panel iclasda da toxunulub. Bununla əlaqədar müzakirələrdə çıxış edən Yunanıstanın sabiq baş naziri Corc Papandreu deyib ki, “süni zəka cəmiyyət tərəfindən idarə olunmalıdır. Aydındır ki, o, müəyyən dairələrin əlindədir”. Onun sözlərinə görə, texnologiya təhsil, iqlim dəyişikliyi kimi problemlər üçün yox, kütləvi qırğın silahlarının hazırlanması üçün daha çox istifadə olunur” [7].

Ölkə başçısının Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası haqqında sərəncamının tələblərinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti Süni intellekt strategiyası üzrə Layihə İdarəetmə Modulu yaradılması barədə qərar qəbul edib. Strategiya ilə əlaqədar görülən işlər, onların monitorinqi və qiymətləndirilməsi bu modul üzrə həyata keçirilməli, hesabatlılıq təmin olunmalıdır. Azərbaycan Milli Elmlər Akademiyası da bu strategiya ilə bağlı tədbirlər planı hazırlayıb. Məqsəd ölkəmizdə süni intellektin inkişafını sürət-lən-dirmək, bununla bağlı tədqiqatlar aparmaq, süni intellektin idarə olunması mexanizmini tək-milləşdirmək, mümkün riskləri aradan qaldırmaq və bu sahədə mütəxəssislərin hazırlığını təmin etmək, eləcə də milli maraqların qorunması yönündə lazımi addımların atılmasıdır.

**Nəticə**

21-ci əsrin informasiya və texnologiyalar əsri olması ayrı-ayrı dövlətlərdə və dünyada siyasi və hərbi sahələrdə daha çevik mexanizmlərin tətbiqi zərurətini yaradır. Məlumdur ki, yeni texnologiyalardan istifadə həm də bu sahədə risklərlə üzləşmək deməkdir. Dövlət və cəmiyyət informasiya ilə idarə olunur, onun hər bir sahəsinə informasiya nüfuz edir. Qloballaşan, həm də hazırda daha çox qütbləşən dünyada isə hərbi, siyasi və iqtisadi qarşıdurma halları özünü daha çox büruzə verir. Belə bir vəziyyətdə bəzi ölkələr arasında həm aşkar, həm də gizli şəkildə informasiya müharibəsi də aparılır. Məqsəd qarşı tərəfin siyasi və iqtisadi dayaqlarını laxlatmaq, ona həm maddi, həm də mənəvi ziyan vurmaqdır. Casus şəbəkələrindən istifadə, kiberhücumların təşkili, psixoloji təzyiq də bu yöndə istifadə olunan təsir üsulları sırasındadır. “İnformasiya müharibəsi və təhlükəsizlik problemi” mövzusunda aparılan bu araşdırmada hazırki münaqişə ocaqları, informasiya müharibələri, onları yaradan səbəblər tədqiq olunur.

**İstifadə olunmuş ədəbiyyat**

1. Абдуллаева Р.А. Информационная война: прощлое и настояшее // Международный журнал прикладных и фундаментальных исследований. 2016. № 12-3. С. 544-548; URL: https://applied-research.ru/ru/article/view?id=10880

2.Əliquliyev R.M., İmamverdiyev Y.N. E-dövlətin informasiya təhlükəsizliyi: aktual tədqiqat istiqamətləri, İnformasiya Cəmiyyəti. Problemləri, № 1, s. 3

3.İnformasiya müharibəsi: Saxta xəbərlərin təsiri və mübarizə yolları. https://azertag.az/xeber/ - 2960233

4.Kissinger Henry. Dünya nizamı. Bakı, “Qanun” nəşriyyatı. 2019,

5.Rüstəmova A. Müasir şəraitdə informasiya müharibəsinin xarakteri və spesifik xüsusiyyətləri. https://philosophy.edu.az/index.php?newsid=1251

6.Şimali Makedoniya prezidenti: BMT qütbləşən bir quruma cevrilir.https://www.azerbaijan-news.az/az/posts/detail/-1741864063/355047

7.Yunanıstanın sabiq baş naziri: Texnologiyalar bəşəriyyətə xidmət etməlidir. https://azertag.az/xeber/3464387

**Rəyçi: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Zeynəddin Şabanov**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1074**

# CƏNUBİ QAFQAZIN HİDRORESURSLARI YAŞIL ENERJİNİN STRATEJİ ƏHƏMİYYƏTİ KİMİ

**Yeganə Baxşıyeva**
böyük elmi işçi, s.e.ü.f.d.
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
e-mail: ybakhshiyeva@mail.com
orcid*:* 0000-0001-7922-5955

**Xülasə.** XXI əsrdə enerji təhlükəsizliyi və dayanıqlı inkişaf qlobal siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Enerji resurslarının müxtəlifliyi, bərpaolunan mənbələrə keçid və regionlararası əməkdaşlıq dünya ölkələrinin qarşısında duran mühüm məsələlərdəndir. Bu kontekstdə zəngin hidroenerji potensialına malik Cənubi Qafqaz dövlətləri – Azərbaycan, Gürcüstan və Ermənistan – həm regional, həm də beynəlxalq enerji sistemlərinə inteqrasiya prosesində mühüm rol oynayır. Regionun su ehtiyatları yalnız daxili enerji tələbatını ödəmək üçün deyil, həm də enerji ixracı və ekoloji tarazlığın qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Cənubi Qafqazda yaşıl enerjinin alınmasında hidroresursların ekoloji və iqtisadi üstünlükləri daha böyük regional inkişafa yol açır.

Belə ki, Cənubi Qafqazda hidrotəhlükəsizlik və yaşıl enerji (xüsusilə bərpa olunan enerji mənbələri) məsələlərinin bir-biri ilə əlaqələndirilməsi nəticəsində ekologiyanın stabilliyi, regionun enerji təhlükəsizliyi, ekoloji dayanıqlılığı yüksəlir. Eləcə də regionda artan enerji tələbatı və bərpa olunan enerji üzrə qlobal tendensiyalar fonunda hidroresurslardan istifadənin iqtisadi və ekoloji baxımdan araşdırılması vacib məsələlərdən birinə çevrilir.

**Açar sözlər:** yaşıl enerji, hidroresurslar, regional əməkdaşlıq, Kür-Araz çayları, təhlükəsizlik.

# HYDRORESOURCES OF THE SOUTH CAUCASUS AS A STRATEGIC IMPORTANCE OF GREEN ENERGY

**Yegana Bakhshiyeva**

**Abstract.** In the 21st century, energy security and sustainable development have become one of the priority areas of global policy. Diversity of energy resources, transition to renewable sources, and interregional cooperation are among the important issues facing countries around the world. In this context, the South Caucasus countries – Azerbaijan, Georgia, and Armenia – with their rich hydropower potential play an important role in the process of integration into both regional and international energy systems. The region's water resources are of particular importance not only for meet domestic energy needs, as well as to support energy exports and maintain ecological balance. The environmental and economic advantages of generating green energy from hydropower resources in the South Caucasus pave the way for enhanced regional development.

Thus, as a result of integrating hydrosecurity and green energy issues (particularly renewable energy sources) in the South Caucasus, ecological stability, regional energy security and environmental sustainability are being strengthened. In the context of growing energy demand in the region and global trends in renewable energy, the analysis of hydropower utilization from economic and environmental perspectives is one of the key priorities.

**Keywords:** green energy, hydro resources, regional cooperation, Kura-Araz rivers, security.

# ГИДРОРЕСУРСЫ ЮЖНОГО КАВКАЗА КАК СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ ЗЕЛЕНОЙ ЭНЕРГЕТИКИ

**Егяна Бахшиева**

**Резюме.** В XXI веке энергетическая безопасность и устойчивое развитие стали одними из приоритетных направлений мировой политики. Диверсификация энергетических ресурсов,

переход на возобновляемые источники энергии и межрегиональное сотрудничество входят в число важных задач, с которыми сталкиваются страны по всему миру. В данном контексте страны Южного Кавказа – Азербайджан, Грузия и Армения – благодаря своему богатому гидроэнергетическому потенциалу играют важную роль в процессе интеграции как в региональные, так и в международные энергетические системы. Водные ресурсы региона имеют особое значение не только для удовлетворения внутренних энергетических потребностей, но и для экспорта электроэнергии, а также для поддержания экологического равновесия. Экологические и экономические преимущества производства зеленой энергии на основе гидроресурсов на Южном Кавказе открывают возможности для более устойчивого регионального развития.

Таким образом, эффективное использование гидроресурсов и развитие зеленой энергетики (в частности возобновляемых источников энергии) на Южном Кавказе повышает экологическую стабильность, энергетическую безопасность региона и экологическую устойчивость. Кроме того, на фоне растущего спроса на энергию в регионе и мировых тенденций развития в области возобновляемой энергетики, изучение возможностей использования гидроресурсов с экономической и экологической точек зрения становится одним из наиболее актуальных вопросов.

**Ключевые слова:** зеленая энергетика, гидроресурсы, региональное сотрудничество, реки Кура-Араз, энергетическая безопасность

## Giriş

Cənubi Qafqaz regionu strateji-coğrafi mövqeyi, zəngin təbii sərvətləri və mürəkkəb siyasi münasibətləri ilə beynəlxalq münasibətlər sistemində xüsusi yer tutur. Regionun ən aktual problemlərindən biri isə su ehtiyatlarının ədalətli bölüşdürülməsi və idarə edilməsidir. İqlim dəyişikliyi, su resurslarının azalması, artan əhali və iqtisadi inkişaf tələbləri su məsələsini təkcə ekoloji və iqtisadi deyil, həm də siyasi və təhlükəsizlik müstəvisinə çıxarmışdır. Bu baxımdan “hidrosiyasət” anlayışı Cənubi Qafqaz ölkələri – Azərbaycan, Gürcüstan və Ermənistan üçün mühüm əhəmiyyət daşıyır.

Cənubi Qafqaz regionu su ehtiyatları baxımından zəngin olmaqla yanaşı, alternativ enerji mənbələrinin inkişafı üçün də əlverişli təbii, coğrafi şəraitə malikdir. Bu xüsusda hidrosiyasətin yaşıl enerjinin əsas istiqamətlərindən biri kimi araşdırılması vacib mövzulardandır. Belə ki, hidroresursların potensialı baxımından regionda Kür və Araz çayları, dağ çayları və su anbarları hidroenerji üçün böyük potensial təqdim edir. Bu amil regionun hidrosiyasətində nəinki regional, eləcə də beynəlxalq əməkdaşlığa geniş imkanlar yaradır.

## Cənubi Qafqaz regionunun hidroloji potensialı

Hidroenergetika bərpaolunan enerji mənbəyi kimi üstünlüklərə malik olsa da, irimiqyaslı hidrotexniki qurğular ekosistemlərə və yerli icmalara müəyyən təsirlər göstərir. Bu səbəbdən beynəlxalq təcrübə əsasında ətraf mühitə təsirin qiymətləndirilməsi və sosial məsuliyyət prinsiplərinin tətbiqi region dövlətlərinin prioritetlərindən biridir. Xüsusən də, transsərhəd çayların istifadəsi sahəsində beynəlxalq hüquqi mexanizmlərə riayət olunması regional sabitlik üçün mühüm əhəmiyyət daşıyır.

Çünki hidroenerji əldə edilərkən təbii proseslər – su dövranı zamanı ətraf mühitə istixana qazları və digər zərərli emissiyalar çıxarmır. Fosil yanacaqlardan fərqli olaraq, karbon izini azaldaraq hidroelektrik stansiyalar karbon emissiyalarını minimuma endirir. Bu da iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayır, hava və su çirklənməsinin qarşısını alır. Eləcə də hidroenerji istehsalında sənaye tullantıları və zəhərli qazlar yaranmadığı üçün ətraf mühitin çirklənməsi riski daha azdır.

Cənubi Qafqaz dövlətlərinin hidroenerji potensialından istifadə təkcə milli enerji təhlükəsizliyi deyil, həm də beynəlxalq əməkdaşlıq baxımından strateji əhəmiyyət daşıyır. Region dövlətləri hidroenergetikanın inkişafı sahəsində yalnız enerji təminatını möhkəmləndirməklə kifayətlənmir, həm də beynəlxalq enerji əməkdaşlığına, ekoloji təhlükəsizliyə və iqlim dəyişmələri ilə mübarizəyə töhfə verir. Azərbaycan, Gürcüstan və Ermənistanın bu istiqamətdə həyata keçirdiyi layihələr regionun enerji

xəritəsində yeni imkanlar açmaqla yanaşı, qlobal enerji transformasiyasına da mühüm dəstək göstərir (1, s.58-68).

Gürcüstan zəngin su ehtiyatlarına və dağlıq relyefə malik olması ilə Cənubi Qafqazın hidroenerji potensialı yüksək olan ölkələrindən biridir. Hidroenerji həm daxili enerji təminatında, həm də ixrac potensialında mühüm rol oynayır. Su ehtiyatlarının iqtisadi cəhətdən səmərəli istifadəsi ölkəni elektrik ixracatçısına çevirmişdir. Belə ki, ölkədə fəaliyyət göstərən 26 böyük HES ümumi enerji tələbatının 80%-ə qədərini ödəyir (2).

Ermənistan coğrafiyası dağlıq relyefə və zəngin çay şəbəkəsinə malik olmaqla yanaşı enerji resursları baxımından məhdud ölkələrdən biridir. Neft və qaz kimi təbii yanacaq ehtiyatlarının olmaması ölkəni idxaldan asılı vəziyyətə salıb. Bununla belə, Ermənistanın hidroenerji potensialı enerji siyasətində aparıcı sahədir. Hidroenerji həm ekoloji baxımdan təmiz enerji mənbəyi sayılır, həm də ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynayır. Ümumilikdə ölkənin hidroenerji resurslarının illik texniki potensialı 3 milyard kVt-saata qədər qiymətləndirilir. Bu, Ermənistanın illik elektrik enerjisi istehsalının təxminən 30-35 faizini təmin edir (3, s.118-124).

Azərbaycanın enerji balansında neft və qaz resursları uzun müddət aparıcı mövqe tutsa da, qlobal miqyasda alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı artıq strateji zərurətə çevrilmişdir. Bu kontekstdə hidroenerji ölkənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, ekoloji davamlılığın təmin edilməsi və regionda geosiyasi rolunun gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə Kiçik Qafqaz, Böyük Qafqaz və Naxçıvan Muxtar Respublikası ərazisində çayların su potensialı Azərbaycanın hidroenerji resurslarının əsas bazasını formalaşdırır (5, s.109-115).

Azərbaycanda hidroenergetika ümumi enerji balansında nisbətən kiçik paya malik olsa da, ölkə 2030-cu ilə qədər bərpaolunan enerji istehsalının artırılmasını strateji hədəf kimi müəyyən edib. Xüsusilə kiçik su elektrik stansiyaları kənd təsərrüfatı və sənaye bölgələrində enerji təminatının diversifikasiyasına xidmət edir. Eləcə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni hidroenerji layihələrinin həyata keçirilməsi bu istiqamətdə mühüm mərhələ açıb.

**Region dövlətlərinin hidrosiyasəti beynəlxalq əməkdaşlığa töhfədir**

Azərbaycan, Gürcüstan və Türkiyə arasında enerji layihələri çərçivəsində hidroenerji də daxil olmaqla, bərpaolunan mənbələrin elektrik şəbəkələri vasitəsilə ötürülməsi nəzərdə tutulur. Xüsusilə, Azərbaycan və Gürcüstanın hidroenerji ixracı bu prosesin əsasını təşkil edir. Təsadüfi deyil ki, 2022-ci ildə Qara dənizin yaşıl enerjinin tranzit bölgəsinə çevrilməsilə bağlı region dövlətləri mühüm sənəd imzaladılar. Baxmayaraq ki, Azərbaycan ilə Gürcüstan enerji istehsalı və ixracı ilə bağlı müxtəlif mövqelərə sahib ölkələrdir, lakin bu layihə, heç şübhəsiz, region ölkələrinin enerji diversifikasiyasını və alternativ mənbələrə keçidini sürətləndirməyə zəmin yaradır (11).

Həmçinin region dövlətləri investisiya və texnologiya transferi məsələlərində nəzərəçarpan inkişaf yolu keçərək Avropa İttifaqının “Yaşıl enerji gündəliyi” ilə uyğun istiqamətdə fəaliyyət göstərir. Gürcüstan və Azərbaycan Avropanın enerji bazarına inteqrasiya prosesində hidroenerji layihələrinə xüsusi diqqət yetirməkdədir. Dünya Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə institutları regionda hidroenergetika layihələrinin maliyyələşdirilməsində fəal iştirak edir. Bu isə texnologiya mübadiləsi və ekoloji standartların yüksəldilməsi baxımından əhəmiyyətlidir (7).

Regionda hidroresursların yaşıl enerjiyə verdiyi töhfə iqtisadi üstünlüklərə böyük imkanlar yaradır. Baxmayaraq ki, başlanğıcda hidroelektrik stansiyaların tikintisi yüksək kapital qoyuluşu tələb edir, lakin onların istismar xərcləri azdır və uzunömürlüdür (30–100 il və ya daha çox). Daha bir üstünlüyü isə enerji asılılığını az olması və idxal olunan fosil yanacaqlara ehtiyacın azalması ölkənin enerji təhlükəsizliyini artırır.

Bütün bunlarla yanaşı, tədqiqat mövzusunda problematik məqamları da qeyd etmək lazımdır. Bunlar maliyyə və texnoloji çatışmazlıqlar, bəzən isə siyasi risklər və onların yaratdığı fəsadlardır. Çünki regionda əhalinin və kənd təsərrüfatının suya tələbatının artması su təzyiqlərini artıraraq sosial təhlükə yaradıb. Bu amil həmçinin köhnə və təhlükəli infrastrukturların olması ilə də bağlıdır. SSRİ dövründən qalan su infrastrukturunun, bəndlərin və su elektrik stansiyalarının köhnəlməsi texnogen fəlakətlərə səbəb ola bilər. Məsələn, Ermənistanın Metsamor AES-i və bəzi bəndlərin seysmik zonada yerləşməsi region əhalisi üçün əlavə risk yaradır (9).

Eləcə də Cənubi Qafqazda bərpa olunan enerji potensialının bərabər paylanmaması bu sahədə böyük çətinliklər yaradır. Gürcüstan daha çox hidroenerji potensialına, Azərbaycan isə günəş və külək potensialına daha çox malikdir. Bu amil onu deməyə əsas verir ki, dövlətlər arasında ortaq koordinasiya mexanizmləri qurulmazsa, bu fərqlər regional enerji əməkdaşlığını çətinləşdirə bilər (13, s.25-46).

Eyni zamanda Ermənistanın Azərbaycanın tarixi Qarabağ bölgəsini 30 il ərzində işğalda saxlaması regional su siyasətində əməkdaşlığı ciddi məhdudlaşdırmışdır. Su obyektlərinin bir qismi işğal və ya nəzarət mübahisələri fonunda istifadə edilirdi ki, bu da suyun siyasi təsir alətinə çevrilməsinə gətirib çıxarmışdı. Baxmayaraq ki, hazırda iki ölkə arasında konstruktiv münasibətlərin qurulmasına təşəbbüs göstərilir, lakin bu sahədə bir sıra problemlər hələ də qalmaqdadır (12).

Tədqiqatda regional əməkdaşlıq mexanizmlərinin zəiflikləri öyrənilən məsələlərdəndir. Regionun hidrosiyasətinə geostrateji güclərin rolu təsirsiz ötüşmür. Türkiyə, Rusiya və İran regionun su resurslarının idarə olunmasına dolayı təsir göstərirlər. Bu təsir bir tərəfdən texniki və iqtisadi dəstək imkanları yaratsa da, digər tərəfdən regional dövlətlər arasında birgə mexanizmlərin formalaşmasına mane olur (7).

Bu sahədə region dövlətləri arasında institusional boşluq – Cənubi Qafqazda ortaq su idarəçiliyi üçün daimi, hüquqi əsaslı və inklüziv regional təşkilat mövcud deyil. Əsasən ikitərəfli sazişlər çərçivəsində məhdud əməkdaşlıq həyata keçirilir. Digər bir amil hüquqi mexanizmlərin yetərsizliyi ilə bağlıdır. Belə ki, transsərhəd su ehtiyatlarının istifadəsi üzrə BMT Konvensiyası (1992, 1997) və digər beynəlxalq sənədlər mövcud olsa da, region ölkələrindən yalnız Azərbaycan dövləti sözügedən sənədə qoşulmuşdur. Ermənistan və Gürcüstan isə qoşulmamışlar ki, bu da sənədin beynəlxalq mexanizmlərini və onların tətbiqini gecikdirir (4, s.24-58).

Cənubi Qafqaz dövlətlərinin hidrosiyasəti regional əməkdaşlıq üçün həm imkan, həm də risk mənbəyidir. Su və enerji resurslarının idarəsi üzrə ortaq mexanizmlərin olmaması koordinasiyasızlığa və resurs israfına səbəb olur. Yaşıl enerjiyə keçid üçün böyük investisiya, texnologiya və bacarıq tələb olunur ki, bu da daha çox Ermənistan üçün çətindir. Su ehtiyatlarının qeyri-bərabər bölgüsü və mövcud siyasi qarşıdurmalar əməkdaşlıq mexanizmlərinin zəifliyinə səbəb olur. Problemlərin həlli yalnız etimad quruculuğu, institusional mexanizmlərin yaradılması və beynəlxalq hüquqi çərçivələrin tətbiqi ilə mümkündür. Məsələn, Azərbaycanda kiçik və orta çaylar hesabına hidroenerji potensialı nisbətən məhduddur, lakin alternativ enerji strategiyasında hidroenerji xüsusi yer tutur. Xüsusilə kiçik su elektrik stansiyalarının tikintisi və Naxçıvanın enerji müstəqilliyi üçün hidroresursların istifadəsi diqqət mərkəzindədir (10).

Sadalanan problemlərin həlli yolunda bir neçə tövsiyələr irəli sürmək mümkündür. Bunlardan birincisi regional su konsorsiumunun yaradılması ola bilər. Hansı ki, Kür-Araz hövzəsini əhatə edən daimi regional qurumun təsis olunması regionun hidrosiyasətinə böyük imkanlar açar. Su konsorsiumunun yaradılması ilə bərabər, innovativ texnologiyaları tətbiq etməklə su itkisini minimuma endirmək mümkündür.

Bundan başqa, dünya təcrübəsinə əsaslanaraq ortaq ekoloji proqramların regiona cəlb edilməsi - məsələn, Avropa İttifaqı, BMT və ya digər beynəlxalq təşkilatların dəstəyi, etimad quruculuğu mexanizmlərinin gücləndirilməsilə transsərhəd çaylarda ekoloji tarazlığın qorunması məsələsi daha məqsədəuyğundur (1, s.58-68).

Həmçinin regionun su diplomatiyasının qurulmasında üçtərəfli platforma – Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə su ehtiyatlarının idarə olunmasına dair regional platforma yaradılması müzakirə mövzularındadır. Qeyd etmək lazımdır ki, belə bir platformanın reallaşması su ehtiyatlarının monitorinqi və idarə olunmasında rəqəmsal texnologiyaların tətbiqi üzrə birgə layihələrin işlənməsinə stimul yarada bilər. Bu amil eyni zamanda iqlim dəyişikliyi ilə mübarizə və dayanıqlı inkişaf məqsədləri çərçivəsində ortaq regional strategiyanın hazırlanması deməkdir (5, s.109-115).

Tədqiqatda araşdırılması vacib məsələlərdən biri də iqlim risklərinin qiymətləndirilməsidir. Bu gün qlobal iqlim dəyişmələri problemi hidrotəhlükəsizlik və enerji siyasətinin mərkəzində dayanır. İqlim dəyişmələri Cənubi Qafqaz regionunda ekosistemlər, sosial-iqtisadi sabitlik və enerji təhlükəsizliyi üçün ciddi çağırışlar doğurur. Regionun mürəkkəb oroqrafiyası, zəngin, lakin qeyri-bərabər paylanmış su ehtiyatları və yüksək enerji asılılığı fonunda iqlim risklərinin təsiri daha da kəskinləşir. Hidrotəhlükəsizlik və enerji siyasəti kontekstində bu risklərin qiymətləndirilməsi və uyğunlaşdırma tədbirlərinin həyata keçirilməsi milli və regional sabitlik üçün strateji əhəmiyyət daşıyır.

Birincisi, iqlim dəyişikliklərinə qarşı mübarizə çərçivəsində karbon emissiyasının azaldılması olduqca vacib məsələlərdəndir (6). Hansı ki, 2024-cü ildə Azərbaycanda keçirilən dünya miqyaslı COP-29 sammiti bu istiqamətdə böyük imkanlar yaradır. İkincisi, bu, enerji idxalından asılılığın azalmasına və enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verə bilər. Üçüncüsü, regionda yeni iş yerlərinin yaradılması və dayanıqlı inkişafın dəstəklənməsidir (8).

Hidroresurslardan əldə olunan enerjinin ixrac potensialına nəzər saldıqda regional ölkələrin bu istiqamətdə böyük perspektivlərini müşahidə etmək mümkündür. Xüsusilə, Azərbaycan və Gürcüstanda mövcud olan potensial onu deməyə əsas verir ki, əgər enerji artıqlığı yaranarsa, digər ölkələrə enerjinin ixracı maneəsiz şəkildə reallaşa bilər. Cənubi Qafqaz üçün strateji əhəmiyyəti onunla bağlıdır ki, Azərbaycan, Gürcüstan və Ermənistan dağlıq relyefə və bol çay şəbəkəsinə malikdir və bu da hidroenerji üçün ideal şərait yaradır.

Cənubi Qafqaz dövlətlərinin hidrosiyasəti ilə bağlı strateji planlaşdırma yalnız enerji təminatına deyil, həm də regional təhlükəsizlik, iqtisadi inteqrasiya və ekoloji tarazlığa xidmət etməlidir. Hidroenerjinin inkişafı regionun bərpa olunan enerji potensialının əsasını təşkil etsə də, onun səmərəli istifadəsi üçün dövlətlər arasında əməkdaşlıq, beynəlxalq dəstək və dayanıqlı idarəetmə mexanizmləri zəruridir. Gələcəkdə Cənubi Qafqazın hidrosiyasəti “enerji körpüsü” funksiyasını icra edə və Avrasiyada enerji tranzitində strateji mövqeyini möhkəmləndirə bilər.

**Nəticə**

Bu gün region dövlətlərinin enerji təhlükəsizliyi, iqtisadi inkişafı və ekoloji dayanıqlığı üçün bərpa olunan enerji mənbələrinin, xüsusilə hidroenerji resurslarının strateji planlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Su ehtiyatlarının məhdudluğu, transsərhəd çayların paylaşılması, regional münaqişələr və iqlim dəyişmələrinin təsiri hidrosiyasəti daha da mürəkkəbləşdirir. Bu kontekstdə strateji yanaşma yalnız enerji istehsalını deyil, həm də su ehtiyatlarının idarə edilməsini, ekoloji tarazlığı və regional əməkdaşlığı əhatə etməlidir. Bu risklərin ekosistemə təsiri elə bir səviyyədə baş verir ki, su ehtiyatlarının idarə olunmasında tarazlığın qorunması zərurəti meydana çıxır. Sərhədyanı su resurslarının qeyri-bərabər paylanması və transsərhəd xarakteri də bu cür regional çətinliklərdən biridir. Cənubi Qafqazda əsas çaylar (məsələn, Kür, Araz və digər qollar) transsərhəd xarakter daşıyır. Bu, ölkələr arasında su resurslarına çıxış və istifadə məsələlərində gərginlik yarada bilər. Məhz bu baxımdan Kür və Araz çaylarının istifadəsində regional əməkdaşlığın əhəmiyyəti qaçılmazdır.

Cənubi Qafqazda hidroenerji həm enerji təhlükəsizliyi, həm də bərpa olunan enerji strategiyasının əsas istiqamətlərindən biri olaraq qalır. Bu sahənin uğurlu inkişafı üçün regional əməkdaşlıq, ekoloji tarazlığın qorunması və dayanıqlı texnologiyalara sərmayə yatırılması çox vacibdir. Hidroenerji perspektivləri düzgün idarə olunduğu təqdirdə region üçün iqtisadi sabitlik və ekoloji fayda təmin edələ bilər.

**İstifadə olunmuş ədəbiyyat**

1. Alakbarov, A. (2014). *Transboundary water issues in the Southern Caucasus in the context of international law*

Global and regional hydropolitical problems in the context of international cooperation and security International Conference. Baku. (p.58-68).

2. *Azerbaijan, Georgia Make Progress Towards the Joint Sustainable Management of Kura River* (2013). http://sdg.iisd.org/news/azerbaijan-georgia-make-progress-towards-the-joint-sustainable-management-of-kura-river/.

3. *Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü: itki və tələfatlar (1988-1994). (*2016) – Bakı. -275 s).

4. *Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar.* http://files.preslib.az/projects/azdiplomacy/a4.pdf. (2672 s).

5. Bakhshiyeva, Y. (2017) *The problems of integrated management of water resources in South Caucasus* İntercultural Communications, Tbilisi. (p.109-115).

6. BEA. *Bərpa olunan enerji mənbələri 2030-cu ilə qədər elektrik enerjisi istehsal gücünün 80 faizini təşkil edəcək.* https://azertag.az/xeber/bea_berpa_olunan_enerji_menbeleri_2030_cu_ile_qeder_elektrik_enerjisi_istehsal_gucunun_80_faizini_teskil_edecek-2798920

7. *Cənubi Qafqaz və Mərkəzi Asiya Avropanın yaşıl enerji landşaftının formalaşmasında əsas tərəfdaşdırlar*
https://az.trend.az/azerbaijan/politics/4028072.html
8. COP29. (2024). *Şərqdən Qərbə “yaşıl” enerji dəhlizi*
https://xalqqazeti.az/uploads/pdf-files/120619/xalqqazeti- .pdf
9. Gezer, A., Erdem, A. *Su Stresi, Su Kıtlığı ve Su Tasarrufu Hakkında Halkın Farkındalığının Belirlenmesi: Akdeniz Üniversitesi Örnek Çalışması.* http://dacd.artvin.edu.tr/tr/download/article-file/476928 -10 s.
10. *Yaşıl enerji hədəfləri milli prioritetlər sırasındadır.*
https://xalqqazeti.az/az/iqtisadiyyat/236325-yasil-enerji-hedefleri-milliprioritetler-sirasindadir
11. *Qara dəniz sualtı kabeli layihəsi regionun enerji mənzərəsini dəyişəcək.* https://azertag.az/xeber/qara_deniz_sualti_kabeli_layihesi_regionun_enerji_menzeresini_deyisecek___ekspertlerin_serhi-3203162
12. *Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası olacaq*. (2021).
https://www.azerbaijan-news.az/posts/detail/qarabag-ve-serqi-zengezur-yasil-enerji-zonasi-olacaq-1633466251.
13. Qurbanov, A. (2018). *Hidroböhran, hidromünaqişələr və hidrostrategiya* http://elibrary.-bsu.edu.az/files/books_460/N_210.pdf

**Rəyçi: ps.f. d., dos. Südabə Hüseynova**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1076**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİNİN SOSİAL-PSİXOLOJİ ƏSASLARI VƏ MÜASİR DÖVRÜN TƏLƏBLƏRİ

**Günel Məlikli**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,
Milli Müdafiə Universitetinin professoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
https://orcid.org/0009-0000-6154-0009

**Xülasə.** Respublikamızda dövlət gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub.

**Məqsəd:** Respublikamızda dövlət gənclər siyasətinin uğurlu inkişafını təhlil etmək.

**Metodologiya:** müqayisəli təhlil və sintez üsulu.

**Elmi yenilik:** Heydər Əliyevin gənclər siyasətinin psixoloji prinsiplərinin İlham Əliyev dövründə necə davam etdirildiyi nəzərdən keçirilir. Ümummilli lider Heydər Əliyevin gənclər siyasətinin milli kimlik və kollektiv şəxsiyyət formalaşdırmasındakı rolunun psixoloji təhlili aparılır.

**Açar sözlər:** gənclər siyasəti, sosial-psixoloji məzmun, elmi infrastrukturun modernləşdirilməsi, gənclər siyasətinin psixoloji tərəfləri.

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА И ТРЕБОВАНИЯ СОВРЕМЕННОЙ ЭПОХИ

**Гюнель Меликли**

**Резюме.** Определение и успешная реализация государственной молодежной политики в нашей республике неразрывно связаны с именем Национального лидера Гейдара Алиева. Благодаря вниманию и заботе этой выдающейся личности были созданы все необходимые условия для активного участия молодежи в общественно-политической жизни страны, а также достигнуты значительные результаты в данной сфере.

**Цель исследования -** проанализировать успешное развитие государственной молодежной политики в нашей республике.

**Научная новизна** работы заключается в том, что рассматривается преемственность психологических принципов молодежной политики Гейдара Алиева, получивших дальнейшее развитие в период правления Ильхама Алиева. В работе проводится психологический анализ роли молодежной политики, инициированной Гейдаром Алиевым, в формировании национальной идентичности и коллективного сознания.

**Ключевые слова:** молодежная политика, социально-психологические основы, модернизация научной инфраструктуры, психологические аспекты молодежной политики

## SOCIO-PSYCHOLOGICAL FOUNDATION OF THE YOUTH POLICY OF THE GREAT LEADER HEYDAR ALIYEV AND THE REQUIREMENTS OF THE MODERN ERA

**Gunel Malikli**

**Abstract:** The definition and successful implementation of state youth policy in our republic are closely associated with the legacy of National Leader Heydar Aliyev. Duo to his policies and leadership, favorable conditions were created for the active participation of young people in the socio-political life of the country, and significant results were achieved in this field.

**Objective:** The objective of the article is to analyze the development of state youth policy in the republic.

**Scientific innovation:** This study examines how the psychological principles of Heydar Aliyev's youth policy were continued during the presidency of Ilham Aliyev. A psychological analysis of the role of the youth policy of the National Leader Heydar Aliyev in shaping national identity and collective identity.

**Keywords:** youth policy, socio-psychological content, modernization of the scientific infrastructure, psychological aspects of youth policy.

Bir xalqın, millətin yaşaması, inkişafı üçün ən əhəmiyyətli təməllərdən biri də ölkənin gəncləri, dövlətin gənclər siyasətidir. Cəmiyyətdə sağlam və savadlı gənclərin yetişməsi gələcək nəslin sağlam olması deməkdir. Bir sözlə, gənclər dövlətin inkişafında önəmli rol sahibidir [2]. Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir [4]. Respublikamızda dövlət gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub [5].

Azərbaycanda gənclər siyasətinin formalaşması və inkişafı təkcə institusional tədbirlər məcmusu deyil, həm də dərin sosial-psixoloji məzmun daşıyan prosesdir. Bu siyasətin Ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlanması ilk növbədə kollektiv şəxsiyyətin qurulması mexanizmi kimi çıxış edir.

Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub.

1993-cü ildən sonra yaradılan “ictimai-siyasi sabitlik və əmin-amanlıq” mühiti təkcə siyasi deyil, həm də psixoloji sabitliyin bərpası kimi qiymətləndirilə bilər. Bu, sosial narahatlığın aradan qaldırılması və kollektiv inamın bərpası prosesinə uyğun gəlir. Respublika gənclərinin forumları müxtəlif məsələləri müzakirə etmək, optimal yollar seçmək, vəzifələri götür-qoy etmək, konkretləşdirmək, dəqiqləşdirmələr aparmaq baxımından çox əhəmiyyətlidir. Amma bir fəaliyyət istiqaməti, necə deyərlər, dəyişməz olaraq qalır: həm hakimiyyət orqanları və müxtəlif təşkilatlar, həm də gənclər ölkəni inkişaf etdirmək, müstəqilliyi qorumaq və möhkəmləndirmək istiqamətində daha fəal çalışmalıdırlar. Bu baxımdan respublika gənclərinin I forumunda Ulu öndər Heydər Əliyevin dediyi sözlər son dərəcə aktualdır: “... Əmin olun ki, gənclərə qayğı, diqqət bundan sonra günbəgün, aybaay, ilbəil artacaq. Çünki siz, həqiqətən, Azərbaycanın gələcəyisiniz. Hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan vətənpərvəri Azərbaycanın gələcəyi haqqında düşünməlidir. Buna əmin ola bilərsiniz. Ancaq sizin qarşınızda çox böyük vəzifələr durur, qarşınızda böyük yol var. Yol hamar deyil; uzun yoldur, cürbəcür maneələrlə bağlı olan yoldur, o yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir. Bu, sizin vəzifənizdir və güman edirəm ki, hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır” (1 s. 315).

Göründüyü kimi, qeyd edilən istiqamətlər bütövlükdə bir kompleks, sistem təşkil edir və gənclərin həyat fəaliyyətinin ən müxtəlif aspektlərini, hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasının ən mühüm məsələlərini bir tam halında birləşdirir. Dövlət gənclər siyasəti gənclərin inkişafı üçün güclü stimul yaradır, onları təkcə bu günün yox, həm də gələcəyin problemləri barədə düşünməyə istiqamətləndirir. Bu siyasət gəncləri əhəmiyyətli dərəcədə fəallaşdırır, onların aktiv vətəndaş mövqeyinin formalaşmasına ciddi təsir göstərir [3 s.190-196].

Gənclik dövrü sosial-psixoloji varlıq kimi formalaşmaqda olan nəslin inkişafında mühüm mərhələni təşkil edir. Bu dövrdə adətən insan biososial-psixoloji varlıq kimi formalaşır, onlarda məsuliyyətli davranış formaları təşəkkül tapır. Gənclərin fəaliyyətinin psixoloji təhlili aşkar edir ki, Prezident İlham Əliyev son 23 ildə gənclərimizin hərtərəfli inkişafı üçün bütün imkanlardan istifadə edir [6].

Respublikamızda dövlət gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub. 1997-ci ildə Ulu öndər fevralın 2-ni Gənclər Günü elan etdi və həmin tarix qəlbi qurub-yaratmaq eşqi ilə döyünən hər bir Azərbaycan gəncinin Vətən qarşısında hesabat günü oldu.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də hər zaman fəaliyyətində gənclərlə iş məsələsinə çox həssaslıqla yanaşır, müstəqil Azərbaycan dövlətinin bugünü və gələcəyinin əsas sosial qüvvəsi olan müasir gəncliyin vətənpərvər ruhda yetişməsi üçün nə lazımdırsa edir.

Dövlət gənclər siyasətini prioritet istiqamət kimi diqqət mərkəzində saxlamaqla, gəncliyin cəmiyyətin inkişafında sosial təbəqəyə çevrilməsinə, sosial-iqtisadi sahələrdə uğurlar əldə etməsinə, islahatların gerçəkləşdirilməsi prosesinə qoşulmasına dəstək verir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclər hər bir xalqın xoşbəxt gələcəyə olan ümidinin rəhnidir. Gənclər cəmiyyətin dinamik, hərəkətverici, fəal hissəsi, ideyaların gələcəyə ötürülmə qüvvəsidir [7].

Müasir dövrdə həmin siyasətin davamçısı olan Prezident İlham Əliyevin fəaliyyəti başqa bir sosial-psixoloji ehtiyaca – dəyişikliklərin idarə olunmasına gönəlir. Bu, gənclərdə yeniliyə yönələn fəaliyyəti stimullaşdırmaqla yanaşı, bu yeniliyin milli kimliyə əsaslanan vətəndaşlıq psixologiyasını da formalaşdırır.

Gənclər siyasətinin tərkib hissəsi kimi göstərilən elmi infrastrukturun modernləşdirilməsi, yüksəkixtisaslı kadr hazırlığı kimi tədbirlər fərdi səviyyədə psixoloji cəhətdən mühüm bir amil olan “özünü həyata keçirmə” potensialını artırır. Müasir dövrdə gənclərin inkişafı yalnız ənənəvi elmi və sosial fəaliyyətlə məhdudlaşmır. Qlobal transformasiyalar fonunda rəqəmsallaşma, süni intellekt texnologiyaları və yaşıl iqtisadiyyat prinsipləri gənclərin fəaliyyət istiqamətlərinin əsas komponentlərindən birinə çevrilmişdir. Azərbaycan Respublikasında həyata keçirilən innovasiya siyasəti gənclərin rəqəmsal bacarıqlarının inkişafına, informasiya texnologiyalarından səmərəli istifadə etmələrinə və yeni texnoloji mühitdə rəqabət qabiliyyətli mütəxəssis kimi formalaşmalarına mühüm imkanlar yaradır. Süni intellekt texnologiyalarının tətbiqi elmi araşdırmaların keyfiyyətini artırmaqla yanaşı, gənclərin analitik düşünmə qabiliyyətinin və yaradıcı potensialının inkişafına da müsbət təsir göstərir.

Gənclərə öz bacarıqlarını inkişaf etdirə biləcəkləri, beynəlxalq məkanda öz yerini tapa biləcəkləri bir mühitin təqdim edilməsi onlarda daxili motivasiyanı və məsuliyyət hissini gücləndirir. Bu, yüksək sosial iştiraka hazır, öz gələcəyinə inanan və bunun üçün öhdəlik daşıyan bir nəslin formalaşmasına şərait yaradır. “Sağlam düşüncəli yeni nəsil” ifadəsi ilə təsvir olunan model təkcə siyasi baxışları deyil, həm də mənəvi və psixoloji cəhətdən tarazlıq axtarışını özündə əks etdirir.

Beləliklə, Azərbaycanda gənclər siyasəti gənclərin iqtisadi və sosial cəhətdən dəstəklənməsi ilə yanaşı, onların psixoloji rifahını, mənəvi dünyasını və kollektiv mənlik hissini formalaşdıran mürəkkəb sosial-psixoloji mühit kimi də çıxış edir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda formalaşdırdığı gənclər siyasətinin psixoloji tərəfləri ilk növbədə gənc nəsildə sağlam və güclü bir şəxsiyyətin, milli mənlik hissinin inkişafına yönəlmişdir. Bu yanaşma gənclər üçün etibar və inam mühiti yaradaraq, onların öz potensiallarına inamını artıran mühüm psixoloji dəstək bazası rolunu oynamışdır. "Gənclər Azərbaycanın gələcəyidir" prinsipinin təcəssümü olaraq, bu siyasət gənclərdə dərin sosial məsuliyyət hissi formalaşdıraraq, onları ölkənin taleyi üçün həssas və fəal iştirakçılara çevirmişdir. Gəncliyə daimi hörmət və dəstək göstərilməsi isə onlarda psixoloji təhlükəsizlik və cəmiyyətdə mənsubiyyət duyğusunu möhkəmləndirir. Eyni zamanda, təhsil, idman və mədəniyyətə verilən strateji prioritet gənclərin həm intellektual, həm də emosional-sosial inkişafı üçün imkanlar açır. Heydər Əliyevin özü də güclü bir şəxsiyyət və vətəndaşlıq nümunəsi kimi, gənclər üçün psixoloji cəhətdən cəlbedici olaraq onların dəyərlər sisteminin formalaşmasına əvəzolunmaz təsir göstərirdi. Dövlət səviyyəsində gəncliyə verilən bu misilsiz dəyər və diqqət, bütövlükdə bir nəslin sosial statusunu yüksəltməklə, gələcəyə ümid və inamla baxmağa şərait yaratdı. Beləliklə, Ümummilli liderin təyin etdiyi gənclər siyasəti Azərbaycan

gəncliyinin kollektiv psixologiyasında inam, yaradıcılıq, fəal vətəndaşlıq və optimist dünyagörüşü kimi əsaslı pozitiv keyfiyyətlərin mənimsənilməsinə və möhkəmlənməsinə güclü töhfə verdi.

Ölkəmizdə gənc kadrlar dövlət qulluğuna təzə enerji və innovativ baxış gətirərək, bu sistemin dinamik inkişafında hərəkətverici qüvvə rolunu oynayır. Onların fəaliyyətinin psixoloji tərəfi ilk növbədə yüksək motivasiya, öyrənməyə hazırlıq və dəyişikliklərə çevik münasibət kimi amillərlə özünü göstərir. Bu gənclər tez-tez böyük ideallarla və dəyişiklik etmək arzusu ilə işə başlayır, bu da onların peşəkar fəaliyyətində təkanverici rola malik olur. Təbiidir ki, bəzi hallarda təcrübə çatışmazlığı və qurulmuş qaydalara uyğunlaşma müəyyən problemlər yarada bilər ki, bu da müəyyən psixoloji gərginliyə səbəb ola bilər. Lakin dövlət tərəfindən düzgün dəstək varsa, bu çətinliklər gənclərin uyğunlaşma qabiliyyətini və problem həll etmə bacarıqlarını gücləndirən bir amilə çevrilir. Kollektivə inteqrasiya və nəsillərarası təcrübə mübadiləsi gənc mütəxəssisin həm sosial, həm də peşəkar kimliyinin formalaşmasına kömək edir. Məsuliyyətli vəzifələrə cəlb olunma onlara əhəmiyyətli psixoloji motivasiya verir, belə ki, onların səyləri qəbul edilir və dəyərləndirilir. Beləliklə, gənc kadrların potensialının tam açılması yalnız onların peşəkar keyfiyyətlərindən deyil, həm də yaradılan psixoloji əlverişli mühitin səmərəliliyindən asılıdır.

Ümumlilli lider Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasi kursunda da gənc kadrların təkmilləşdirilməsi yalnız inzibati deyil, həm də dərin psixoloji məzmun daşıyır. Bu yanaşma ilk növbədə gənclərdə özünədəyərlik hissini gücləndirir, onları milli məqsədə həsr olunma motivasiyası ilə təmin edir. Dövlət idarəçiliyinə cəlb edilmə prosesi onlara etimad və məsuliyyət hissi aşılayaraq, güclü peşəkarlığın formalaşmasına şərait yaradır.

Prezident İlham Əliyevin apardığı uğurlu gənclər siyasəti nəticəsində onların hazırkı siyasi strategiyaya və milli dəyərlərə uyğunlaşması onların mənəvi-psixoloji bütövlüyünü möhkəmləndirir. Məsul vəzifələr gənclərdə stresə davamlılıq və psixoloji çeviklik kimi keyfiyyətləri formalaşdırır, bu da öz növbəsində cəmiyyətdə sosial ədalət psixologiyasını gücləndirir. Beləliklə, Prezident İlham Əliyevin strategiyası əsasında həyata keçirilən bu siyasət gənclərdə güclü psixoloji əsaslı vətəndaşlıq mövqeyinin formalaşmasına həlledici təkan verir.

Gənclər siyasəti və təhsil sisteminin formalaşdırılmasının psixoloji tərəfləri ilk növbədə gənclərin inkişaf mərhələlərinin psixoloji xüsusiyyətlərini nəzərə almaqla başlayır, çünki bu, onların öyrənmə və sosial inteqrasiya proseslərinə uyğun proqramların hazırlanmasına zəmin yaradır.

Bu kontekstdə təhsil sistemi təkcə akademik biliklər deyil, həm də şəxsiyyətin formalaşması, özünüdərk və məsuliyyət hissinin inkişafı üçün psixoloji cəhətdən təhlükəsiz mühiti təmin etməlidir. Gənclər siyasətində isə gənclərin psixoloji ehtiyaclarına, o cümlədən onların kimlik axtarışı, mənəvi dəyərlərin yaranması və sosial mənsubiyyət hissinin artırılmasına diqqət yetirilməsi vacibdir. Hər iki sahə gənclərin daxili motivasiyasını və yaradıcılıq potensialını stimullaşdıran yanaşmaları ön plana çıxarmalı, məqsədyönlülük və dözümlülük kimi psixoloji keyfiyyətləri inkişaf etdirməyə kömək etməlidir.

Eyni zamanda müasir təhsil strategiyasında rəqəmsal transformasiya və texnoloji innovasiyalar mühüm yer tutur. Rəqəmsal təhsil mühiti gənclərin informasiya cəmiyyətində aktiv iştirakını təmin edir, onların süni intellekt, böyük verilənlər analizi və digər qabaqcıl texnologiyalar sahəsində bilik və bacarıqlarının formalaşmasına şərait yaradır. Bu proses gənclərin yalnız texnoloji biliklərini artırmır, həm də onların psixoloji adaptasiya qabiliyyətini gücləndirərək sürətlə dəyişən sosial və iqtisadi mühitə uyğunlaşmalarını asanlaşdırır. Bununla yanaşı, yaşıl iqtisadiyyat prinsiplərinin təhsil proqramlarına inteqrasiyası gənclərdə ekoloji məsuliyyət, davamlı inkişaf düşüncəsi və təbiətə həssas münasibətin formalaşmasına mühüm təsir göstərir.

Gənclər siyasəti psixoloji cəhətdən sağlam nəslin yetişməsi üçün gənclərin ictimai həyatda fəal iştirakını təşviq edən və onların öz qərar və seçimlərinə hörmət ehtiva edən prinsiplər əsasında qurulmalıdır.

Təhsil sistemində psixoloji xidmətlərin effektiv inteqrasiyası, gənclərin emosional və sosial bacarıqlarının kifayət qədər formalaşmamasından yaranan problemlərin vaxtında aşkarlanması və həllində mühüm rol oynayır. Ümumilikdə, gənclərin psixoloji inkişafının dəstəklənməsi onların yalnız bilik bazası deyil, həm də mənəvi bütövlüyü və ictimai məsuliyyəti olan şəxslər kimi yetişmələrinə kömək edir.

**Nəticə**

Müasir mərhələdə gənclər siyasətinin inkişafı həm də qlobal çağırışlarla – rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının geniş tətbiqi və yaşıl iqtisadiyyatın formalaşması ilə sıx bağlıdır. Bu istiqamətlər gənclərin innovativ düşüncə tərzinin inkişafına, onların yeni iqtisadi və sosial münasibətlər sistemində fəal iştirakına şərait yaradır. Dövlət səviyyəsində həyata keçirilən rəqəmsallaşma strategiyası və davamlı inkişaf proqramları Azərbaycan gənclərinin beynəlxalq innovasiya və texnologiya mühitinə inteqrasiyasını sürətləndirir. Beləliklə, müasir gənclər siyasəti yalnız sosial və psixoloji dəstək mexanizmi deyil, həm də ölkənin texnoloji və ekoloji gələcəyinin formalaşdırılmasında mühüm strateji vasitə kimi çıxış edir.

Nəticə olaraq deyə bilərik ki, Heydər Əliyevin başladığı və İlham Əliyevin davam etdirdiyi davamlı və sabit siyasət cəmiyyətdə, xüsusilə gənclər arasında, güclü bir etimad və təhlükəsizlik hissi yaratmışdır. Bu, sosial şəraitdə yüksək qayğı və diqqətin nəticəsi olaraq gənclərdə peşəkar potensialın formalaşmasına, onların cəmiyyətin aparıcı qüvvəsi kimi çıxış etməsinə səbəb olmuşdur. Dövlətin bütün səviyyələrində bu kadrlardan səmərəli istifadə imkanlarının yaradılması isə sosial ədalət psixologiyasını gücləndirərək, hər bir fərdin öz imkanlarını həyata keçirə biləcəyinə dair inamı dərinləşdirmişdir. Nəhayət, suverenlik və konstitusiyanın qorunması kimi əsas dəyərlərin diqqət mərkəzində saxlanılması, cəmiyyəti vahid bir məqsəd ətrafında birləşdirərək, perspektivli bir gələcək üçün kollektiv bir hərəkət psixologiyası yaratmışdır. Beləliklə, bütövlükdə davamlı siyasət və gənclərə dəstək, Azərbaycan cəmiyyətinin sosial-psixoloji sağlamlığını, birlik hissini və dinamik inkişaf meyilliyini gücləndirən əsas amillər olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Prezidenti İlham Əliyev: Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir/https://mod.gov.az/az/pre/34657. html

2. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı: Qapp-poliqraf Korporasiyası,

3. Malikli G. Priority Directions Of Youth And Educational Policy Implemented By The President Of The Republic Of Azerbaijan Ilham Aliyev. https://aem.az/prorty-drectons-of-youth-and-educatonal-polcy-mplemented-by-the-presdent-of-the-republc-of-azerbajan-ilham-aliyev

4. Məhərrəmov V. Gənclər Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti dəstəkləyirlər/https://www.azerbaijan-news.az/az/posts/detail/gencler-prezident-ilham-eliyevin-heyata-kecirdiyi-ugurlu-siyaseti-destekleyirlernbsp-1767733549/379416

5. Məlikli G. Azərbaycan Respublikasının milli inkişaf sistemində gənc nəslin rolu. Gənc tədqiqatçı. Elmi-praktiki jurnal, 2019, s.190-196

6. Məlikli G. Biz gənclər əldə etdiyimiz bütün uğurlara görə Ali Baş Komandana borcluyuq. https://mod.gov.az/az/pre/53866.html

7. Məlikli G. Müasir gənclik gələcəyə olan ümidin rəhnidir. https://azerbaijan-news.az/az/posts/detail/muasir-genclik-geleceye-olan-umidin-rehnidir-1643747968

8. Məlikli G. Prezident İlham Əliyevin çıxışları Azərbaycan gəncinin mənəvi-psixoloji hazırlığını ali səviyyədə tamamlayır https://science.gov.az/az/news/open/31464

9. Məlikli G. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqi üçün irəli sürdüyü strategiya gənc nəslin gözü önündə realliğa çevrilib. Heydər Əliyev və müasir Şərq” mövzusunda Beynəlxalq Elmi Konfransın tezisləri. Bakı, “Elm”, – 116 səh.

**Rəyçi: f.f.d., dos. Həbib Hüseynov**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1080**

# ERMƏNİSTANIN GƏLƏCƏYİ İLƏ BAĞLI SİYASİ-İDEOLOJİ VƏ HƏRBİ DİSKURSUN FORMALAŞMASI

**Aysel İbrahim Abdinli**
elmi işçi, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
ibrahimaysel67@gmail.com
https://orcid.org/0009-0005-5582-9486

**Xülasə**. 2020-ci il Qarabağ müharibəsindən sonra Ermənistanın siyasi sistemi və ictimai şüurunda baş verən transformasiyalar ölkənin gələcək inkişaf istiqamətləri ilə bağlı diskursu daha da kəskinləşdirmişdir. Siyasi elita, hərbi dairələr və ictimai aktorlar arasında təhlükəsizlik arxitekturası və xarici siyasət prioritetləri məsələsində ziddiyyətli yanaşmalar formalaşmışdır. Reformist meyillər daxili demokratikləşmə proseslərini stimullaşdırsa da, eyni zamanda təhlükəsizlik müstəvisində yeni qeyri-müəyyənliklər yaratmışdır. Paralel olaraq, yeni siyasi elitaların meydana çıxması və onların Rusiya ilə münasibətlərə fərqli yanaşmaları Ermənistanın regional mövqeyini müəyyənləşdirən əsas amillərdən biri kimi çıxış edir. Bu kontekstdə Ermənistanın gələcəyi ilə bağlı diskurs təkcə mövcud hakimiyyətin yürütdüyü siyasəti deyil, həm də ictimai rəyin strukturunu və istiqamətlənməsini əks etdirir.

**Açar sözlər**: Ermənistan, Qarabağ müharibəsi, ictimai şüur, təhlükəsizlik arxitekturası, post-münaqişə dövrü.

# FORMATION OF POLITICAL-IDEOLOGICAL AND MILITARY DISCOURSE ON THE FUTURE OF ARMENIA

**Aysel Ibrahim Abdinli**

**Abstract.** Following the 2020 Karabakh War, transformations within Armenia’s political system and public consciousness have significantly intensified the discourse surrounding the country’s future development trajectories. Divergent approaches to issues of security architecture and foreign policy priorities have emerged among the political elite, military circles, and public actors. While reformist tendencies have stimulated processes of domestic democratization, they have simultaneously generated new forms of uncertainty within the security domain. In parallel with this, the emergence of new political elites and their differentiated approaches toward relations with the Russian Federation constitute one of the key factors shaping Armenia’s regional positioning. In this context, the discourse on Armenia’s future reflects not only the policies pursued by the incumbent government but also the structure and orientation of public opinion.

**Keywords**: Armenia, Karabakh War, public consciousness, security architecture, post-conflict period.

# ФОРМИРОВАНИЕ ПОЛИТИКО-ИДЕОЛОГИЧЕСКОГО И ВОЕННОГО ДИСКУРСА О БУДУЩЕМ АРМЕНИИ

**Айсель Ибрагим Абдинли**

**Резюме.** После Карабахской войны 2020 года трансформации, произошедшие в политической системе Армении и общественном сознании, существенно обострили дискурс, связанный с будущими направлениями развития страны. В среде политической элиты, военных кругов и общественных акторов сформировались противоречивые подходы к вопросам архитектуры безопасности и внешнеполитических приоритетов Армении. Реформаторские тенденции, стимулируя процессы внутренней демократизации, одновременно породили новые формы неопределенности в сфере национальной безопасности. Параллельно формирование новых политических элит и дифференцированные подходы к отношениям с Российской Федерацией выступают в качестве ключевых факторов, определяющих региональное

позиционирование Армении. В данном контексте дискурс о будущем Армении отражает не только политику действующей власти, но и структуру, а также направленность общественного мнения.

**Ключевые слова**: Армения, Карабахская война, общественное сознание, архитектура безопасности, постконфликтный период

**Giriş**

2020-ci il Qarabağ müharibəsindən sonra Ermənistan siyasi sistemində və ictimai şüurunda baş verən dəyişikliklər ölkənin gələcək inkişaf istiqamətləri ilə bağlı mübahisələri daha da dərinləşdirdi. Bu dövrdə həm siyasi elita, həm də hərbi və ictimai xadimlər arasında Ermənistanın təhlükəsizlik arxitekturası və xarici siyasət oriyentasiyası barədə ziddiyyətli fikirlər formalaşdı. Reformist yanaşmalar ölkə daxilində demokratikləşmə proseslərini sürətləndirsə də, eyni zamanda təhlükəsizlik nöqtəyi-nəzərindən qeyri-müəyyənliklər müşahidə edilir. Ölkədə yeni elitaların yaranması və onların Rusiya dövləti ilə olan münasibətlərə fərqli aspektlərdən yanaşmaları Ermənistanın regional mövqeyinə təsir edən amillərdəndir. Bu səbəbdən Ermənistanın gələcəyi ilə bağlı diskurs təkcə mövcud hakimiyyətin yürütdüyü siyasəti deyil, həm də ictimai rəyin strukturunu əks etdirir. Beləliklə, Ermənistanın gələcəyi müxtəlif siyasi, hərbi və ictimai xadimlərin ideoloji mövqeləri, təhlükəsizlik qavrayışları və xarici siyasət prioritetlərinin əsasında formalaşır. Bu səbəbdən də onların ölkənin gələcəyinə dair olan fikirlərinin təhlil edilməsi vacibdir. Bu tədqiqat həmin baxışların kontent təhlili vasitəsilə sistemləşdirilməsini və əsas tematik istiqamətlərin (təhlükəsizlik, Qərbə inteqrasiya, dövlət modernləşməsi və milli suverenlik) müəyyənləşdirilməsini məqsəd kimi qarşıya qoyur. Belə bir yanaşma postsovet məkanında kiçik dövlətlərin gələcək strategiyalarını müəyyənləşdirməkdə ictimai diskursun roluna dair daha geniş elmi nəticələr çıxarmağa imkan verir.

Ermənistanın müasir siyasi və ideoloji müstəvisi postsovet məkanındakı mürəkkəb və ziddiyyətli proseslərin mərkəzində formalaşmışdır. Bu dövlətin siyasi kimliyi və gələcək inkişaf trayektoriyası həm tarixi, həm də geosiyasi amillərlə sıx bağlıdır. Ermənistanda siyasi və ictimai fikir tarix boyu müxtəlif mərhələlərdə radikal ideoloji yönümlərlə formalaşmış, xüsusilə milli kimlik, ərazi iddiaları və təhlükəsizlik məsələləri ətrafında cəmlənmişdir. Bu baxımdan Ermənistanın siyasi, hərbi və ictimai xadimlərinin “Ermənistanın gələcəyi” anlayışına münasibəti təkcə daxili siyasətin deyil, həm də regional sabitliyin gələcək perspektivlərini müəyyənləşdirən mühüm göstəricilərdən biridir. Tədqiqatda erməni siyasi, hərbi və ictimai xadimlərinin “Ermənistanın gələcəyi” ilə bağlı çıxışları, müsahibələri və bəyanatları kontent təhlilinin klassik və müasir metodları əsasında araşdırılır. Kontent təhlili siyasi elmlərdə mürəkkəb ideoloji məzmunları, diskursiv strategiyaları və aktorların məqsədyönlü kommunikasiya davranışlarını sistemləşdirmək üçün geniş tətbiq olunan metodoloji çərçivədir. Tədqiqat üçün korpus üç əsas mənbə üzrə toplanmışdır:

• Ermənistanın siyasi liderlərinin (Paşinyan, Köçəryan, Sərkisyan və s.) 2018–2024-cü illər üzrə çıxışları;

• Hərbi elitanın (David Tonoyan, Movses Hakobyan, Artak Davtyan və s.) post-müharibə dövrü bəyanatları;

• Analitik mərkəzlər (RSC, CivilNet, Caucasus Watch və diaspor təşkilatları) tərəfindən yayımlanan analitik yazılar və ekspert şərhləri.

Materialların seçimi mətnin mövzunu birbaşa “Ermənistanın gələcəyi” kontekstində şərh etməsi, yaxud siyasi-ideoloji orientasiya barədə sistemli dəyərləndirmələr aparması meyarına əsaslanmışdır.

Müasir Ermənistan cəmiyyətində “gələcək” anlayışı əksər hallarda dövlətin suverenliyinin qorunması, təhlükəsizliyin təmin edilməsi və regional münasibətlərdə rolun yenidən müəyyənləşdirilməsi kontekstində şərh olunur. Ermənistan siyasi və ictimai elitasının baxışlarının analizi göstərir ki, ölkə daxilində iki əsas ideoloji istiqamət formalaşıb: bir tərəfdən Qərb dəyərlərinə inteqrasiya və demokratik inkişaf xətti, digər tərəfdən isə revanşist və milli-romantik konsepsiyalar. Bu iki tendensiyanın toqquşması ölkənin daxili siyasətini, xarici əlaqələrini və gələcək inkişaf modelini müəyyən edir**.**Sözügedən ölkənin siyasi və ictimai strukturlarında formalaşan siyasi-ideoloji diskurslar ölkənin gələcək strategiyalarını müəyyənləşdirən əsas amillərdən biridir. Xüsusilə 2020-ci il İkinci Qarabağ müharibəsi və sonrakı dövr ölkənin təhlükəsizlik anlayışında, eləcə də xarici siyasət prioritetlərində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur (7, s. 25). Diskurs anlayışı sosial elmlərdə

dil və məna sistemləri vasitəsilə müəyyən dövrdə hakim olan ideyaların və praktiki biliklərin mənimsənilməsini izah edir (4, s. 54). Bu tədqiqat kontekstində “Ermənistanın gələcəyi ilə bağlı diskurs” terminінə siyasi liderlərin, hərbi rəsmilərin, ictimai xadimlərin və analitik mərkəzlərin gələcəyə dair bəyanatlarının məna və strukturlarını əhatə edən konseptual çərçivə kimi yanaşılır. Kontent təhlili üsulu ilə bu çıxışların tematik dominantları, ifadə vasitələri və diskursiv strategiyaları müəyyən edilir.

XIX–XX əsrlərdə erməni siyasi ideyalarının təşəkkülü, erməni siyasi düşüncəsinin formalaşması XIX əsrin sonlarından etibarən milli ideya konsepsiyası ilə sıx bağlı olmuşdur. Bu dövrdə erməni siyasi elitası əsasən Qafqaz və Osmanlı imperiyalarında fəaliyyət göstərən ziyalı dairələrdə formalaşmış və onların ideoloji xətti “Böyük Ermənistan” ideyasına əsaslanmışdır. 1887-ci ildə yaranan “Daşnaksütyun” partiyası (Erməni İnqilabi Federasiyası) bu ideyanı sistemləşdirərək onu həm siyasi, həm də hərbi strategiyanın əsasına çevirdi. Daşnaksütyun ideologiyası “etnik millətçiliyi” və “tarixi ədalətin bərpası” anlayışını mərkəzə almışdı. Bu konsepsiyaya görə, Ermənistanın gələcəyi yalnız itirilmiş ərazilərin “azad edilməsi” və “vahid erməni dövləti”nin qurulması ilə mümkündür (8, s. 83).

Beləliklə, “gələcək” anlayışı burada keçmişin revanşist şərhində təqdim olunurdu. XIX əsrin sonu və XX əsrin əvvəllərində erməni siyasi diskursunda Qərb mədəniyyətinə yönəlmiş modernləşmə cəhdləri də müşahidə edilirdi. Lakin bu tendensiyalar əsasən dini və etnik mifologiya ilə birləşərək milli-romantik çalar qazanmışdı. Bu ideoloji baza sonrakı onilliklərdə Ermənistanın bütün siyasi istiqamətlərinə sirayət etmişdir. Daşnak ideologiyası yalnız bir partiya platforması deyil, həm də erməni kimliyinin mühüm sütunlarından biri kimi bilinir. Onun əsas ideoloji prinsipləri üç istiqamətdə cəmlənirdi:

1. Milli suverenliyin “bütün ermənilərin vətəni” anlayışı əsasında qurulması;
2. Qonşu xalqlara qarşı tarixi ədalətsizlik arqumentləri;
3. Diasporanın siyasi rolunun legitimləşdirilməsi (6, s. 286).

Yuxarıda qeyd olunmuş ideologiya 1991-ci ildən sonra müstəqil Ermənistanın daxili və xarici siyasətinə də öz təsirini göstərmişdir. XX əsrin sonlarında Daşnak partiyası formal olaraq siyasi arenada zəifləsə də, onun ideoloji xətti mətbuatda, diaspor təşkilatlarında və hərbi ritorikada yaşamaqda davam etmişdir. Müasir mərhələdə bu ideologiya daha çox “strateji yaddaş siyasəti” formasında təzahür edir. Ermənistan cəmiyyətində keçmişin travmaları – xüsusilə 1915-ci il hadisələrinin interpretasiyası – gələcək siyasətin əsas istiqamətlərindən biri kimi təqdim olunur.

Beləliklə, “gələcək” anlayışı burada tarixi yaddaşın və qisasçı təfəkkürün proyeksiyası kimi çıxış edir. Müstəqillikdən sonra ideoloji istiqamətlərdə dəyişikliklər 1991-ci ildə Ermənistanın müstəqillik qazanması ilə ideoloji sistemdə kəskin transformasiya baş verdi. Əvvəlki sovet beynəlmiləlçiliyi yerini yeni milli dövlətçilik konsepsiyasına verdi. Bu mərhələdə üç əsas ideoloji cərəyan formalaşdı:

1. Milli-romantik xətt – keçmiş “böyük Ermənistan” ideyasının müasir forması;
2. Praqmatik-modernist xətt – Qərblə inteqrasiya və demokratikləşmə tərəfdarları;
3. Revanşist-hərbi xətt – “itirilmiş torpaqların qaytarılması” ideyası ətrafında birləşən qüvvələr (6, s. 287).

Bu ideoloji parçalanma Ermənistanın daxili siyasətində uzunmüddətli qeyri-sabitlik yaratdı. 2018-ci il “məxməri inqilabı” ilə hakimiyyətə gələn Nikol Paşinyan modernist və reformist xətti təmsil etsə də, cəmiyyətin dərin qatlarında daşnak və revanşist düşüncə hələ də güclü şəkildə öz yerini qoruyurdu. Müasir Ermənistanın siyasi ritorikasında “gələcək” anlayışı çox vaxt təhlükəsizlik və identiklik məsələləri ilə eyniləşdirilir (6, s. 288). Bu da göstərir ki, Ermənistan cəmiyyətində ideoloji keçid prosesi tam başa çatmamış, siyasi və mədəni şüur hələ də keçmişin simvolları ilə formalaşır.

Ermənistanın ideoloji inkişafı müxtəlif mərhələlərdə xarakterizə olunur: sovet dönəmi, müstəqilliyin ilk illəri, post-müharibə və 2018-ci il sonrası transformasiya dövrü. Hər mərhələ ölkənin dominant diskurslarında fərqli tematik prioritetlər formalaşdırmışdır.

Son onillikdə Ermənistanın gələcəyi ilə bağlı diskurs siyasi və hərbi elita arasında fərqli istiqamətlərdə formalaşmışdır. Baş nazir Nikol Paşinyan “sülh gündəliyi”, regional kommunikasiyaların açılması və Avropaya inteqrasiya kimi tezisləri irəli sürərək Ermənistanın inkişaf modelini demokratik modernləşmə üzərində qurmağa çalışır. O, 2023–2024-cü illərdə çıxışlarında “Ermənistanın gələcəyi keçmişin revanşist düşüncələrinə deyil, dayanıqlı dövlət institutlarına

söykənməlidir” fikrini sistematik şəkildə vurğulamışdır (1). Digər tərəfdən, keçmiş müdafiə nazirləri, məsələn, David Tonoyan, Artak Davtyan və Arşak Karapetyan müharibədən sonrakı çıxışlarında təhlükəsizlik konsepsiyasının yenidən qurulmasının zəruriliyini, ordunun modernizasiyasını və “preventiv müdafiə modeli”nin vacibliyini ön plana çəkirlər. Bu dairələr daha çox təhlükəsizlik mərkəzli, riskləri yüksək qiymətləndirən yanaşmanı müdafiə edir. Müasir analitik mərkəzlər, Regional Studies Center (RSC), Caucasus Watch analitikləri, CivilNet ekspertləri Ermənistanın gələcək inkişafını üç əsas istiqamətdə görür: Qərb ilə dərinləşmiş siyasi-institusional əməkdaşlıq, təhlükəsizlik sahəsində yeni tərəfdaşlıq modelləri və diasporanın idarəetmədə rolunun yenidən tənzimlənməsi. Bu dairələr “strateji qeyri-müəyyənliyin Ermənistanı zəiflətməsi” fikrini vurğulayaraq vahid strateji konsepsiyanın formalaşmasının vacibliyini qeyd edirlər. Həmçinin ictimai xadimlər içərisində qərbyönümlü intellektuallar (Stepan Qriqoryan, Benyamin Poqosyan və digərləri), milli-suverenist dairələr (Gevorq Mirzoyan, Hayastan fraksiyasına bağlı ekspertlər), eləcə də avrasiyaçılar arasında ideoloji parçalanma müşahidə edilməkdə davam edir. Bu da ictimai rəyin gələcəyə münasibətində vahid modelin yaranmasına mane olur (2). 2018-ci ildə baş verən “məxməri inqilab” yeni siyasi elitanın, Paşinyan liderliyinin yüksəlişini təmin etdi. Bu dövr islahatçı və qərbyönümlü diskursun güclənməsi ilə əlaqələndirildi. Paşinyan hökumətinin prioritetləri arasında korrupsiyaya qarşı mübarizə, şəffaflıq və idarəetmədə modernləşmə kimi bir sıra məsələlər yer alırdı. Lakin 2020-ci il müharibəsi bu xəttin həm legitimlik baxımından sınanmasına, həm də təhlükəsizlik sahəsində yeni ehtiyaclar ilə birlikdə var olan boşluqların ortaya çıxmasına səbəb oldu. Bununla da Ermənistanın ideoloji inkişafının tarixində ardıcıl olaraq “təhlükəsizlik”, “milli kimlik” və “modernləşmə” kimi anlayışlar mərkəzi rol oynamış və bu anlayışların nisbəti müxtəlif dövrlərdə dəyişmişdir. Bu mərhələlər göstərir ki, Ermənistanın siyasi-ideoloji inkişafı davamlı transformasiya prosesi olmuş və hər bir mərhələ yeni diskursial prioritetlər, aktorlararası münasibətlər və strateji adaptasiyalarla xarakterizə olunmuşdur. Müasir siyasi elita, xüsusilə 2018-ci ildən sonra formalaşan kadrlar Ermənistanın gələcək strategiyalarında vacib rol oynayır. Bu elita demokratik modernləşməyə, Avropa ilə yaxınlaşmaya və institusional islahatlara üstünlük verən yolgöstərənlərdən təşkil olunmuşdu. Lakin eyni zamanda bu elita regionun təhlükəsizlik reallıqlarını nəzərə almağa məcbur idi.

Paşinyan hökumətinin siyasəti bir tərəfdən korrupsiya ilə mübarizə və hüquqi dövlətin möhkəmləndirilməsi kimi dəyərləri irəli sürürdü, digər tərəfdən isə 2020-ci il müharibəsi nəticəsində təhlükəsizlik sahəsində yaranan boşluqları aradan qaldırmaq üçün praktiki addımlar atmağa məcbur oldu. Bu kontekstdə siyasi elitanın ideoloji mövqeyi “ikili modernləşmə” kimi xarakterizə edilir: həm dəyərlərə əsaslanan demokratikləşmə, həm də təhlükəsizlik təminatı.

Yaranan siyasi elita daxilində siyasi kommunikasiya vasitəsilə “milli bərpa” və “dövlətin yenidən qurulması” kimi terminlər tez-tez istifadə olunur. Bu terminlər cəmiyyət üçün həm ideya, həm də siyasət platforması rolunu oynayır. Lakin elmi tədqiqatlar göstərir ki, siyasi elitanın təklif etdiyi proqramların həyata keçirilməsi üçün institusional güc və stabil strateji konsensusun olmaması ciddi əngəllər yaradır. Bundan başqa, siyasi elitanın xarici siyasət istiqamətində balanslaşdırma cəhdi, Rusiya ilə münasibətlərdə praqmatizm və Qərblə əlaqələrin gücləndirilməsi daxili siyasi müstəvidə müəyyən gərginliklərə səbəb olur. Bu, həm partiya siyasətində, həm də ictimai rəy arasında ziddiyyətlərə yol açır ki, nəticədə uzunmüddətli strateji planların həyata keçirilməsi çətinləşir (3,s. 47). İctimai xadimlər, akademiklər və analitik mərkəzlər Ermənistanın gələcəyi ilə bağlı diskursun formalaşmasında mühüm rol oynayırlar. Bu aktorlar həm milli-mənəvi dəyərləri və normativ prioritetləri təqdim edir, həm də praktiki siyasət təkliflərini formalaşdırırlar. Analitik mərkəzlərin hesabatları və ictimai debatlar onu göstərir ki, ölkədə qərbyönümlü, avrasiyaçı və milli-suverenist istiqamətlər paralel şəkildə mövcuddur. Qərbyönümlü intellektual dairələr demokratik institutların gücləndirilməsini və Avropa strukturlarına inteqrasiyanı üstün sayır. Digər tərəfdən avrasiyaçılar daha çox strateji təhlükəsizliyi və mövcud regional ittifaqları ön planda saxlayırlar. Milli-suverenistlər isə özünümüdafiə və daxili iqtisadi dayanıqlılığı vurğulayırlar (1). Media mühiti və sosial şəbəkələr isə diskursun sürətlə formalaşmasına və dəyişikliyinə təsir edir. Yeni nəsil jurnalistlər və ekspertlər arasında praktik dövlətçilik, rəqəmsal təhlükəsizlik və iqtisadi rəqabət qabiliyyətinin artırılması kimi yeni mövzular ortaya çıxır. Bu, ictimai diskursun yalnız siyasi liderlərin bəyanatları ilə məhdudlaşmadığını, həm də geniş ictimai iştirakla dinamik şəkildə dəyişə bildiyini göstərir.

Əlavə olaraq, diasporanın rolu da diqqətəlayiqdir. Xaricdə fəaliyyət göstərən erməni təşkilatları və elmi dairələr Ermənistanda siyasi ideyaların formalaşmasına təsir göstərə bilirlər. Bu, xüsusilə maliyyə yardımları, lobbizm və informasiya dəstəyi vasitəsilə baş verir. Nəticədə, ictimai diskurs həm daxili, həm də trans-millətçi dinamikanın məhsulu kimi meydana gəlir.

Müqayisəli təhlil nəticəsində ortaya çıxan əsas nəticə budur ki, Ermənistanın gələcəyi ilə bağlı diskursda vahid və uzunmüddətli strateji konsensusun olmaması mövcud qərar qəbuletmə proseslərini zəiflədir. Siyasi, hərbi və ictimai aktorların prioritetləri arasında uyğunsuzluq ölkənin strateji yönəldilməsini çətinləşdirir.

Siyasi elitanın modernləşmə proqramı institutların islahı və beynəlxalq legitimlik axtarışına yönəldiyi halda, hərbi elitanın prioriteti təhlükəsizlik və ənənəvi müttəfiqlərlə əlaqələrin saxlanılmasıdır. İctimai və analitik dairələr isə çoxvektorlu yanaşmanı və balans prinsiplərini təklif edirlər. Bu üç istiqamətin sintetik şəkildə birləşdirilməsi Ermənistanın gələcək inkişaf modelinin əsasını təşkil edən prirotet məslələrdən ola bilər.

Diskurslararası ziddiyyətlər normativ, strateji və institusional səviyyələrdə özünü göstərir. Normativ səviyyədə demokratik dəyərlərlə milli ənənələrin uzlaşması tələb olunur; strateji səviyyədə isə Rusiya və Qərb ilə əlaqələrin balanslaşdırılması mühüm məsələyə çevrilir; institusional səviyyədə isə ordunun rolu və mülki nəzarətin gücləndirilməsi əsas prioritet məsələlərdən biridir.

Bütün bunlar Ermənistanın gələcək diskursunun sabitləşdirilməsi üçün aşağıdakı şərtlərin vacib olduğunu göstərir:

1. Müharibədən sonra yaranmış təhlükəsizlik boşluqlarının elmi əsaslı qiymətləndirilməsi və bunun tərəfdaş siyasətinə inteqrasiyası;
2. İnstitusional islahatların davam etdirilməsi və mülki nəzarətin gücləndirilməsi;
3. İctimai dialoqun genişləndirilməsi və diaspor ilə milli konsensusun formalaşdırılması. Bu şərtlər həyata keçirildikdə, müxtəlif diskursların ortaq strateji baza daxilində sintezi mümkün olacaqdır (5, s. 15).

Ermənistanın ideoloji diskursunun tarixi inkişafı göstərir ki, XIX əsrin sonlarından bəri formalaşmış milli-romantik və revanşist ideyalar müasir dövrdə də siyasi davranış modellərinə təsir etməkdə davam edir. Lakin son illərdə bu tarixi ənənə yenidən qiymətləndirilməyə başlanmış və ölkənin gələcəyi barədə düşüncə daha çox dövlətçilik, təhlükəsizlik və institusional modernləşmə prizmasında şərh edilmişdir. Müasir siyasi elita, xüsusilə 2018-ci ildən sonra formalaşmış hökumət Ermənistanın inkişafını demokratik islahatlar, Avropa strukturları ilə əməkdaşlıq və iqtisadi dayanıqlıq üzərində qurmağa çalışır. Paralel olaraq hərbi dairələr təhlükəsizlik risklərini əsas prioritet hesab edir və ordunun modernləşdirilməsinin ölkənin gələcəyi üçün həlledici olduğunu bildirirlər. Analitik mərkəzlər və ictimai xadimlər isə Ermənistanın gələcək strategiyasının yalnız çoxtərəfli siyasət, yeni diplomatik tərəfdaşlıqlar və diaspor ilə vahid konsensus şəraitində mümkün olduğunu qeyd edirlər. Bu müxtəlif yanaşmalar arasında uzlaşmanın olmaması hazırda Ermənistanın uzunmüddətli inkişaf modelinin müəyyənləşdirilməsini çətinləşdirir və ölkənin gələcək istiqamətinin ideoloji baxımdan hələ də formalaşma mərhələsində olduğunu göstərir.

**Nəticə**

Beləliklə, nəticə olaraq demək olar ki:

• Ermənistanın gələcəyi keçmişin təkrarı deyil, onun dərk olunmuş nəticəsidir;

• Gələcək model yalnız sülh, modernləşmə və regional əməkdaşlıq üzərində qurularsa, davamlı ola bilər;

• İdeoloji harmoniya və siyasi reallığın sintezi müasir Ermənistan dövlətçiliyinin əsas təməl prinsipinə çevrilməlidir.

Nəticə etibarilə, Ermənistanın gələcəyi elmi baxımdan post-konflikt ideologiyasının reallıqla barışdığı nöqtədə formalaşacaqdır. Bu isə həm siyasi elitanın məsuliyyətli davranışını, həm də cəmiyyətin intellektual yetkinliyini tələb edir. Ermənistanın gələcəyi ilə bağlı diskursun sabit və funksional modelə çevrilməsi yalnız ayrı-ayrı ideoloji mövqelərin üstünlüyü ilə deyil, onların rasional sintezi vasitəsilə mümkün görünür. Təhlükəsizlik ehtiyaclarının elmi əsaslarla qiymətləndirilməsi, institusional islahatların dərinləşdirilməsi və ictimai dialoqun genişləndirilməsi bu prosesin əsas şərtləri kimi çıxış edir. Bu baxımdan, Ermənistan nümunəsi postsovet məkanında münaqişəsonrası dövrdə

ideoloji parçalanmanın dövlətlərin gələcək strategiyalarına təsirini anlamaq üçün mühüm analitik model təqdim edir.

### İstifadə olunmuş ədəbiyyat

1. CivilNet Research Desk rəsmi internet saytı, https://www.civilnet.am/en/news/810369/-five-troubling-trends-that-defined-armenia-in-2024/
2. CivilNet Research Desk rəsmi internet saytı, https://www.civilnet.am/en/news/704099/-armenia’s-political-fragmentation-continues-in-2023/
3. Elamiryan R. The US, Strategic Environment in the South Caucasus and Armenia: A Sight on the Future. Journal of Political Science: Bulletin of Yerevan University, No. 1, 2022, p. 41–53.
4. Fairclough N. Critical Discourse Analysis: The Critical Study of Language. London: Longman, 1995, p. 54-55.
5. Manucharyan A. National Security and the Concept of Public Dialogue in Armenia. Armenian Center for National and International Studies (ACNIS), Policy Paper, 2011, p. 70.
6. Panossian R. The Armenians: From Kings and Priests to Merchants and Commissars. New York: Columbia University Press, 2006, p. 275-302.
7. Poghosyan G. Reconstructing the Political Future of Armenia: Overcoming Contemporary Turbulence through Role Models. Journal of Political Science: Bulletin of Yerevan University, №2, 2023, p. 15-29.
8. Suny R. Looking Toward Ararat: Armenia in Modern History. Bloomington: Indiana University Press, 1993, p. 72-98.

**Rəyçi: ps. f.d., dos. Südabə Hüseynova**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2026.1.46.1083**

# AZƏRBAYCANIN UĞURLU ENERJİ DİPLOMATİYASI

**Gülşən Xalıqova**
Doktorant, Azərbaycan Dövlət Pedaqoji Universiteti, **Azərbaycan**
xaliqova.gulshen@mail.ru
https://orcid.org **0000-0002-6017-9247**

**Xülasə.** Məqalədə Azərbaycanın uğurlu enerji siyasəti təhlil edilir. Bildirilir ki, enerji ixracı layihələrinin şaxələndirilməsi nəticəsində əldə edilən siyasi, iqtisadi əlaqələrin bir mərkəzdə toplanaraq məqsədyönlü şəkildə istifadə olunması ölkə daxilində iqtisadi sistemin formalaşmasında, sosial həyatın dinamik inkişafında böyük rol oynayır, eyni zamanda beynəlxalq iqtisadi dayanıqlığın və siyasi dividendlərin əldə edilməsində olduqca böyük əhəmiyyət daşıyır. Aparılan düşünülmüş enerji diplomatiyası nəticəsində Avropa ölkələri ilə əlaqələr dərinləşmiş, onların enerji təhlükəsizliyinin təminatında Azərbaycan etibarlı tərəfdaşa çevrilmişdir. Enerji təhlükəsizliyinin təminində şaxələndirmənin mühüm rol oynadığı bildirilir. Bu anlayış həm enerji mənbələrinin, həm də marşrut və texnologiyaların müxtəlifləşdirilməsini nəzərdə tutur. Onun əsas rollarından biri asılılığın azaldılmasıdır. Yəni, enerji ehtiyacları tək bir mənbədən təmin edildikdə həmin mənbədə baş verən böhran – mübaribə, təbii fəlakət, siyasi rejimin dəyişilməsi, mənbədə tükənmənin baş verməsi, siyasi gərginlik, qiymət dalğalanması və s. – bu ölkənin enerji təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Şaxələnmə zamanı belə təhlükələr aradan qalxır, asılılıq azalır, alternativ mənbələr hesabına sabitlik təmin olunur.

**Açar sözlər:** enerji siyasəti, enerji diplomatiyası, şaxələnmə, neft, qaz, müqavilə, iqtisadiyyat, siyasət, etibarlı tərəfdaş

## УСПЕШНАЯ ЭНЕРГЕТИЧЕСКАЯ ДИПЛОМАТИЯ АЗЕРБАЙДЖАНА

**Гюльшен Халигова**

**Резюме.** В статье анализируется успешная энергетическая политика Азербайджана. Отмечается, что политические и экономические связи, сформированные в результате диверсификации экспортных энергетических проектов и их целенаправленной координации в едином стратегическом центре, играют важную роль в формировании национальной экономической системы, динамичном развитии социальной сферы, а также в обеспечении международной экономической устойчивости и получении политических дивидендов. Благодаря продуманной энергетической дипломатии укрепились отношения с европейскими странами, и Азербайджан стал надёжным партнёром в обеспечении их энергетической безопасности. Подчеркивается важная роль диверсификации в обеспечении энергетической безопасности. Данное понятие предполагает разнообразие источников энергии, маршрутов поставок и используемых технологий. Одной из её основных функций является снижение зависимости от одного источника. Если энергетические потребности обеспечиваются исключительно за счет одного направления, любые кризисы— военные конфликты, природные катастрофы, смена политического режима, истощение ресурсов, политическая напряжённость, колебания цен и другие факторы — могут серьёзно угрожать энергетической безопасности страны. В условиях диверсификации подобные риски минимизируются, зависимость сокращается, а устойчивость обеспечивается за счет альтернативных источников и маршрутов.

**Ключевые слова:** энергетическая политика, энергетическая дипломатия, диверсификация, нефть, газ, контракт, экономика, политика, надёжный партнёр.

# SUCCESSFUL ENERGY DIPLOMACY OF AZERBAIJAN

**Gulshen Khaliqova**

**Abstract.** The article analyzes the successful energy policy of Azerbaijan. It is noted that the political and economic relations achieved through the diversification of energy export projects, when centralized and used purposefully, play a significant role in the formation of the country’s economic system, the dynamic development of social life, and are also of great importance in ensuring international economic stability and obtaining political dividends. As a result of a well-planned energy diplomacy, relations with European countries have deepened, and Azerbaijan has become a reliable partner in ensuring their energy security. The important role of diversification in ensuring energy security is emphasized. This concept includes the diversification of energy sources, as well as routes and technologies. One of its main roles is to reduce dependence. That is, when energy needs are met from a single source, crises related to that source — such as war, natural disasters, changes in political regimes, resource depletion, political tensions, price fluctuations, etc., pose a serious threat to a country’s energy security. Through diversification, such risks are mitigated, dependency is reduced, and stability is ensured by alternative sources.

**Keywords:** energy policy, energy diplomacy, diversification, oil, gas, contracts, economy, politics, reliable partner

## Giriş

Azərbaycanın inkişaf strategiyasına təsir edən ən vacib amillərdən biri də ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü siyasətin vacib qolu olan enerji ixracının şaxələndirilməsində geoiqtisadi layihələrin həyata keçirilməsi və bu layihələrin Cənubi Qafqazın sabitliyində yaratdığı imkanlarla bağlıdır. Azərbaycanın Cənubi Qafqazda yaratdığı postkonflikt reallıq bir tərəfdən yeni geoiqtisadi imkanlar açır, digər tərəfdən regionun enerji və iqtisadi potensialının xarici bazarlara çıxışına yeni fürsətlər yaradır. Məsələn, Trans-Xəzər enerji ixracında Azərbaycan, Türkmənistan, Qazaxıstan və İran arasında bağlanan müqavilələr onu göstərir ki, Azərbaycanın geoiqtisadi siyasəti uğurla davam etməkdədir. Hazırda Azərbaycan regionda hər hansı bir ölkədən enerji asılılığı olmayan, daxili tələbatını öz enerji imkanları hesabına ödəməyə qadir olan və beynəlxalq enerji bazarına böyük töhfələr verən aparıcı dövlətlərdən biri kimi çıxış etməkdədir.

## Enerji diplomatiyasında şaxələnmə siyasəti

Məlumdur ki, qlobal iqtisadiyyatın inkişafında enerji resurslarının rolu danılmazdır. XXI əsrdə enerji təhlükəsizliyi anlayışı təkcə enerji resurslarının mövcud olması ilə deyil, eyni zamanda onların etibarlı, davamlı və münasib qiymətlərlə təmin olunması ilə ölçülür. Enerji təhlükəsizliyi milli təhlükəsizlik strategiyasının vacib elementi olmaqla yanaşı, həm də dövlətin iqtisadi gücünün əsas təminatçısıdır. Bu kontekstdə şaxələndirmə anlayışı enerji siyasətinin prioritet istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Enerji təhlükəsizliyinin təminində şaxələndirmə çox mühüm rol oynayır. Bu anlayış həm enerji mənbələrinin, həm də marşrut və texnologiyaların müxtəlifləşdirilməsini nəzərdə tutur. Onun əsas rollarından biri asılılığın azaldılmasıdır. Yəni, enerji ehtiyacları tək bir mənbədən təmin edildikdə, həmin mənbədə baş verən böhran – mübaribə, təbii fəlakət, siyasi rejimin dəyişilməsi, mənbədə tükənmənin baş verməsi, siyasi gərginlik, qiymət dalğalanması və s. bu ölkənin enerji təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Şaxələnmə zamanı belə təhlükələr aradan qalxır, asılılıq azalır, alternativ mənbələr hesabına sabitlik təmin olunur.

Enerji daşıyıcılarının fərqli istiqamətlərdən və marşrutlardan idxal edilməsi zamanı enerji axınının dayanması riski azalır. Belə ki, təbii qaz tədarükü üçün bir neçə ölkə seçilə bilər, müxtəlif boru kəmərlərindən idxal həyata keçirilə bilər. Neftin idxalı üçün həm dəniz, həm də quru marşrutlarından istifadə etmək olar. Bundan başqa, daxili alternativ enerji mənbələrindən enerji istehsal etməklə təhlükəsizliyə riayət olunar. Çünki alternativ, bərpa olunan mənbələrdən əldə olunan enerji daha davamlı və risklərə qarşı dözümlü olur.

Enerji şaxələnməsi zamanı bazarda rəqabət artır. Bu rəqabət isə qiymətlərin bir mənbənin diktəsi altında dəyişməsini sual altına alır. Belə olduqda ölkə daha iqtisadi cəhətdən sabit enerji qiymətləri ilə təmin olunur.

Enerji istehsalında mənbələrin şaxələndirilməsi bərpa olunan enerji resurslarının (su, külək, günəş, biokütlə) istifadəsini artırır, təxirəsalınmaz tədbirlər həyata keçirilir. Bu isə ekoloji davamlılıq, yaşıl iqtisadiyyatın inkişafı baxımından mühüm məsələdir. Enerji şaxələndirilməsi bir ölkəyə beynəlxalq münasibətlərdə daha sərbəst və balanslı siyasət yürütmək imkanı verir. Bir, yaxud bir neçə enerji tədarükçüsündən asılı olmamaq ölkənin milli təhlükəsizliyinin əsaslarını qoruyur.

Müasir Azərbaycan dövlətçiliyinin memarı olan və ölkəmizin siyasi və iqtisadi sabitliyinin təməllərini qoyan Ulu öndər Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində bir tərəfdən Azərbaycan Respublikasının enerji layihələrinin həyata keçirilməsinin hüquqi və siyasi əsasları yaradılmış, digər tərəfdən sonrakı mərhələlərdə alternativ enerji daşıyıcıları – boru xətlərinin fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Ümummilli lider Heydər Əliyevin bu siyasəti müstəqillik qazanmış Azərbaycan dövlətinin strateji və milli maraqlarına cavab verən bir strategiya idi. Həyata keçirilən bu strategiyaya uyğun olaraq alternativ enerji daşıyıcıları xətlərinin yaradılması ilk növbədə Azərbaycanın xarici dövlətlərdən asılılığının meydana gəlməsinin qarşısını almış, digər tərəfdən ölkəmizə qarşı gözlənilən potensial təzyiqləri dəf etmişdir. Eyni zamanda bu siyasət nəticəsində Azərbaycan öz enerji məhsullarını daha əlverişli enerji bazarlarına çıxarmaq imkanları qazanmış və öz iqtisadi imkanlarını nəzərəçarpacaq dərəcədə artırmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında imzalanmış "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycan neftinin beynəlxalq arenaya çıxarılması üçün müxtəlif marşrut xətləri üzərində ciddi müzakirələr aparılmışdır. Nəticədə Bakı – Supsa, Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum, TAP, TANAP neft-qaz boru kəmərləri vasisətilə Azərbaycanın karbohidrogen ehtiyatları Avropa ölkələrinin enerji təminatında mühüm rol oynadı. Neft-qaz müqavilələri Azərbaycanın sosial-iqtisadi həyatının canlanmasına və sürətli inkişafına səbəb oldu. Qeyd edək ki, 2025-ci ilin oktyabrına qədər Neft Fondunda olan aktivlərin dəyəri 70,16 milyard ABŞ dolları həcmində olub. 2025-ci ilin yanvar-sentyabr aylarında fondun gəlirləri 13 073,5 milyon manat olmuşdur. 2025-ci ilin yanvar-sentyabr aylarında Fond neft-qaz müqavilələrindən 7. 837, 7 milyon manat gəlir əldə etmişdir. 2025-ci ilin əvvəlinə Neft Fondu dövlət büdcəsinə 156 milyard manat transfert etmişdir [5]. Neft müqavilələrindən əldə olunan gəlirlər əsasında 2018-2025-ci illərdə 5 sosial paket həyata keçirilmişdir. Əməkhaqlarının, pensiyaların, müavinətlərin artırılması milyonlarla insanın həyat şəratinə müsbət təsir etmişdir.

Aİ ilə razılaşmaya əsasən 2027-ci ilə qədər qaz tədarükünün 16 milyard kubmetr civarında olması gözlənilir. Qeyd edək ki, 2024-cü ildə TAP vasitəsilə Avropa ölkələrinə 11,84 milyard kubmetr qaz nəql olunub ki, bundan 0,82 milyard kubmetr Bolqarıstana, 1,1 milyard kubmetr Yunanıstana və 9,84 milyard kubmetr İtaliyaya daşınıb. Bu kəmər yolu ilə sifarişlərin günbəgün artması onu göstərir ki, Avropa ölkələrinin Azərbaycan qazına olan davamlı tələbatı yüksəlir ki, bu da Azərbaycanın regionda etibarlı və güvənli enerji təchizatçısı kimi rolunu gücləndirir və tərəfdaşlığı möhkəmləndirir [6].

25 aprel 2023-cü ildə Azərbaycan ilə Macarıstan, Bolqarıstan, Rumıniya və Slovakiya arasında imzalanan Memoranduma görə, Azərbaycan qazının Avropaya əlavə tədarükünə start verilməsi nəticəsində bu ölkələrlə Azərbaycanın strateji əməkdaşlığı daha da yüksəlmiş oldu.

Memorandumun əsas məqsədi Bolqarıstana və Bolqarıstan ərazisindən Cənub-Şərqi Avropanın digər ölkələrinə əlavə qaz tədarükü marşrutlarının imkanlarını və potensialını araşdırmaqdır. SOCAR "Bulgartransgaz" tərəfindən idarə olunan mövcud ötürücü sistemin, eləcə də potensial genişləndirmələrin, o cümlədən planlaşdırılan "Balkan" qaz qovşağının tikintisi kimi layihələrin texniki və kommersiya baxımından uyğunluğunu qiymətləndirmişdir. Bu, Cənub Qaz Dəhlizi vasitəsilə əlavə qaz həcmlərinin Bolqarıstan ərazisindən Avropanın digər bazarlarına tranzitini təmin etməyə imkan verə bilər. Memorandum imzalanarkən Bolqarıstan naziri Petkova bildirib ki, hazırkı Bolqarıstan hökumətinin enerji siyasətində əsas prioriteti enerji təhlükəsizliyinin təmin edilməsi, həmçinin təbii qaz tədarük mənbələrinin və marşrutlarının diversifikasiyasıdır. O vurğulayıb ki, bu məqsədlərə nail olmaq üçün Bolqarıstan geniş şəkildə Azərbaycanla əməkdaşlığa güvənir [1].

ARDNŞ ilə Sloveniyanın "Geoplin" qaz tədarükü şirkəti arasında 2024-cü ilin 17 iyulunda imzalanmış Anlaşma Memorandumu Şərqi Avropa ilə Azərbaycanı daha da yaxınlaşdırdı və uzunmüddətli enerji tərəfdaşlığının əhatə dairəsini genişləndirdi. Belə ki, artıq 2024-cü ilin 2 avqustundan Azərbaycan TAP kəməri vasitəsilə Sloveniyanın qaz ehtiyacının ödənilməsinə kömək edir.

Artıq Azərbaycanla Türkmənistan arasında enerji əməkdaşlığı möhkəmlənməkdə davam edir. “Dostluq” yatağının birgə kəşfi və istifadəsi hər iki ölkəyə xeyli dividendlər gətirir. Bu yatağın 30 milyard kubmetr qaz və 100 milyon barel neft ehtiyatına malik olması tərəflərin əməkdaşlığını genişləndirib. Bu yataq əvvəllər Azərbaycanda “Kəpəz”, Türkmənistanda isə “Sərdar” adlanırdı. 2021-ci ildə Memorandum imzalanarkən hər iki tərəfin razılığı ilə yatağa “Dostluq” adı verildi. Həmin vaxtdan yataq Bakı və Aşqabad arasında səmimi münasibətlərin simvoluna çevrilməklə bərabər, real nümunə kimi çıxış edərək regional enerji dinamikası üçün potensial dönüş nöqtəsi hesab olunur. Bu yataq uzun illər müzakirə olunan Trans-Xəzər Qaz Kəməri və ya onun kiçik variantı olan Trans-Xəzər interkonnektorunun qurulması üçün baza rolunu oynaya bilər ki, bu da Türkmənistan qazının Azərbaycan vasitəsilə Avropaya çatdırılmasına imkan yaradar və Rusiyanın enerji sahəsindəki dominantlığına alternativ təqdim edə bilər. Keçmişdə kəmərin inşasını əngəlləyən iki əsas faktor Avropanın Türkmənistan qazına zəif tələbatı və Xəzər dənizindəki dəniz sərhədinin dəqiq delimitasiyası ilə bağlı Azərbaycan və Türkmənistan arasında yaşanan gərgin və xoşolmayan münasibətlər idi. Rusiyanın Ukrayna müharibəsi və Avropanın Rusiyadan enerji asılılığını azaltmaq cəhdləri həmin tələbatı gücləndirib.

Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistanın sabiq prezidenti və hazırda Halk Maslahatının (Xalq Məsləhəti) sədri olan Qurbanqulu Berdiməhəmmədovla 2025-ci il iyulun 16-da Bakıda keçirilən görüşü iki ölkə arasında “qardaşlıq münasibətlərinin” ifadəsi kimi təqdim olunur. Təəccüblü deyil ki, danışıqların əsas məzmunu enerji əməkdaşlığı, eləcə də ticarət və nəqliyyat əlaqələri ətrafında cəmlənib.

Türkmənistan üçün bu səfər daha geniş enerji əməkdaşlığına və iqtisadi inteqrasiyaya açıq olduğunu göstərmək imkanı verdi. Azərbaycan üçün isə bu, Orta Asiyanı Avropaya bağlayan Cənubi Qafqaz regionunda mühüm enerji və nəqliyyat qovşağı kimi mövqeyini daha da gücləndirdi. Hər iki hakim rejim üçün bu səfər regional səviyyədə davamlı tanınma vasitəsilə legitimliklərini möhkəmləndirdi. Bu səfər enerji əməkdaşlığının möhkəmlənməsi, danışıqların yenilənməsi və planların sürətlənməsi üçün impuls verdi [3].

Özbəkistan ilə Azərbaycan arasında da enerji (xüsusilə elektrik, yaşıl enerji) sahəsində bir sıra önəmli razılaşmalar imzalanıb. Amma bunların əksəriyyəti gələcəyə yönəlik əməkdaşlıq, potensial ixrac, tranzit layihələri və infrastuktur planlarıdır. 2023-cü ildə Azərbaycan və Özbəkistan hökumətləri arasında imzlanan “2023-2025-ci illər üçün Yol Xəritəsi”ndə enerji sahəsində əməkdaşlığı dərinləşdirmək məqsədi irəli sürülüb. “Bu Yol Xəritəsi” karbohidrogen kəşfiyyatı, hasilatı, bərpaolunan enerji keçidi, hidrogen istehsalı, sistem operatorlarının əməkdaşlığı və digər istiqamətləri əhatə edir. Bir il sonra Azərbaycan, Özbəkistan və Qazaxıstan nazirləri üçtərəfli görüş keçirərək Mərkəzi Asiya ölkələrindən elektrik enerjisinin Azərbaycan ərazisindən Avropaya ixracı perspektivlərini müzakirə etməsi, ortaq müəssisənin yaradılması və layihənin hazırlanması barədə razılığın əldə olunması Azərbaycanın Cənubi Qafqazda nüfuzunu daha artırıb. 2024-cü ilin martında ölkələr arasında “yaşıl enerji” sahəsində əməkdaşlıq və elektrik enerjisinin birgə ixracını təşviq edən çərçivə sənədlər üzrə xeyli irəliləyişlər əldə edilib. 13 noyabr 2024-cü ildə isə üç ölkə (Azərbaycan, Özbəkistan və Qazaxıstan) arasında yaşıl enerji”nin (günəş, külək, su) istehsalı, ötürülmə texnologiyaları və ixracı istiqamətlərini nəzərdə tutan “Yaşıl Enerji İstehsalı və Ötürülməsi üzrə Strateji Əməkdaşlıq” sazişinin imzalanması əlaqələri daha sürətləndirib. 2025-ci ilin yaz sessiyasında Azərbaycan Respublikasının Milli Məclisi bu üçtərəfli sazişi təsdiq edib [4]. Özbəkistan 2030-cu ilə qədər elektrik enerjisinin əsasən bərpaolunan mənbələrdən – günəş, külək, sudan – hasil edilməsinə və onun ixracına səy göstərir. Onların strateji planlarına görə, bunun bir hissəsi məhz Azərbaycan vasitəsilə Avropaya çatdırıla bilər.

2025-ci ilin iyulunda Suriyanın keçid dövrü prezidenti Əhməd əl-Şaara və Azərbaycanın Prezidenti İlham Əliyev arasında görüş zamanı təbii qaz tədarükü haqqında memorandumun imzalanması Azərbaycanın enerji ixracının sərhədlərini daha da genişləndirdi. Suriyaya qazın tədarükündə ilkin olaraq onun “gündəlik 3,4 milyon kubmetr” həcmdə veriləcəyi və bu qazın, məsələn, “xalq təsərrüfatı”, enerji bərpası və elektrik təminatı üçün istifadə ediləcəyi bildirilir. Razılaşmaya əsasən, ilkin olaraq ildə təqribən 1.2 milyard kubmetr qaz nəql olunacaq, perspektivdə bu həcmin 2 milyard kubmetrə çatdırılması gözlənilir. İlk mərhələdə qazın Türkiyə vasitəsilə “Kilis – Hələb” boru xətti istiqamətində veriləcəyi, daha sonra isə texniki-logistik imkanlar artırılarsa, Liviya, Dəməşq və digər regionlara da çatdırılması planlaşdırılır [7]. Bu, güclü enerji diplomatiyasının və nüfuzun artması

nəticəsində mümkün oldu. Bu razılaşma ilə Azərbaycan yalnız Avropaya qaz ixrac edən ölkə deyil, həm də “Şərq-Cənub” istiqamətində enerji tədarükçüsü kimi öz mövqeyini genişləndirir. Azərbaycan regional enerji siyasətində aktor statusunu gücləndirir. Belə bir addım, enerjiyə bağlı sabitlik səyləri və regionda siyasi-iqtisadi təsirin artırılması cəhdi kimi görünür: Suriya artıq Azərbaycan vasitəsilə qaz ala biləcəyi ölkələr sırasına daxil oldu – bu, Bakı üçün strateji üstünlükdür. Eyni zamanda, Suriya vətəndaşları üçün gündəlik elektrik verilişinin artırılması, sosial və iqtisadi həyatın normallaşması üçün baza təmin edilməsi mümkün olacaq ki, bu da ölkənin bərpası üçün çox vacibdir.

Razılaşma yalnız qaz tədarükünü deyil, enerji sektorunda bərpa, yenidənqurma, neft-qaz kəşfiyyatı, yaşıllaşdırma və enerji infrastrukturlarının bərpasını da əhatə edə bilər. Azərbaycanın enerji, infrastruktur və neft-qazını Suriya ilə bölüşməsi uzunmüddətli prespektivdə bölgədə strateji enerji təhlükəsizliyi və əməkdaşlığın güclənməsinə gətirib çıxaracaqdır.

Bir sıra analitiklər bu razılaşmanı “siyasi jest”, “simvolik addım” adlandırırlar. Belə ki, Suriya uzun müddət müharibə, dağıntılar yaşamış, zəruri qaz-infrastruktur, boru-kəmərləri, elektrik stansiyaları ciddi ziyan görmüşdür. Yəni, qaz nəqli, elektrikin bərpası üçün sərfəli infrastruktur asanlıqla bərpa edilə bilməyə bilər. Suriya bazarının və energetika sisteminin bugünkü qeyri-stabil durumu, boruların keçirilməsi, ötürmə şəbəkəsinin bərpası və stansiyaların işə salınması ciddi investisiya, texniki resurs və zaman tələb edir. Bu, ilkin mərhələdə planlaşdırılan qaz həcmlərinin nə qədər real təmin edilə biləcəyini sual altına qoyur. Belə hallarda həm logistika, həm maliyyə, həm də diplomatik təzyiqlər riski var. Bu, razılaşmanın davamlılığını təhlükə altına ata bilər. Azərbaycan üçün Avropa bazarına qaz ixracı – sabit, uzunmüddətli, etibarlı müqavilələrə söykənir; bu bazardan qazın çəkilməsi Yaxın Şərq marşrutu və bazarı ilə alternativ müqayisədə risk-gəlir balansını pozar. Əslində isə bu razılaşma Azərbaycanın “enerji diplomatiyası” strategiyasını genişləndirir – ölkə yalnız qonşularına və Avropaya yox, eyni zamanda Yaxın Şərqə də “enerji qapısı” rolunu götürür. Bu, Yaxın Şərqdə Azərbaycanın strateji profilini yüksəldir. Eyni zamanda, belə bir addım Suriyadakı yeni hökumətlə əlaqələri gücləndirir. ABŞ, Avropa və digər beynəlxalq aktorlarla münasibətlərdə Azərbaycanın enerji təminatçısı kimi görünməsinə gətirir. Bu da geosiyasi balansda Azərbaycana əlavə nüfuz qazandırır.

Qeyd edək ki, 2025-ci ildə Qazaxıstan Prezidenti Q.J.Tokayevlə Azərbaycan Prezidenti İ.Əliyev enerji sahəsində yeni strateji sazişlərin imzalanacağını bəyan ediblər. Bu sazişlərə Qazaxıstan neftinin nəqli, tranzit həcmlərinin artırılması və infrastruktur imkanlarının genişləndirilməsi daxildir. Həmçinin Qazaxıstan – Azərbaycan əməkdaşlığı yalnız neft deyil, bərpa olunan, yaşıl enerji, transmilli enerji infrastrukturunun yaradılması, Orta Dəniz-Xəzər “yaşıl enerji dəhlizi” layihələri kimi istiqamətləri də əhatə edir. Qazaxıstan üçün ənənəvi (məsələn, Rusiya yolu) marşrutlara alternativ olaraq BTC, Azərbaycan tranziti enerji diversifikasiyası məqsədi daşıyır. Azərbaycan tranzit marşrutuna çevrilməklə, tranzit haqları, logistik xidmətlər və əlaqəli infrastrukturdan gəlir götürür. Neft-qaz, yaşıl enerji infrastrukturlarının birlikdə inkişafı regionda Qafqaz-Xəzər-Asiya enerji xəritəsini birləşdirir və ölkələrarası əməkdaşlığı gücləndirir. Siyasi, iqtisadi və enerji baxımından Qazaxıstana dərindən inteqrasiya – Azərbaycanın regional nüfuzunu artırır, Qazaxıstan üçün isə təhlükəsizlik zəmanəti yaradır.

Qazaxıstan – Azərbaycan arasında neft və qaz sahəsində əməkdaşlıq hər iki ölkə üçün strateji üstünlüklər yaradan praktik, iqtisadi və geosiyasi bir addımdır. Xüsusən Qazaxıstan üçün alternativ ixrac marşrutu, Azərbaycan üçün tranzit yükü və gəlir, region üçün inteqrasiya şansı deməkdir. Amma bu əməkdaşlığın uzunmüddətli uğurlu olması üçün tarif, infrastruktur, sabitlik və bazar şərtləri kimi faktorlar real idarə edilməlidir. Qlobal enerji keçidi trendi və bazar dinamizmi bu razılaşmaların rentabelliyini daim sınaqdan keçirəcək [9].

8 avqust 2025-ci ildə Vaşinqtonda Azərbaycan Prezidenti İ.Əliyev və ABŞ-nin Prezidenti D.Tramp arasında keçirilən görüşlərdə enerji ixracı məsələləri də gündəmə gətirlib və müəyyən strateji tərəfdaşlıq barəsində razılaşmalar əldə olunub. Hökumətlərarası Memorandum imzalanıb və iki tərəf arasında Strateji Tərəfdaşlıq Xartiyası hazırlamaq üçün Strateji İşçi Qrupu yaratmaq qərarı verilib. Burada regional əlaqələndirmə (o cümlədən enerji, ticarət, tranzit), iqtisadi əməkdaşlıq (investisiyalar və təhlükəsizlik) nəzərdə tutulub. Memorandum enerji tərəfdaşlığını strateji prioritet kimi qeyd edir. Burada “enerji” və “regional bağlantılar” açıq şəkildə göstərlir yəni enerji sahəsində investisiya, infrastruktur və tranzit imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Vaşinqton səfəri zamanı SOCAR

ilə ExxonMobil arasında “Memorandum of Cooperation (əməkdaşlıq memorandumu) imzalandı, sənəd yeni onshore (quru) layihələrdə, geoloji axtarış və inkişaf işlərində əməkdaşlığı, həmçinin SOCAR Trading vasitəsilə ticarət (xam neft, NGL/LNG, petrokimya məhsulları) imkanlarını nəzərdə tutur. Bu, Azərbaycana ABŞ şirkətlərinin investisiyasının artmasını göstərir. Paralel olaraq beynəlxalq şirkətlər (məsələn, BP) də Azərbaycan layihələrinə investisiya planlarını genişləndirir, xüsusilə Şahdəniz kimi qaz layihələrinin genişlənməsi və əlavə qaz təchizatı Avropa və tranzit bazarlarına çıxarış potensialını artırır. Bu, rəsmi Memorandum çərçivəsində nəzərdə tutulmuş enerji tranziti və ixrac imkanları ilə üst-üstə düşür [2].

Vaşinqton razılaşmaları həmçinin regionda tranzit dəhlizlərinin bərpası və inkişafı ilə bağlıdır. Zəngəzur dəhlizi və “Tramp yolu” kimi qeyd olunan infrastruktur layihələri potensial olaraq boru kəmərləri və digər enerji tranzit marşrutları üçün əlverişli şərait yarada bilər. Vaşinqtonda razılaşdırılan regional əlaqə planları (dəmir yolu, yol, enerji infrastrukturunun bərpası və mümkün boru kəmərləri) gələcəkdə Azərbaycan ehtiyatlarının daha rahat ixracına şərait yarada bilər.

SOCAR və Exxon yeni kəşfiyyat-işləmə layihələrini birgə müəyyən edə, maliyyələşdirmə və texnologiya əsaslı tərəfdaşlıq qura bilərlər; belə layihələr nəticəsində orta və uzun müddətə əlavə neft və qaz müqavilələri imzalana bilər.

Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci ildə Slovakiya Respublikasına rəsmi səfəri zamanı bəyan edib ki, Azərbaycanın enerji şaxələnməsi strategiyası mövcud resursların idarə edilməsi ilə yanaşı, eyni zamanda yeni qaz yataqlarının birgə işlənməsi vasitəsilə enerji ixracının artırılmasına istiqamətlənib ki, bu da Slovakiyanın və ona qonşu olan ölkələrin qaz təchizatında yeni imkanlar yaradır. Azərbaycanın enerji sektoru yeni-yeni kəşf edilən yataqlar hesabına dinamik inkişaf edir və əlavə resursların əldə edilməsi üçün beynəlxalq səviyyəli mütəxəssis və şirkətlərin iştirakı ilə geoloji-kəşfiyyat işləri davam etdirilir və yeniliklər gözlənilir. Beləliklə də, hazırda ixrac edilən 25 milyard kubmetr qazın həcmi gələcəkdə daha da artacaq və mövcud müqavilələrin həcmini 2 dəfə artırmaq mümkün olacaqdır.

Azərbaycanın enerji ixrac etdiyi ölkələrin sayının 12-dən 14-ə çatması ölkədə karbohidrogen ehtiyatlarının bol olması ilə yanaşı, həm də Azərbaycanın düzgün enerji diplomatiyası, etibarlı tərəfdaş olması ilə bağlıdır. Yeni layihələr yeni marşrutların çəkilməsinə səbəb olacaq ki, bu da Azərbaycanın prioritet verdiyi istiqamətlərdən hesab olunur.

**Nəticə**

Azərbaycanın enerji ixracında həyata keçirdiyi geoiqtisadi layihələr və şaxələndirilmiş enerji ixracı siyasətinin bölgənin geoiqtisadi vəziyyətinə təsirini dəyərləndirdikdə aydın olur ki, milli maraqların və bölgədə təhlükəsizliyin təmin olunması baxımından istismara verilmiş ixrac-boru kəmərlərinin əhəmiyyəti çox böyükdür. Bu geoiqtisadi layihələri həyata keçirməklə, Azərbaycan nəinki özünün və regionun təhlükəsizliyinə, eyni zamanda Avropa dövlətlərinin Xəzər dənizinin zəngin enerji ehtiyatlarına sərbəst şəkildə çıxış imkanı əldə etməsinə və onların enerji təhlükəsizliyinə töhfə vermiş oldu. Azərbaycanın enerji ixracı üzrə bağladığı yeni müqavilə və memorandumlar, planlaşdırılan layihələr ölkənin sürətli inkişafına xidmət etməklə bərabər, Cənubi Qafqazın siyasi-iqtisadi vəziyyətinə mühüm təsir etməklə, qonşu dövlətlərin də inkişafına stimul verir. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlandıqdan sonra bu dövlət də gələcəkdə planlaşdırılan layihələrdən tranzit ölkə kimi böyük miqdarda gəlir əldə edə bilər. Azərbaycanın sülhsevər və humanist dövlət olması, strateji tərəfdaşlıq mövqeyi qonşu dövlətlərin də sürətli inkişafını stimullaşdıra bilər.

**İstifadə olunmuş ədəbiyyat**

1.Azerbaijan's SOCAR starts gas supplies to Bulgarian industrial units: [Electronic resource]/ URL:https://en.trend.az/business/energy/3914819- 25.04.2023

2.Azerbaijan's SOCAR and ExxonMobil sign memorandum: [Electronic resource]/ URL:https://oc-media.org/azerbaijans-socar-and-exxonmobil-sign-memorandum-in-us -12.11.2025

3.Berdimuhamedov in Baku: Azerbaijan and Turkmenistan: [Electronic resource]/ URL:https://www.trend.az/azerbaijan/politics/4070523// - 18.07.2025

4.Minister-uzbekistan-plans-to-export-surplus-electricity-to-europe-vith-azerbaijan: [Electronic resource]/ URL: https://www.uzdaily.uz/en/– 12.10.2025

5.https://www.oilfund.az

6.https://www.stat.gov.az/source/trade/

7.https://www.aa.com.tr/en/asia-pacific/azerbaijan-s-state-oil-company-signs-gas-supply-mou-with-syria/3629292- 02.12.2025

8.https://qafqazinfo.az/news/detail/azerbaycan-tebii-qazinin-suriyaya-ixraci-yaxin-serq-dovletleri-ile-emekdasliqla-yeni-sehife-acir-478323- 02.12.2025

9.https://en.apa.az/energy-and-industry/tokayev-volume-of-oil-transited-through-azerbaijan-amounted-to-15-million-tons-481317- 01.12.2025

10.Vəliyev, D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası / D.Ə.Vəliyev. – Bakı: Adiloğlu, – 2008. – 428 s.

11. Ağayev, O. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu və iştirakı // https://www.unectf.org/azərbaycan-avropanin-enerji yanvar 2022

**Rəyçi: f.f.d., dos. Məhəmməd Cəbrayılov**

## YUBİLEYLƏR

## FİRUDİN KÖÇƏRLİ -105

**https://doi.org/10.30546/ifs.2026.1.46.1085**

# UNUDULMAZ AZƏRBAYCAN FİLOSOFU, BÖYÜK ELM TƏŞKİLATÇISI, GÖRKƏMLİ İCTİMAİ-SİYASİ XADİM FİRUDİN KÖÇƏRLİ

Özümü çox xoşbəxt hesab edirəm ki, Firudin Köçərli kimi zəngin mənəvi keyfiyyətlərə malik dahi bir şəxsiyyəti yaxından tanımaq, onunla bir yerdə işləmək, onun hənirtisini duymaq, onun daim göstərdiyi insani qayğılardan bəhrələnmək mənə nəsib olmuşdur. Bunu hər zaman, təsadüf düşdüyü bütün hallarda fəxrlə, qürurla qeyd edirəm. Mən indi 94 yaşımın içindəyəm, fəlsəfə elmləri doktoru, professoram, bir çox hökumət-dövlət təltiflərim, elmi mükafatlarım var. Bütün bunların, həmçinin digər uğurlarımın əldə edilməsində böyük ziyalı eloğlum, yaxın qohumum, doğmam Firudin müəllimin əvəzsiz xidmətlərinin olduğunu minnətdarlıqla yad edirəm və bunu özümün mənəvi borcum sayıram.

1949-cu ildə Gədəbəy rayonunun Çayrəsullu orta məktəbini bitirmişdim. Hansı ali məktəbə getmək, hansı ixtisası seçmək barədə qəti qərara gəlməmişdim. İstəyirdim ki, daxil olacağım fakültədə - ixtisasda elmlərin çoxu tədris olunsun. Kəndimizin adlı-sanlı tarix müəllimi Ziréddin İbrahim oğlu, necə deyərlər, hoyuma çatdı. O dedi: “İzzət, nə həyacanlanırsan?! Eloğlumuz Firudin Köçərli Azərbaycan Dövlət Darülfünunun Tarix fakültəsinin nəzdindəki Fəlsəfə şöbəsində təhsil alır. Sən də işini o şöbəyə ver”. Həm Zirəddin müəllimin tövsiyəsini nəzərə alaraq, həm də Firudin Köçərli adından ruhlanaraq işimi Fəlsəfə şöbəsinə verdim. Müəyyən zərurət yarandığından Darülfünunun ozamankı rektoru akademik Abdulla Qarayevlə görüşəsi oldum. (Allah xoşbəxtliyi verəndə də onu damla-damla əta edir; Abdulla Qarayev 1961-ci ildə mən namizədlik dissertasiyasını müdafiə edərkən birinci rəsmi opponentim idi.) Nə isə, mən fəlsəfə şöbəsinə daxil oldum. Yaranmış müəyyən çətinliklərin aradan qaldırılmasında Firudin Köçərli öz köməkliyini göstərdi. Fəlsəfə şöbəsini “əlaçı” diplomu ilə bitirdim. Yenə də Firudin Köçərlinin tövsiyəsi və yaxından köməkliyi ilə Darülfünunun Fəlsəfə kafedrasında (müdir prof. Mehbalı Qasımov) laborant kimi işə başladım. Bu, 1954-cü ilin sentyabr ayı idi. Oxucularımdan xahiş edirəm indiyə qədər yazdıqlarımı adlı-sanlı filosofumuz Firudin Köçərli haqqında deyəcəklərimə kiçik başlanğıc, giriş sözü kimi qəbul etsinlər.

Firudin Köçərli bir xeyli müddət Bakı Dövlət Universitetində (bundan sonra belə yazacam) işlədi, tələbəlik illərindən başlayaraq həmkarlar təşkilatının sədri, sonra da fəlsəfə kafedrasının müəllimi olaraq çalışdı. Onu da deyim ki, Firudin Köçərli Universitetdə çox böyük nüfuza malik idi. Ona xüsusi hörmətlə yanaşır, fikri ilə hesablaşırdılar. Bir əhvalat yadıma düşdü. Mən hələ Fəlsəfə şöbəsində oxuyarkən riyaziyyat müəllimimlə mübahisə etmişdim. Müəllim də məni dekanlığa çağırtdırmışdı. Dekan müavini Zaman Məmmədov (1961-ci ildə namizədlik dissertasiyamı müdafiə edərkən rəsmi opponentlərimdən biri də o idi) mənə dedi: “Sən Firudinin canı, doğrusunu de, əhvalat necə olub?”

Firudin müəllim, əvvəl dediyim kimi, bir xeyli müddət mənim də laborant kimi çalışdığım Fəlsəfə kafedrasında dərs dedi. Kafedranın müdiri görkəmli filosof, yüksək məntiqi təfəkkür sahibi Mehbalı Qasımov idi. Müəllim kimi Firudin Köçərli tələbələrin sevimlisinə çevrilmişdi. Kafedramızda isə onun xüsusi yeri vardı. Mehbalı müəllim kafedranın inzibati idarəçiliyinin bir çox məsələlərinin icrasını Firudin Köçərliyə tapşırmışdı. O da bunun öhdəsindən məharətlə gəlirdi. İctimai işlərdə topladığı müsbət təcrübə bütün sahələrdə onun köməyinə çatırdı. Dünya şöhrətli filosof, akademik Aleksandr Osipoviç Makovelski (yerinə düşər deyim ki, fəlsəfə şöbəsində oxuyarkən mənim də bir neçə fənn üzrə müəllimim o olmuşdu) Firudin Köçərliyə xüsusi hörmətlə yanaşırdı. Kafedramızda çalışan Ənvər Əhmədov, Məqsəd Səttarov, Aslan Aslanov, Şəmsəddin Cəfərov, Qədim Mustafayev, Fuad Qasımzadə Firudin Köçərliyə münasibətlərində çox xoş ünsiyyət və səmimiyyət aurası yaratmışdılar. Firudin müəllimə bu xoş münasibət uzun müddət davam etmişdir.

Akademik Firudin Köçərli böyük alim, akademik Heydər Hüseynovdan sonra, Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi fikir tarixinin ən istedadlı tədqiqatçılarından idi. Bu sahədə xidmət

göstərmiş alimlərin əməyini də yüksək qiymətləndirirəm, lakin həqiqət naminə deməliyəm ki, Firudin Köçərli Azərbaycanın mənəvi-fəlsəfi keçmişinə daha diqqətlə yanaşmanın zəruriliyini dönə-dönə qeyd edən öndər alim idi. Daha doğrusu, Firudin müəllim xalqımızın ictimai-siyasi və fəlsəfi fikir tarixinin öyrənilməsinin, elmi araşdırılmasının prinsiplərini irəli sürmüş, cəsarətlə deyə bilərəm, konsepsiyasını hazırlamış alim idi. Hesab edirəm ki, bu fikir xüsusi sübut tələb etmir. Görkəmli alimin akademik Heydər Hüseynovun fəlsəfi fikir tarixinə həsr olunmuş əsərinin təbliğinə aid seriya məqalələrini, digər elmi yazılarını, çoxlu sayda elmi çıxışlarını yada salmaq kifayət edər. Bu yerdə özümlə bağlı bir əhvalatı da qeyd etmək istərdim. Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında laborant işlədiyim vaxtlar idi. Hegelin fəlsəfi görüşlərinin, daha doğrusu, onun “Məntiq elmi” əsərinin tədqiqi ilə bağlı mövzu götürmüşdüm. Əlbəttə, namizədlik dissertasiyası mövzusundan söhbət gedirdi. Firudin müəllim məni yanına çağıraraq dedi: “Hegeli tədqiq edən tapılar. Hegeli tədqiq etmək üçün böyük alim olmaq lazımdır. Gəl sən özümüzün böyük mütəfəkkirimiz Həsən bəy Zərdabinin fəlsəfi irsinin tədqiqi ilə məşğul ol”. Əzizim-doğmam, yolgöstərənim olan Firudin Köçərlinin bu tövsiyəsini nəzərə alaraq əvvəlki mövzum dəyişdirildi, “Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşləri” mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə başladım.

Firudin müəllim istər Azərbaycanda, istərsə də keçmiş Sovet respublikalarında fəlsəfi kadrların yetişdirilməsi sahəsində həm elmi rəhbər, həm də Müdafiə elmi şuralarının sədri olaraq əvəzsiz xidmətlər göstərmişdir. Bir çox istedadlı filosoflarımız məhz Firudin Köçərlinin yetişdirmələri olmuşlar. Mən özümü çox xoşbəxt hiss edirəm ki, Firudin müəllim 1972-ci ilin 1 martında Bakı Dövlət Universitetinin Elmi Şurasında “XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi fikrin inkişafının fəlsəfi problemləri” mövzusunda doktorluq dissertasiyasını müdafiə edərkən mənim rəsmi opponentlərimdən biri olmuşdur. Onun tənqidi iradları və elmi tövsiyələri mənim gələcək elmi inkişafımda xüsusilə böyük rol oynamışdır. İndi fəxrlə xatırlamağa dəyər ki, hazırda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsinin müdiri işləyən, türk ictimai-siyasi və fəlsəfi fikrinin elmi araşdırılması sahəsində çox istedadlı mütəxəssis, xeyli sayda əsərlərin müəllifi olan Azərbaycan filosofu Faiq Ələkbərlinin Məmməd Əmin Rəsulzadənin ictimai-siyasi və fəlsəfi görüşlərinin tədqiqinə həsr olunmuş namizədlik dissertasiyasına akademik Firudin Köçərli ilə birlikdə elmi rəhbər olmuşuq.

Firudin müəllim haqqında bir fikrimi davam etdirmək istəyirəm ki, o təkcə dissertasiya yazan cavanlara elmi rəhbərlik etməklə kifayətlənmir, eyni zamanda özü də ciddi mövzular üzrə elmi araşdırmalarla məşğul olurdu. Ümumiyyətlə o, ensiklopedik elmi təfəkkürə malik alim idi. Fəlsəfi biliyin bir çox sahələrində öz ciddi elmi yanaşmaları ilə fərqlənirdi. Lakin Firudin müəllimin başlıca tədqiqat obyekti, əvvəldə də dediyim kimi, Azərbaycan xalqının dərin köklərə malik, zənginliyi ilə fərqlənən ictimai-siyasi və fəlsəfi fikri, onun tədqiqi idi. Burada bir məqamı diqqətə çatdırmaq istəyirəm. Bu da ondan ibarətdir ki, Azərbaycanın mənəvi-idraki inkişafında böyük xidmətləri olmuş bir sıra mütəfəkkirlərimizin, xüsusilə Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun və digərlərinin elmi irsinin öyrənilməsi müəyyən qadağalarla rastlaşırdı. Firudin Köçərli bir filosof olaraq, mövcud ideoloji çətinliklərə baxmayaraq, həmin mütəfəkkirlərin dünyagörüşlərinin öyrənilməsi sahəsində çox ciddi elmi araşdırmalar aparmışdır. Bununla yanaşı, Firudin müəllimin Mirzə Fətəli Axundov, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli haqqında yazdığı fəlsəfi əsərlər bu gün də öz elmi dəyərini, sanbalını saxlamaqdadır. Bu əsərlər gənc filosof tədqiqatçılarımız üçün həmçinin metodoloji əhəmiyyətə malikdir.

Firudin Köçərli xeyli müddət AMEA-nın Fəlsəfə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. Mən qəti fikirdəyəm ki, Firudin müəllimin rəhbərliyi dövründə Fəlsəfə İnstitutu xüsusi intibah prosesini yaşamışdır. Bu elm strukturu ciddi surətdə təkmilləşmişdir. İnstitutda istedadlı, işgüzar kadr potensialı yaranmışdır. Ən nəzəri cəlb edən cəhət isə çox qiymətli elmi əsərlərin, çoxcildli kitabların, monoqrafiyaların çap olunub, oxuculara təqdim olunmasıdır.

Firudin Köçərlinin rəhbərliyi dövründə Fəlsəfə İnstitutunun xarici ölkələrin, o cümlədən də keçmiş sovet respublikalarının elm ocaqları, qurumları ilə işgüzar əlaqələri olduqca güclənmişdi. Bu əlaqələrin məntiqi nəticəsi olaraq digər ölkələrdən AMEA-nın Fəlsəfə İnstitutunda fəaliyyət göstərən Müdafiə Şurasında namizədlik və doktorluq dissertasiyasını müdafiə etmək istəyənlərin sayı müdam artmaqda idi. Bir fakt yaxşı yadımdadır. 1980-ci ildə mən Minsk Universitetinin nəzdindəki ictimai elmlər üzrə təkmilləşmə kurslarında təhsil alırdım; artıq fəlsəfə elmləri doktoru, professor idim. Özüm

də Azərbaycan Neft və Kimya İnstitutunda Fəlsəfə kafedrasının müdiri işləyirdim. Belarus alimləri mənə yanaşıb akademik Firudin Köçərlinin rəhbərlik etdiyi Fəlsəfə İnstitutunda dissertasiya müdafiə etmək arzusunda olduqlarını bildirdilər. Nəzərə çatdırmaq istəyirəm ki, həqiqətən bir sıra Belarus alimləri Azərbaycana gələrək, Fəlsəfə İnstitutunda uğurla dissertasiya müdafiə etmişdilər.

Fəxrlə deyə bilərəm ki, Firudin Köçərli Moskva Dövlət Universitetində və SSRİ Elmlər Akademiyası qurumlarında xüsusi hörmətə sahib idi. Ona hörmət edir, onunla hesablaşırdılar.

Mənəvi borc olaraq xatırlatmalıyam ki, mənim bir müəllim, filosof, mütəxəssis kimi yetişməyimdə Firudin Köçərlinin böyük rolu olmuşdur. Onunla elmi təmaslarım, müəyyən qədər elmi əməkdaşlığımız daim köməyimə çatmışdır. Bir sıra konkret faktlar üzərində dayanmaq istərdim. Firudin müəllim bir qayda olaraq elmi yazılarını mənə verərdi ki, onları diqqətlə oxuyub tənqidi iradlarımı bildirim. Belə hallarda mənə deyərdi: “İzzət, məni inandıra bilsən, iradlarını qəbul edərəm, tövsiyələrini nəzərə alaram”.

Azərbaycan KP MK-nın nəzdində Partiya tarixi İnstitutu vardı. Bu İnstitutun nəzdində marksizm-leninizm banilərinin əsərləri Azərbaycan dilinə tərcümə olunurdu. Bu işlə o vaxtın tanınmış tərcüməçiləri Abbas Gülməmmədov, Süleyman Məlikov və digərləri məşğul olurdular. Firudin Köçərlinin rəhbərliyi altında tərcümə şöbəsində tərcümə əsərləri ciddi surətdə müzakirə olunurdu, Firudin müəllimin tənqidi iradları nəzərə alınırdı. Bu müzakirələrdə mən də fəal iştirak edirdim. Söhbət konkret olaraq F.Engelsin “Anti-Dürinq”, “Təbiətin dialektikası”, V.İ.Leninin “Fəlsəfə dəftərləri” əsərlərinin Azərbaycan dilinə tərcüməsindən gedirdi. Mən bu əsərlərin tərcüməsinin müzakirəsinə elmi resenzent kimi cəlb olunmuşdum. Əlbəttə, Firudin müəllimin sayəsində 1955-ci ildə Fəlsəfə kafedrasında laborant işləyərkən Universitetin “Elmi əsərlərin”də mənim rus inqilabçı demokratlarının ictimai-siyasi və fəlsəfi görüşlərinin təhlilinə həsr olunmuş irihəcmli məqaləm dərc edilmişdi. Əslində, bu, mənim diplom işim idi. Firudin müəllim məqaləni oxuyub, bir sıra tənqidi iradlarını nəzərimə çatdırdı. Mən məqaləmi oxuduğuna görə Firudin müəllimə minnətdarlığımı bildirdim və dedim: “Firudin müəllim, mən laborant adamam, yaqin ki, səhvlərimi bağışlayarlar”. Firudin müəllim bir qədər sərt şəkildə dedi: “Xeyir, İzzət, bu məqalə artıq sənin elmi yaradıcılığına daxil oldu, onun hər bir sözü üçün məsuliyyət daşıyırsan”.

Başqa bir fakt Firudin müəllimin təklifi ilə birlikdə bir kitab yazmışdıq. Kitab belə adlanırdı: “N.Q.Çernışevski və Azərbaycanda ictimai fikir”. Bu, həmin Çernışevski idi ki, K.Marks onun siyasi iqtisada (ovaxtkı deyilişi ilə işlədirəm) dair əsərlərini orijinaldan oxuya bilmək üçün rus dilini öyrənmək məcburiyyətində qaldığını söyləmişdir. Digər maraqlı bir faktı diqqətinizə çatdırmağı vacib sayıram. Belə ki, vaxtilə Bakı Dövlət Universitetində aspiranturada fəlsəfədən dərs dediyim, hazırda AMEA-nın müxbir üzvü, görkəmli tarixçi alim, Milli Məclisin deputatı Musa Qasımlı ABŞ-də elmi ezamiyyəti dönəmində ABŞ Konqresinin kitabxanasında olarkən mənim Firudin müəllimlə birgə yazdığımız “N.Q.Çernışevski və Azərbaycanda ictimai fikir” kitabına rast gəlir və onun kataloq qeydiyyatı haqqında sənədin ingilis dilində surətini nəfis şəkildə çıxartdırır və hədiyyə olaraq mənə təqdim edir. Mən də gecikmədən həmin kataloq qeydiyyatının bir nüsxəsini aparıb evlərində Firudin müəllimə verdim. Bir az xəstəhal idi. Üzündə təbəssüm göründü. Məqsədimə nail olmuşdum. İstəyirdim, bu xəstə vaxtında ona bir sevinc bəxş edim.

Akademik Azad Mirzəcanzadə bir alim və şəxsiyyət kimi Firudin Köçərliyə çox böyük hörmət bəsləyirdi, yeri gələndə onun haqqında xoş sözlər söyləyirdi. Həm də bu iki görkəmli alim arasında ciddi elmi əməkdaşlıq vardı. Firudin Köçərli Azad Mirzəcanzadənin bir sıra fəlsəfi ruhlu əsərlərinin, o cümlədən “İxtisasa giriş” əsərinin elmi redaktoru idi. Yerinə düşər deyim ki, mən də həmin əsərlərin (Firudin müəllimin elmi redaktor olduğu əsərlərdən söhbət gedir) elmi resenzenti olmuşam. Oxuculara xatırladıram ki, mən bir vaxtlar Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda Fəlsəfə kafedrasının müdiri işləmişəm. Həmin vaxtlarda Azad müəllimlə aramızda, o cümlədən kafedralarımız arasında çox ciddi elmi əməkdaşlıq mühiti yaranmışdı.

Bir vaxtlar mən Prezident yanında Ali Attestasiya Komissiyasının nəzdində fəlsəfə elmləri üzrə ilk Ekspert Şurasının sədri olmuşam. Hər iki böyük alimin, yəni Azad müəllimlə Firudin müəllimin tövsiyə və iradlarını nəzərə alırdım. Xeyli vaxtdan sonra Sosial elmlər üzrə ümumi Ekspert Şurası yaradıldı və mən də onun tərkibinə daxil edildim. Ekspert Şurasının sədri də AMEA-nın müxbir üzvü, hüquqşünas alim Məsumə Məlikova idi. Şuranın işində fəal iştirak edirdim. Daxil olmuş dissertasiyalarla bağlı səmərəli və qaynar müzakirələr gedirdi. ...Müəyyən vaxt mən Şuraya gəlmirdim.

Bilmirəm, təsadüfmi, ya zərurətmi, həmin anda mən Azərbaycan Respublikasının Baş Nazirinin humanitar işlər üzrə müavini təyin olundum. Bir vaxtdan sonra akademik Azad Mirzəcanzadə mənə zəng etdi və dedi: “Bilirəm, Ekspert Şurasında nədənsə incimisən. İndi oraya getməyində zərurət görmürəm. Bakı Dövlət Universitetində fəlsəfə elmləri üzrə Müdafiə Şurası yaradıram. Həmin Şurada akademik Firudin Köçərli ilə həmsədr olacaqsan”. Əlbəttə, Azad müəllimin bu sözlərindən çox şad oldum. Firudin Köçərli ilə birlikdə Müdafiə Şurasında həmsədr olmağımı elmi irəliləyişimdə daha uğurlu bir addım kimi qəbul edirəm.

Firudin Köçərli ümumxalq hörməti qazanmış maarifçi filosof idi. Onun Azərbaycan xalqının adət-ənənələri haqqında, ölkə daxilində və ondan xaricdə baş verən ictimai-siyasi proseslər, dünyadakı elmi yeniliklər barədə sadə, məzmunlu məruzələri, çıxışları çox maraqla və hörmətlə qarşılanırdı. Respublikamızın hər bir guşəsində onun xüsusi “auditoriyası” vardı. Hətta rayona, Gədəbəyin çox gözəl mənzərəli bir yerində yerləşən doğma İsalı kəndinə gedərkən bir növ “sakit” dayanmaz, rayona istirahətə gəlmiş ziyalılarımızı, tanıdığı filosof, tarixçi alimləri bir yerə toplayıb tədbirlər keçirərdi. Yaxşı yadımdadır, Gədəbəy rayonunda Aydın Quliyev birinci katib işləyən dövrdə Firudin müəllim rayonun mərkəzində ziyalıların iştirak etdiyi yaddaqalan bir tədbir keçirdi. Mənə də qismət oldu ki, bu tədbirdə xüsusi məruzə ilə çıxış edim. Böyük şairimiz Hüseyn Arif də Firudin müəllimin xahişini qəbul edərək bu tədbirə qoşulmuşdu.

Firudin Köçərlinin çox zəhmətkeş, nəcib, xeyirxah ailəsi vardı. Firudin müəllimin ailəsi ayrı-ayrı yerlərdə tutulmuş kirayə evlərdə yaşayırdı. Ailənin maddi imkanları çox zəif idi. Şükürlər olsun ki, ailənin mənzil çətinlikləri tezliklə aradan qalxdı, ev-mənzil təmini yaxşılaşdı. Firudin müəllimin oğulları, qızları böyüyərək, inkişaf edərək cəmiyyətimizdə layiqli yer tutdular, ailəyə şərəf gətirdilər.

Firudin müəllimin Bakının mərkəzində yerləşən evinə tez-tez gedib gəlirdim; özü də, həyat yoldaşı Zərifə xanım da doğmalarım idilər. Firudin müəllimgilə gələn anlarda onu yazı stolunun arxasında oturub kağız-kuğuz içində işləyən görürdüm. Elmi mübahisələrimiz də olurdu. Mən onlara gələndə yedizdirməmiş evdən buraxmazdı, bir qayda olaraq deyərdi: “Zərifə xanım bişirdiyi yeməyi yeməmək olmaz. O inciyər”.

Firudin müəllim doğma kəndləri İsalıya gedərkən mən də öz doğma kəndimiz Düz-Rəsulluda olarkən tez-tez onlara baş çəkərdim. Bulağın başında, ən mənzərəli yerdə evləri vardı. Bir qayda olaraq Firudin müəllimlə Tofiq Köçərlinin (Firudin müəllimlə yanaşı, mənim üçün doğma və əziz olan) əllərində kərənti ot biçdiklərinin və yaxud hansısa digər kənd təsərrüfatı işləri ilə məşğul olduqlarının şahidi olurdum.

Firudin müəllimlə bağlı daha bir faktı-əhvalatı da nəzərə çatdırmaq istəyirəm. 1959-cu ilin yanvar ayının 18-də doğma kəndimiz Düz-Rəsulluda mənim toyum olmalı idi. Bunu əvvəlcədən Firudin müəllimgilə xəbər vermişdim. Çox sevinmişdilər. Üstəlik də mənim, yəni “təzə bəyin” geyim-səliqə probleminə də diqqət yetirmişdilər. Bu işdə əzizim Tofiq Köçərlinin ailəsi də kənarda qalmamışdı. Maraqlı cəhət budur ki, Firudin müəllim mənimlə birlikdə toya gedəcəyini söylədi. Qatarla Dəllər stansiyasına çatarkən Gədəbəydən göndərilmiş “Villis” maşınında bizim kəndimiz Düz-Rəsulluya çatdıq. Toy qayınatam Məhəmməd Rəsulovun kənddəki evində təşkil olunmuşdu, yəni söhbət qız evindən gedir. Hava yanvar ayı olsa da, çox isti idi. Gələn qonaqlar evin həyətində toplaşmışdılar. Firudin müəllimin toyda iştirakı hamını sevindirmişdi. Əslində, Rəsulovlar Firudin müəllimin dayıgilləri hesab olunurdular. Toyun müsiqi təminatını o vaxtlar böyük hörmət sahibi olan, hamının sevimlisi Aşıq Oruc yerinə yetirirdi. Yerinə düşər, deyim ki, Aşiq Orucun doğma oğlu İsmayıl Məmmədov AMEA-nın sayılan-seçilən alimlərindəndir. Onu da deyim ki, bəy evi qız evindən təxminən 300 metr aralıda yerləşirdi. Firudin müəllimlə birlikdə bizim evə getdik. Evimizdəki qohum-əqrəba, qonaqlar Firudin müəllimi böyük məhəbbət və hörmətlə qarşıladılar. Onun toyda, yəni mənim doğulub boya-başa çatdığım evimizdə söylədiyi səmimi sözlər, tərbiyəvi kəlamlar hamını heyran etmişdi, mənim qəlbimə isə əbədi həkk olunmuşdu. Bu hiss indiyə qədər də mənimlədir.

Firudin müəllim xalqın sevimli oğlu idi. Onu hər yerdə sevirdilər, tanıyanlar onunla fəxr edirdilər. Firudin müəllim xeyirxah, hamının işinə yarayan, necə deyərlər, bütün “yaralara” məlhəm tapmağı bacaran böyük bir insan idi. O sanki Azərbaycan fəlsəfəsinin, ictimai-siyasi fikrinin yelkənli gəmisinin bütün dalğalı, təlatümlü sularda rahat hərəkətini təmin edən dahi, görkəmli alim idi. Qeyd etmək istəyirəm ki, Firudin Köçərlinin atası, xatirəsini həmişə əziz tutduğum xalq müdriki Qasım müəllim

böyük oğluna ad seçərkən məhz Azərbaycanın böyük yazıçısı və ədəbiyyatşünası Firudin bəy Köçərlinin adını seçməsi ehtimalı daim qəlbimdə olub.

Azərbaycanın böyük filosofu, ictimai-siyasi xadimi Firudin Qasım oğlu Köçərlinin əziz xatirəsinin daim əziz tutulması hamımız üçün xüsusi mənəvi borc sayılmalıdır. Mənim üçün həmişə əziz-doğma olmuş Firudin müəllimin ruhu qarşısında baş əyirəm.

**İzzət Rüstəmov**
fəlsəfə elmləri doktoru, professor

**https://doi.org/10.30546/ifs.2026.1.46.1087**

# РЕЦЕНЗИЯ

на книгу «**АЛИ И ЧЕТ. Диалоги человеческого разума и искусственного интеллекта. Опыт построения новой философии совместного разума**». Баку, “Bəxtiyar-4”, 2025.

Признаюсь, за весь период своей научно-исследовательской деятельности я впервые с таким удовольствием и искренним интересом пишу рецензию на научный труд. Сразу же после прочтения книги «Али и Чет» у меня возникло настоятельное желание как можно скорее познакомить с ней отечественную и зарубежную общественность, специалистов разных областей и читателей разных поколений.

Безусловно, перед нами, прежде всего глубокое философское исследование. Однако значимость книги выходит далеко за рамки философии и сопряженных с ней дисциплин. Она, полагаю, важна для всех и каждого. И особенно для тех, кто задумывается о судьбах современного мира. Для всех тех людей, старающихся не только понять природу и принципы функционирования наличного бытия, но и жаждущих предложить пути и способы улучшения этого бытия, дабы сделать мир качественно более разумным, справедливым и стабильным.

В аннотации монографии, построенной в форме диалога, отмечается: «Книга представляет собой философское исследование одной из ключевых интеллектуальных проблем XXI века — трансформации форм разума в условиях стремительного развития искусственного интеллекта». В процессе диалогичного анализа проблем сознания, цивилизации, ответственности, бессмертия и будущего знания обосновывается необходимость формирования новой общетеоретической мыслительной системы – философии совместного интеллекта. Того философского мегазнания, которое строится на понимании мира как системы синергетического взаимовключения, взаимодополнения и взаимообогащения. Это – система, определяющая общую мыслительную установку прогрессивного сосуществования как человеческого разума и искусственного интеллекта, так и всех людей, народов и наций на Земле. Иначе говоря, это путь спасения, оздоровления и наиболее приемлемого развития общечеловеческой цивилизации. А в более широком смысле – и самой природы, среды обитания, Космоса.

В целом, на мой взгляд, «философию совместного интеллекта» следует рассматривать как достойную мыслительную и праксиологическую основу, серьезную альтернативу господствующим в последние десятилетия концепциям жёсткого геополитического реализма, основанного на силе. В отличие от доктрины «права сильного» в своем безудержном шествии и торжестве она довлеет над Истиной, Ответственностью и Совестью, подминает и ломает судьбы безвинных людей, народов и стран. Неудивительно, что для «избранных» групп, готовых и жаждущих и далее руководствоваться подобной бесчеловечной доктриной, идея «золотого миллиарда» остается заветной мечтой. Я бы сказал, что развитие искусственного интеллекта и робототехники в определённой мере способно ещё больше усилить сверхматериалистические и субъективно-корпоративные интересы. Прежде всего, потому, что новейшие достижения в развитии науки, техники и технологий рассматриваются и приветствуются ими как дополнительный, более продуктивный и эффективный инструмент накопления богатства, господства и эксплуатации. Разумеется, главным образом – «чужих»! Представителей иных культур, верований и этнических начал.

Примечательно, что «философия совместного разума» не опирается на декларации, лозунги или категорические императивы. В ней нет банально-примитивного навязывания решений по принципу «господа, давайте жить дружно!». Здесь, как говорится, мягкое, уважительное, гибкое, но в тоже время строго аргументированное, духовно-логически выдержанное изложение мысли, системное продуцирование суждений и умозаключений. Наконец, конструирование общей матрицы мыслительной установки, целостной эпистемологической базы как открытой системы предполагает ее развитие и обогащение через новые суждения, гипотезы, предложения и рекомендации. В этом смысле мыслительная диалектика профессора Али Абасова довольно выгодно и выпукло отличается от тех, когда, в

сущности, душится и омертвляется сама диалектика. А под оберткой этого самого понятия «диалектики» осуществляется диктат над Истиной, постепенно превращающийся в беспощадный террор против всего и вся. Собственно, любая диктатура начинается с диктата над истиной!

По мысли автора, переход от логики соперничества к логике взаимозависимости становится ключевым условием подлинного диалога. При этом данный переход не выглядит заранее запрограммированным. Если исходить из смысла-содержания и духа всего исследования, то мне представляется, что словосочетание «логика взаимозависимости» не охватывает всю глубину, смысловой колорит, богатство и элегантность той логики, которая так прекрасно представляется читателю. Не могу конкретно утверждать, но может, более уместно было бы пользоваться словосочетанием - «логика позитивного синергизма», а тип мышления, базирующийся на этой логике, определить, как «критически-синергетический тип мышления». Замечу, что «критичность» здесь относима, прежде всего, к собственному разумению, нежели к чужому. Собственно, без этой соотносимости не может быть места «самокритичности», отсутствие или слабое функционирование которой всегда приводит к весьма негативным последствиям как в обыденной жизни, так и в политической, экономической, социальной, духовной сферах жизнедеятельности общества. Особую важность она представляет в контексте геополитики и международных отношений, созидания и функционирования мирового порядка. И прежде всего, с точки зрения типа мышления, духовного потенциала, поведения и практической деятельности глав государств и политиков ведущих стран мира.

Философия, на мой взгляд, есть, прежде всего, отражение и выражение судьбы самого философа, где стержневым носителем жизни и творчества, забот и тревог, достижений и успехов является разум. Такой, который существенно отличается не только своей глубиной и масштабностью, но зачастую не всегда понятной загадочностью. Эта загадочность придает философии особую специфику. Она, эта специфика, навсегда прописывает человека, смеющего и умеющего мыслить философски, в особую категорию малочисленных людей, то есть, единиц – категорию мыслящих людей. Их не много, и по причине чрезмерной количественной малочисленности эту группу трудно назвать даже «множеством». Это, просто, неуместно.

Но проблема, сопряженная во многих случаях с трагедией, в том, что эта самая специфика вкупе со своей загадочностью может сыграть с человеком весьма злую и печальную шутку. Дело в том, что философия – это также в какой-то мере пристрастие к размышлениям крайнего типа, или к тому, что метафизика называет эсхатологией. Мне представляется, что именно в этом ключе, в определённом смысле судьба проверяет каждого философствующего на прочность. И главный критерий этой проверки – успешно пройти экзамен, – умение сохранять человечность, достоинство и ответственность, совесть и далее (в жизни и творчестве) быть полезным людям, обществу, миру! Претендент, успешно сдавший экзамен, фактически, получает моральную (я бы даже сказал – божественную!) санкцию философствование, на право говорить и писать от имени философии.

Али Абасов из числа тех редких претендентов, которые успешно прошли испытание на прочность. Книга «Али и Чет» является ещё одним убедительным подтверждением сказанного. Убежден, что с ней следует ознакомиться всем, кто мыслит и интересуется будущим цивилизации, а в особенности нашей молодежи, которой предстоит созидать новую культурную и интеллектуальную реальность.

Профессору А.С. Абасову искренне желаю крепкого здоровья, вдохновения и дальнейших научных успехов.

**Доктор философских наук, профессор Абульгасан Аббасов**

**Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər**

Məqalələr Azərbaycan, rus,türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 10-12 səhifə, xülasələrin 15-18 sətir olması tövsiyə olunur.

Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.

Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə yaxud istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s.119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 12 şrift ilə 1intervalla yığılmalıdır.

Məqalələr antiplagiat proqramı ilə yoxlanıldıqdan, rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.

Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.

Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, elmi dərəcəsi və elmi adı (əgər varsa), müəllifin elektron poçt ünvanı göstərilməlidir.

Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.

Jurnalda müvafiq elm sahəsində qabaqcıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.

Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

---

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya heyəti tərəfindən qəbul edilmir.

# Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации

Статьи должны быть представлены на азербайджанском, русском, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на трех языках. Рекомендуется представлять статьи объемом 10-12 страниц, а резюме 15-18 строчек.

Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точки зрения.

Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи, должен быть дан в алфавитном порядке или пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как, например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.

Статья должна быть обсуждена на кафедре или в отделе, где работает автор, а выписка из протокола собрания должна быть представлена редакции.

Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом, на русском языке – кириллицей, на английском языке – английским алфавитом (США), Times New Roman – 12 шрифтом, 1интервала.

Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов Редакционного совета.

В конце статьи автор должен сказать о цели, методологии, научной новизне работы, ее прикладном значении и экономической пользе, соответствующей характеру статьи.

В каждой статье должны быть даны индексы типа УДК и PACS, а также ключевые слова на трех языках.

В статье должны быть указаны имя и фамилия автора, его место работы, адрес и электронная почта.

В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.

В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.

Журнал печатает статьи, соответствующие его профилю.

---

Статьи, не отвечающие вышеизложенным требованиям, не принимаются редакционным советом.

**Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication**

Articles should be submitted in Azerbaijani, Russian, English languages in printed form and electronic version. In addition to the article written in one language, three summaries of it in other languages are to be presented. It is recommended to present 10–12-page articles and summary in 15-18 lines.

Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given either alphabetically or numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 12 font, 1 line spaced.

Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

In the journal there is a room for the articles coming in from the different countries of the world with advanced science.

The journal publishes only those articles which are in conformity with its profile.

---

Articles not meeting the above mentioned requirements are not accepted by the editorial board.

**ELMİ ƏSƏRLƏR**
**Beynəlxalq elmi-nəzəri jurnal**
**№ 1 (46) 2026**

**Redaktorlar:**
Rahilə Həsənova
Elnarə Əliyeva
Alidə Zeynalova

**Kompüter tərtibatı və dizayn:**
Səbinə Mustafazadə

**SCIENTIFIC WORKS**
**The international scientific and theoretical journal**
**№ 1 (46) 2026**

**Editors:**
Rahila Hasanova
Elnara Aliyeva
Alida Zeynalova

**Printing and design:**
Sabina Mustafazade

Yığılmağa verilmişdir: 14.05. 2026
Çapa imzalanmışdır: 25.06.2026
Kağız formatı: 60x84 16/1.
Çap vərəqi: 10,9. Tirajı 200.
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Şöbə müdiri Rəşad Məmmədov
Ünvan: H.Cavid pr-ti 117.
Tel.: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com

Submitted to collection: 14.05.2026
Sent to the press: 25.06.2026
Paper format: 60x84 16/1
Print sheet: 10,9. Copies: 200
Published in the Publishing department of IPS of ANAS. Departement chief Rashad Mammadov
Address: H.Javid ave.117.
Phone: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com